Təhsildə Keyfiyyət Təminatı Agentliyi

Xəzər Universiteti

**XƏZƏR UNİVERSİTETİNİN**

**institusional akkreditasiya qiymətləndirilməsi üzrə**

**Akkreditasiya Komissiyasının**

# YEKUN HESABATI

**2023-cü il**

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr:**

1. Kazımzadə Elmina Mobil qızı – Bakı Dövlət Universiteti, Gender və tətbiqi psixologiya kafedrasının dosenti, p.ü.f.d., dos.;

**Üzvlər:**

2. Piriyeva Lalə Zakir qızı – Azərbaycan Texniki Universiteti, İqtisadiyyat və idarəetmə fakültəsinin dekan müavini, f.ü.f.d., dos.;
3. Eldarova Həcər Elxan qızı – Azərbaycan Turizm və Menecment Universiteti, Tədris-metodiki şöbənin müdiri;
4. Əsədova Şəbnəm Fəxrəddin qızı – Azərbaycan Dövlət Pedaqoji Universiteti, Biologiya və onun tədrisi kafedrasının baş müəllimi, b.ü.f.d.;
5. Qrobbelaar Vonda Dorothea – Qərbi Kaspi Universiteti, Keyfiyyətin təminatı müdiri;
6. Babayeva Aytac Aslan qızı – Azərbaycan Turizm və Menecment Universiteti, Beynəlxalq mədəni əlaqələr tarixi və nəzəriyyəsi ixtisası üzrə 1-ci kurs magistr tələbəsi.

## MÜNDƏRİCAT


Giriş ........................................................ 4
Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar ........................................................ 4
Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri ........................................................ 5
Qiymətləndirmənin icmalı ........................................................ 5
1. STRATEJİ İNKİŞAF ........................................................ 5
2. KEYFİYYƏT TƏMİNATI ........................................................ 16
3. TƏLİM VƏ TƏDRİS ........................................................ 25
4. ELMİ TƏDQİQAT ........................................................ 83
5. İDARƏETMƏ SİSTEMİ ........................................................ 96
6. İNFRASTRUKTUR ........................................................ 116
7. BEYNƏLMİLƏLLƏŞMƏ ........................................................ 124
Komissiyanın istiqamətlər üzrə təhlili ........................................................ 139
Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri ........................................................ 148
Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi. 148

## Giriş

## Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Xəzər Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | Verilmə tarixi - 18 iyul 2019-cu il (2016/17-2020/21-ci tədris illərini əhatə edir) |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | İSN/0 – 488/2056, 25 fevral 2016-cı il, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müddətsiz lisenziya verilmişdir |
| Təhsil müəssisəsinin rəhbəri | Dos. İradə Xəlilova |
| Fakültələrin sayı | 5 |
| Kafedraların sayı | 19 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 36 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 30 |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 23 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı: 3501**<br>Bakalavriat: 2952<br>Magistratura: 486<br>Doktorantura: 63<br>Elmlər doktorluğu proqramı üzrə: - |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 127 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 210 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | contact@khazar.org;<br>(+994 12) 421 10 93 |
| Müəssisənin hüquqi ünvanı | Məhsəti küç.,41, AZ1096, Bakı, Azərbaycan |
| Müəssisənin faktiki ünvanı | Məhsəti küç.,41, AZ1096, Bakı, Azərbaycan |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri
## Qiymətləndirmənin icmalı

Xəzər Universitetinin institusional akkreditasiya qiymətləndirilməsi Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) 2022-ci il 14 noyabr tarixli F-181 nömrəli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq aparılmışdır. Qiymətləndirmənin məqsədi təhsil müəssisəsinin davamlı olaraq təkmilləşdirilməsi və daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək, o cümlədən ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır.

Xəzər Universitetinin institusional akkreditasiyası üzrə Akkreditasiya Komissiyası TKTA tərəfindən təsdiq edilmiş ekspert seçimi proseduruna uyğun olaraq seçilmişdir. 2022-ci il 16 dekabr tarixindən etibarən 3 ay müddətində Xəzər Universiteti tərəfindən Özünütəhlil Hesabatı hazırlanmış və 2023-cü il 15 – 19 may tarixlərində Akkreditasiya Komissiyası tərəfindən ali təhsil müəssisəsində (ATM) sahə baxışı həyata keçirilmişdir.

Yekun Hesabatda əks olunmuş bütün cədvəl və qrafiklər Xəzər Universitetinin Özünütəhlil Hesabatına əlavə olaraq ATM tərəfindən təqdim olunmuş məlumatlar əsasında tərtib edilmişdir.

Akkreditasiya Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

### 1. STRATEJİ İNKİŞAF

#### *1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

#### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

Xəzər Universitetinin Strateji Planı (2018-2023) Elmi Şuranın 2018-ci il 13 aprel tarixli iclasında təsdiq edilmişdir. Sənədin maraqlı tərəflər üçün əlçatanlığı təmin olunur: (https://khazar.org/uploads/centers/Quality_Assurance_Center/files/Strateji_plan.pdf) .

Strateji Planın hazırlanması zamanı Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” və 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı” əsas götürülmüşdür.

Strateji Planın planlaşdırma və təsdiqi aşağıdakı mərhələləri əhatə etmişdir:

- **Planlaşdırma mərhələsi:**
  - Missiya və gələcəyə baxışın müəyyən edilməsi;
  - Mövcud vəziyyətin təhlili: ATM-in mövcud potensialı, güclü və zəif tərəflər, imkanlar və təhdidlər (SWOT);
  - Rəqabət strategiyasının hazırlanması;
  - İnkişaf strategiyasının orta və uzunmüddətli məqsəd və hədəflərinin müəyyən edilməsi;
  - Fəaliyyət planının hazırlanması;
  - Nəticəyönümlü strateji və fəaliyyət planlarının həyata keçirilməsinə nəzarət.

- **Təsdiq mərhələsi:**
  - Strateji Planın hazırlanması üçün Komissiyanın yaradılması və əmrləşdirilməsi;
  - Strateji Planın istiqamətlərinin təsdiqi;
  - Strateji Planın Fəaliyyət Planının təsdiqi;
  - Strateji Planın maraqlı tərəflər üçün əlçatanlığının təmin edilməsi.

Xəzər Universitetinin Strateji Planı aşağıdakı 5 bölmədən ibarətdir:

- Xəzər Universiteti haqqında;
- Missiya;
- Gələcəyə baxış;
- Bizi birləşdirən dəyərlər;
- İstiqamətlər və strateji hədəflər.

Qeyd etmək lazımdır ki, Strateji Planın icrası məqsədilə ATM-də illik tədbirlər planları (2018-2023-cü illəri əhatə edən dövr üzrə) təsdiq edilmiş, əsas fəaliyyət istiqamətlərinə uyğun olaraq tədbirlər, tədbirlərin icrasına məsul struktur bölmələr və indikatorlar müəyyən edilmiş, Strateji Planın illik icrası üzrə hesabatlılıq təmin edilmişdir. Lakin illik tədbirlər planlarında tədbirlərin icra müddətləri göstərilməmiş, indikatorların əsasən ölçüləbilən olduğu müəyyən edilsə də, hədəflərin (icra göstəricilərinin) olmadığı müşahidə edilmişdir.

Strateji Planın icrasını təmin etmək məqsədilə təsdiq edilən tədbirlər planlarında tədbirlərin icra müddətlərinin göstərilməsi, bütün indikatorlar üzrə icra göstəriciləri üçün hədəflərin müəyyən edilməsi tövsiyə olunur.

### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

Xəzər Universitetinin missiyasının ATM-in Strateji Planında müəyyən edilmiş hədəflərə uyğunluğu aşağıdakı cədvəldə təqdim olunur:

***Cədvəl 1. ATM-in missiyasının onun məqsəd və hədəflərinə uyğunluğu***

| Missiya | Strateji hədəf | Tədbirlər planı |
|---|---|---|
| **Ali təhsilin hər üç səviyyəsində tələbə mərkəzli keyfiyyətli təhsil vermək** | **Strateji hədəf**<br>Tələbə mərkəzli öyrənmə mühitini tələbələrin yüksək nəticə əldə etməsi üçün təkmilləşdirmək | ▪ Tələbələrin potensialını inkişaf etdirən tələbə dəstək sistemini müntəzəm təkmilləşdirmək və onun keyfiyyətini yüksəltmək;<br>▪ Tələbələrin öyrənməsi üçün uyğun mühit və resursların təşkilini təkmilləşdirmək. |
| **Tədqiqat yönümlü universitet olmaq** | **Strateji hədəf**<br>Aparıcı tədqiqat yönümlü Universitetə çevrilmək | ▪ Elmi tədqiqat işlərinin nəticələrinin artırılması üçün insan potensialının gücləndirilməsini təmin etmək;<br>▪ Elmi tədqiqatın inkişafına zəmin yaradan mexanizmlərin işlənib hazırlanmasını təmin etmək;<br>▪ Elmi tədqiqatın inkişafında departamentlərin rolunu qüvvətləndirmək;<br>▪ Elmi tədqiqatın inkişafı üçün beynəlxalq əməkdaşlıqları genişləndirmək; |

| | | |
|---|---|---|
| | | ▪ Tədqiqatlar zamanı yaranmış biliyin idarə edilməsini gücləndirmək. |
| | **Strateji hədəf**<br>Universitet-sənaye münasibətlərini universitetin tədqiqat, innovasiya və sahibkarlıq imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək | ▪ Universitetin prioritet qoyduğu ixtisas sahələri üçün müvafiq müəssisə və şirkətlərlə çoxşaxəli əməkdaşlıq qurmaq və bu əməkdaşlığı inkişaf etdirmək;<br>▪ Universitetdə innovasiya və sahibkarlığın inkişafını gücləndirmək. |
| **Öz fəaliyyətini davamlı inkişaf etdirmək** | **Strateji hədəf**<br>Təlim-tədris prosesinin davamlı inkişafını təmin etmək | ▪ Tələbələrin nəzəri biliklərini zənginləşdirmək, gələcək uğurlu karyerasını qurması üçün 21-ci əsr bacarıqlarını inkişaf etdirmək;<br>▪ Qloballaşan təhsil dünyasında yaranan imkanlara cavab olaraq, ömürboyu öyrənmə prinsiplərini dəstəkləyən innovativ təlim-tədris proqramlarını təklif etmək. |
| | **Strateji hədəf**<br>Universitetin davamlı inkişafını təmin etmək üçün professor-müəllim və işçi heyətinin peşəkar inkişafına dəstək vermək | ▪ Professor-müəllim və işçi heyətinin düzgün seçilməsini və davamlı təlimini təmin etmək;<br>▪ Yüksək səviyyəli professor-müəllim və işçi heyətinin universitetlə uzunmüddətli əməkdaşlıqlarını təmin etmək üçün zəmin yaratmaq. |
| | **Strateji hədəf**<br>Tələbə-müəllim, eləcə də işçi heyətinin keyfiyyətli iş aparması üçün maddi-texniki bazanı gücləndirərək universiteti rahat, cəlbedici təhsil məkanına çevirmək | ▪ Universitetin infrastrukturunun inkişafını əlçatanlıq, rahatlıq və innovativlik prinsiplərinə və standartlarına uyğun olaraq davam etdirmək. |
| **Azərbaycana və bütövlükdə regiona xidmət edən universitet olmaq** | **Strateji hədəf**<br>Universitetin beynəlmiləlləşmə siyasətini gücləndirmək | ▪ Beynəlxalq əməkdaşlıqların yenilənməsi, möhkəmlənməsi və yeni əməkdaşlıqların qurulmasını təmin etmək;<br>▪ Universitetin beynəlxalq proqramlarda, qrant müsabiqələrində və digər yarışmalarda uğurlu iştirakını təmin etmək;<br>▪ Universitetin beynəlxalq reytinqlərdə mövqeyini gücləndirmək;<br>▪ Universitetdə formalaşmış beynəlmiləl mühitin inkişafını davam etdirmək. |

Cədvəldən də göründüyü kimi, Strateji Planda müəyyən edilən Xəzər Universitetinin missiyasının onun fəaliyyətinin əsas məqsəd və hədəflərinə uyğunluğu təmin edilmişdir.

### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

Strateji Planın istiqamətlərinin müəyyənləşdirilməsi zamanı strateji hədəflərin ölkənin əmək bazarı, cəmiyyət və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğunu təmin etmək məqsədilə Xəzər Universitetində yaradılmış Komissiyaya bir sıra qurumlardan (Mərkəzi Bankın

İnsan resursları departamenti, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Gilan Holding, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Sumqayıt Dünya Məktəbi, Dünya İB Məktəbi, Şəms Tərcümə Mərkəzi) mütəxəssislər dəvət olunmuş və təklifləri nəzərə alınmışdır.

Sənədin hazırlanması zamanı Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nə istinad edilmiş, BMT-nin "Dayanıqlı inkişaf məqsədləri" əsas götürülmüşdür.

Əlavə olaraq qeyd etmək lazımdır ki, Strateji Planın 7-ci istiqamətində (*Universitet-sənaye münasibətlərini universitetin tədqiqat, innovasiya və sahibkarlıq imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək*) müvafiq indikatordan irəli gələn tələblərə nail olmaq üçün aşağıdakı hədəflər nəzərdə tutulmuşdur:

*7.1. Universitetin prioritet qoyduğu ixtisas sahələri üçün müvafiq müəssisə və şirkətlərlə çoxşaxəli əməkdaşlıq qurmaq və bu əməkdaşlığı inkişaf etdirmək;*

*7.2. Universitetdə innovasiya və sahibkarlığın inkişafını gücləndirmək.*

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

Strateji Planın prioritet istiqamətlərinin ATM-in məqsəd və hədəflərinə uyğunluğunu təmin etmək məqsədilə hər bir struktur bölmənin fəaliyyət planı təsdiq edilir.

Strateji Planın prioritet istiqamətlərinə uyğun olaraq ATM-də aşağıdakı sənədlər də hazırlanmışdır:

- Elmi-tədqiqat strategiyası;
- Beynəlmiləlləşmə strategiyası;
- Keyfiyyət təminatı siyasəti.

Qeyd etmək lazımdır ki, ATM-in "Strateji Planın hazırlanması və icrasının monitorinqi mexanizmi" sənədinin "Strateji planlaşdırma mərhələləri" bölməsində "Rəqabət strategiyası" öz əksini tapsa da, sahə səfəri zamanı Akkreditasiya Komissiyasına müvafiq sənəd təqdim edilməmişdir.

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

Strateji Planda aşağıdakı 7 strateji istiqamət müəyyən edilmişdir:

1. Aparıcı tədqiqat yönümlü universitetə çevrilmək;
2. Təlim-tədris prosesinin davamlı inkişafını təmin etmək;
3. Universitetin davamlı inkişafını təmin etmək üçün professor-müəllim və işçi heyətinin peşəkar inkişafına dəstək vermək;
4. Universitetin beynəlmiləlləşmə siyasətini gücləndirmək;
5. Tələbə-müəllim, eləcə də işçi heyətinin keyfiyyətli iş aparması üçün maddi-texniki bazanı gücləndirərək universiteti rahat və cəlbedici təhsil məkanına çevirmək;

6. Tələbə mərkəzli öyrənmə mühitini daim təkmilləşdirməklə tələbələrin daha yaxşı nəticə əldə etməsinə nail olmaq;
7. Universitet-sənaye münasibətlərini universitetin tədqiqat, innovasiya və sahibkarlıq imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək.

Qeyd etmək lazımdır ki, 7 strateji istiqamət üzrə ümumilikdə 18 hədəf və 62 alt hədəf müəyyən edilmişdir:




***Qrafik 1. Strateji Planda strateji istiqamət, hədəf və alt hədəflər (ədəd)***

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

Strateji Planın icrası məqsədilə tədbirlər planları (qısamüddətli) tədris illəri üzrə təsdiq edilir və müvafiq fəaliyyət istiqamətinə uyğun olaraq tədbirlər əhatə olunur. Akkreditasiya Komissiyasına təqdim edilmiş “Strateji Planın hazırlanması və icrasının mexanizmi” sənədinin təhlili əsasında Strateji Planın icrası üçün tədbirlər planında məqsəd və hədəflər üzrə orta və uzunmüddətli dövr ərzində yerinə yetiriləcək tədbirlərin yalnız illik (qısa) dövr üçün nəzərdə tutulduğu, orta dövrlə bağlı qeydlərin olmadığı, görüləcək tədbirlər üçün ayrı-ayrılıqda icra müddəti haqqında məlumatların olmaması müəyyən edilmişdir.

Qeyd etmək lazımdır ki, Strateji Planın 2018-ci ilin aprel ayında təsdiqlənməsi və 2022/23-cü tədris ilinin yekunlaşmaq üzrə olduğunu nəzərə alaraq növbəti mərhələ üçün hazırlanmalı uzunmüddətli Strateji İnkişaf Planı haqqında ATM tərəfindən Özünütəhlil Hesabatında qeydlərin aparılması və planlaşdırma prosesi barədə məlumatların Akkreditasiya Komissiyasına təqdim olunması məqsədəuyğun olardı.

### 1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

Özünütəhlil Hesabatında qeyd olunur ki, Strateji Planın hədəfləri əsasında hər tədris ili üçün hazırlanan tədbirlər planının hədəfləri üzrə ölçülə bilən kəmiyyət və keyfiyyət göstəriciləri və icrasının qiymətləndirilməsi meyarları müəyyən edilir, qiymətləndirmə mexanizmi isə “Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanının müddəaları əsasında təkmilləşdirilir.

Akkreditasiya Komissiyasına təqdim edilmiş “Strateji Planın hazırlanması və icrasının mexanizmi” sənədində fəaliyyətin nəticələrini qiymətləndirmək üçün kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edildiyi qeyd olunsa da, ATM tərəfindən təqdim edilmiş 5 illik tədbirlər planlarının təhlili nəticəsində müvafiq indikator üzrə fəaliyyətlərin kəmiyyət və keyfiyyət göstəricilərinin bir neçəsində hədəflərin müəyyən edilmədiyi, indikatorlar üzrə icra müddətinin göstərilmədiyi, o cümlədən tədbirlər planında yer alan icra göstəriciləri ilə bağlı fəaliyyətin olmadığı müəyyən edilmişdir.

Həmçinin, sözügedən mexanizm sənədində tədbirlər planında nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün insan, maliyyə resursları və infrastrukturun müəyyən edilməsi nəzərdə tutulsa da, tədbirlər planında yalnız insan resursları (“*tədbirlərin icrasına məsul struktur bölmələr”*) haqqında məlumatın göstərildiyi, maliyyə resursları və infrastruktur barədə məlumatların isə olmadığı müşahidə edilmişdir.

Yuxarıda qeyd olunanlara misal olaraq son hesabat ili (2021/22-ci tədris ili) üzrə aşağıdakı qeydləri göstərmək olar:

***Cədvəl 2. 2021/22-ci tədris ili üzrə Strateji Planın icra vəziyyəti barədə məlumat***

| İstiqamət | Strateji hədəf | İndikator sayı | Hədəfi müəyyən edilən İndikator sayı | Hədəfə nail olunmayanlar və ya icra olunmayanlar |
|---|---|---|---|---|
| 1 | 1.1 | 7 | 2 | Web of Science və Scopus məlumat bazalarında indeksləşən məqalələrin sayı üçün hədəf 5% artım olsa da, dinamikada azalma müşahidə edilir. |
| | 1.2 | 0 | 0 | Nə tədbirlər planında, nə də hesabatda məlumat yoxdur. |
| | 1.3 | 2 | 2 | Hesabatda məlumat yoxdur. |
| | 1.4 | 2 | 0 | Hesabatda əməkdaşlıq memorandumları və qrant layihələrinə cəlb edilmiş tələbələrin sayı ilə bağlı məlumat yoxdur. |
| | 1.5 | 5 | 3 | Hesabatda 1, 3, 4 və 5-ci indikatorlarla bağlı məlumat yoxdur. |
| 2 | 2.1 | 4 | 1 | Hesabatda 2-ci indikatorla bağlı məlumat yoxdur. |
| | 2.2 | 5 | 3 | Hesabatda 3-cü indikatorla bağlı məlumat yoxdur. |
| 3 | 3.1 | 4 | 0 | Hesabatda 1-ci indikatorla bağlı məlumat yoxdur. |
| | 3.2 | 3 | 0 | - |
| 4 | 4.1 | 5 | 5 | - |
| | 4.2 | 2 | 1 | Hesabatda 1-ci indikatorda iştirakçıların sayı ilə bağlı məlumat yoxdur. |
| | 4.3 | 5 | 3 | 4-cü hədəfə nail olunmayıb, 5-ci indikatorla bağlı hesabatda məlumat yoxdur. |
| | 4.4 | 2 | 2 | Hədəflərə nail olunmayıb. |
| 5 | 5.1 | 1 | 0 | Hesabatda yeni dərs materialları, məlumat bazaları, laboratoriyalarda istifadəyə verilmiş müasir avadanlıqlar haqqında məlumat yoxdur. |
| 6 | 6.1 | 6 | 0 | Hesabatda heç bir indikatorla bağlı dinamika verilməyib. |
| | 6.2 | 4 | 2 | Hesabatda 2-ci indikatorla bağlı məlumat yoxdur. |
| 7 | 7.1 | 2 | 0 | - |
| | 7.2 | 3 | 0 | Hesabatda 2-ci indikatorla bağlı məlumat yoxdur. |
| **CƏMİ:** | | **62** | **24** | |

### 1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

Strateji Planın icrası üzrə tədbirlər planlarında yalnız insan resursları (“*tədbirlərin icrasına məsul struktur bölmələr”*) haqqında məlumatın göstərildiyi, maliyyə resursları və infrastrukturla bağlı bölmənin olmadığı müşahidə edilmişdir. Tədris illəri üzrə hesabat sənədlərində müvafiq məlumatlara bir neçə hədəf üzrə rast gəlinsə də, əksər hədəflər üzrə məlumatlandırıcı dinamikalar izlənilmir. Özünütəhlil Hesabatında maliyyə və infrastruktur resursları barədə məlumatlar yer alsa da, müvafiq indikatorun tələbi Strateji Planda nəzərdə tutulmuş hər fəaliyyət və alt hədəflər üçün ayrı-ayrılıqda göstəricilərin verilməsidir.

### 1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

Xəzər Universitetinin büdcə planlaşmasında Strateji Planın maliyyə təminatının əsasən nəzərə alındığı sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.




***Qrafik 2. Strateji Planın maliyyə təminatına ayrılan vəsaitlərin dinamikası (min manatla)***

Özünütəhlil Hesabatında təqdim edilmiş statistik məlumatlara əsasən qeyd etmək olar ki, ATM-in 5 illik büdcə planlaşmasında Strateji Plan üzrə ayrılan maliyyə vəsaitlərinin əsas hissəsi elmi-tədqiqat (34%) və beynəlmiləlləşmə (34%) istiqamətləri üçün nəzərdə tutulmuşdur.




***Qrafik 3. Strateji Planın maliyyə təminatına istiqamətlər üzrə ayrılan vəsaitlərin faiz göstəriciləri (2018-2022-ci illər)***

Ümumilikdə, Strateji Planın icrası üçün illər üzrə ayrılan vəsaitin həcmində pandemiya dövrü istisna olmaqla artım dinamikası müşahidə edilmişdir.




***Qrafik 4. 2018-2022-ci illərdə Strateji Planın icrası üçün ayrılan maliyyə vəsaitlərinin dinamikası (manatla)***

### 1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

Strateji Planın "Missiya" bölməsində Xəzər Universitetinin *"tədqiqat yönümlü, öz fəaliyyətini davamlı inkişaf etdirən, Azərbaycana və bütövlükdə regiona xidmət edən universitet olması"* göstərilmişdir. Həmçinin, ATM-in hədəfinin milli və beynəlxalq səviyyədə bütün tərəfdaşlarla çoxşaxəli əməkdaşlıq quraraq təhsil və tədqiqat sahəsində nüfuzu ilə tanınan dünya səviyyəli təhsil müəssisəsinə çevrilmək olduğu qeyd edilmişdir.

Müvafiq indikator üzrə sənədin strateji hədəflərində aşağıdakı fəaliyyətlər əhatə edilmişdir:

**İstiqamət 1, Strateji hədəf 1.5** – "*Tədqiqatlar zamanı yaranmış biliyin idarə edilməsini gücləndimək";*

**İstiqamət 6, Strateji hədəf 6.1, Alt hədəf 6.1.5** – "*Tələbələrin sosial aktivliyini və məsuliyyətini artırmaq üçün müxtəlif sosial tədbirlər həyata keçirərək onların könüllü sosial fəaliyyətə cəlb edilməsi";*

**İstiqamət 7**, **Strateji hədəf 7.1** – "*Universitetin prioritet qoyduğu ixtisas sahələri üçün müvafiq müəssisə və şirkətlərlə çoxşaxəli əməkdaşlıq qurmaq və bu əməkdaşlığı inkişaf etdirmək";*

**İstiqamət 7**, **Strateji hədəf 7.2** – "*Universitetdə innovasiya və sahibkarlığın inkişafını gücləndirmək".*

Xəzər Universitetində əqli mülkiyyətin qorunması, elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiyalaşdırılması ilə bağlı təkmilləşdirmənin aparılması tövsiyə olunur.

### 1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

Xəzər Universitetində cari il üçün strateji planın hazırlanması zamanı planın əvvəlki illərdə icra vəziyyəti illik hesabatlarda əsasən nəzərə alınır. Belə ki, illər üzrə təqdim olunan hesabatlarda göstərilən dinamika və statistik təhlillər 2017/18-ci tədris ilindən cari ilədək müqayisə edilir.

Lakin Xəzər Universitetinin 2018-2023-cü illər üçün hazırlanmış Strateji Planına müvafiq olaraq 5 illik (uzunmüddətli) tədbirlər planı mövcud olmadığına görə Strateji Planda yer alan istiqamətlər üzrə fəaliyyətlərin icra vəziyyətinin araşdırılmasında müəyyən çətinliklər yaranmışdır.

### 1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

Xəzər Universitetinin Elmi Şurasının 2018-ci il 13 aprel tarixli iclasında təsdiqlənmiş "Strateji Plan (2018-2023)" sənədində GZİT təhlilə rast gəlinməmişdir. GZİT təhlil Strateji Plan üzrə komissiyanın təsdiqləndiyi tədris ilində ATM-in Elmi Şurasının (lakin Özünütəhlil Hesabatında 28 sentyabr göstərilmişdir) 2017-ci il 10 oktyabr tarixli 1 saylı iclasının protokoluna əlavə edilmişdir. GZİT təhlildə 15 güclü tərəf, 3 zəif tərəf, 4 imkan və 3 təhdid qeyd olunmuşdur.

GZİT təhlilə nəzər yetirdikdə həm 2016, həm də 2023-cü illərdə Xəzər Universitetində keçirilmiş akkreditasiya qiymətləndirilməsi zamanı Akkreditasiyanın Komissiyasının istiqamətlər üzrə təhlili ilə ATM-in apardığı təhlil arasında (xüsusilə zəif tərəflərdə, təlim və tədris istiqaməti, idarəetmə sistemi və s.) bir sıra uyğunsuzluqların olduğu müşahidə edilmişdir. GZİT təhlilə yenidən baxılması, Akkreditasiya Komissiyasının, daxili və xarici auditin təhlilinə uyğun olaraq ATM-in GZİT təhlilinin təkmilləşdirilməsi (risk və təhdidlərin qiymətləndirilməsi, onların aradan qaldırılması üçün atılacaq addımlar; imkanların qiymətləndirilməsi, onların əldə edilməsi üçün atılacaq addımlar və s.) tövsiyə olunur.

### 1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Strateji Planın istiqamətlərinin müəyyənləşdirilməsi zamanı Xəzər Universitetində yaradılmış Komissiyaya aşağıdakı tərkibdə maraqlı tərəflər cəlb edilmişdir:

**ATM əməkdaşları –** rektor, prorektorlar, fakültə dekanları, mərkəz və ofis direktorları, şöbə rəisləri;

**Əmək bazarı və istehsalat nümayəndələri** - Mərkəzi Bankın İnsan resursları departamenti, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Gilan Holding, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Sumqayıt Dünya Məktəbi, Dünya İB Məktəbi, Şəms Tərcümə Mərkəzi.

Lakin sözügedən komissiyada **təhsilalan** və **təhsilverənlərin** (inzibati heyətdə təmsil olunmayan) təmsilçiliyi müşahidə edilməmişdir. Özünütəhlil Hesabatında Strateji Planın hazırlanması zamanı Xəzər Universitetində xidməti müqavilə ilə müəllim vəzifəsində çalışan mütəxəssislərin rəyləri və tələbələr arasında keçirilən sorğunun nəticələrinin nəzərə alındığı qeyd olunsa da, birbaşa təmsilçilik məqsədəuyğundur.

Növbəti dövr üçün Strateji Planın hazırlanması zamanı komissiyaya tələbələrin (hər təhsil pilləsi üzrə) və professor-müəllim heyətindən nümayəndələrin (ştatda olan, əvəzçi olmayan) cəlb edilməsi tövsiyə olunur.

### 1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

Xəzər Universitetinin Strateji Planında icra üzrə məsul struktur bölmələr göstərilməsə də, illər üzrə təqdim olunan fəaliyyət istiqamətləri üzrə tədbirlər planlarında müvafiq məlumat yer almış və aşağıdakı struktur bölmələr qeyd olunmuşdur:

*Tədris işləri üzrə prorektorluq, Elmi işlər üzrə prorektorluq, İdarəetmə və tələbə işləri üzrə prorektorluq, İnkişaf Departamenti, Keyfiyyət Təminatı Mərkəzi, fakültələr və yüksək təhsil fakültələri, departamentlər, tədqiqat mərkəzləri, Tədqiqatlara dəstək mərkəzi, Kitabxana informasiya mərkəzi, Maliyyə şöbəsi, Karyera mərkəzi, Kadrlar şöbəsi, İnformasiya texnologiyaları şöbəsi, Beynəlxalq əlaqələr ofisi və s.*

## *1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi*

### 1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti

Xəzər Universitetində Strateji Planın icrası üzrə illik hesabatların hazırlandığı və rektorluğa hər tədris ilinin sonu (iyun ayında) təqdim olunduğu Akkreditasiya Komissiyası tərəfindən müşahidə edilmişdir. Müvafiq hesabatlarda Strateji Planda nəzərdə tutulan əsas fəaliyyət istiqamətləri və onların icra vəziyyəti (keyfiyyət və kəmiyyət göstəriciləri) qeyd olunmuşdur.

ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyasına təqdim edilmiş sənədlərin (“Strateji Planın icrası üzrə hesabatlar” – 2018/19, 2019/20, 2020/21, 2021/22 və 2022/23-cü tədris illəri üzrə) təhlili nəticəsində Strateji Planın icrası üzrə ATM-in struktur bölmələrinin yarımillik hesabatlılığının aparılmadığı müəyyən edilmişdir. ATM-də Strateji Planın icrası üzrə hesabatların yalnız illik əsasda aparıldığı “Strateji Planın hazırlanması və icrasının monitorinqi mexanizmi” sənədində də öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, müvafiq hesabatlara baxış zamanı hədəfə nail olunmayan və ya icra oluna bilməyən məsələlərlə bağlı məlumatlar, səbəblər, hədəflərə nail olmaq üçün görüləcək tədbirlər və növbəti addımlar barədə qeydlərə rast gəlinməmişdir.

Müvafiq indikatorun tələblərindən irəli gələrək Strateji Planın icrası üzrə ATM-in struktur bölmələrinin yarımillik hesabatlarının da tərtib edilməsi, müvafiq hesabatlarda hədəfə nail olunmayan və ya icra oluna bilməyən məsələlərlə bağlı görüləcək işlər barədə məlumatların yer alması və müvafiq məlumatların maraqlı tərəflər üçün əlçatanlığının təmin edilməsi tövsiyə olunur.

### 1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

Xəzər Universitetinin "Strateji Planın hazırlanması və icrasının monitorinqi mexanizmi" sənədində qeyd edildiyi kimi, ATM-in struktur bölmələrinin illik hesabatları monitorinq strategiyası əsasında rektorluq tərəfindən qiymətləndirildikdən sonra iyun ayının sonu və ya iyul ayının əvvəlində müvafiq struktur bölmələrin rəhbərlərinin iştirakı ilə müzakirə edilir və fəaliyyətin təkmilləşdirilməsinə dair təkliflər irəli sürülür.

Lakin müvafiq görüşlərin müzakirələrində qeyd olunan iradlarla bağlı hesabatlar təqdim edilmədiyinə görə müzakirələrdə qarşıya qoyulan məsələlərlə bağlı atılan addımlar Akkreditasiya Komissiyası tərəfindən müşahidə edilə bilməmişdir.

### 1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

ATM-in "Strateji Planın hazırlanması və icrasının monitorinqi mexanizmi" sənədi və Özünütəhlil Hesabatında qeyd olunur ki, Strateji Planın icrasının monitorinqi məqsədilə il ərzində struktur bölmələr ilə mütəmadi olaraq görüşlər keçirilir, planın icrasının gedişatı təhlil edilir və ehtiyac hiss olunan məsələlərdə dəstək verilir. Müvafiq istiqamətdə monitorinq birbaşa rektorluq tərəfindən həyata keçirilir.

### 1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

Strateji Planın icrasının illik monitorinqinin nəticələri müvafiq tədris ilində rektorluq tərəfindən təşkil edilən və struktur bölmələrin iştirakı ilə iyul ayının birinci həftəsi geniş müşavirədə müzakirə edilir, tədbirlər planının hədəflərinin yerinə yetirilmə səviyyəsi təhlil edilir və növbəti tədris ilində tədbirlər planının təkmilləşdirilməsi üçün təkliflər irəli sürülür. Müvafiq görüşlər haqqında məlumatların maraqlı tərəflər üçün əlçatanlığı ATM-in rəsmi internet səhifəsi vasitəsilə təmin edilir:

- https://khazar.org/az/news/5451 - 2021-ci il 15 iyul;
- https://khazar.org/az/news/4954 - 2020-ci il 8 iyul;
- https://khazar.org/az/news/4341 - 2019-cu il 15 iyul;

### 1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

Xəzər Universitetində Strateji Planın icrasının illik monitorinqinin nəticələrinə əsasən növbəti tədris ili üçün tədbirlər planları təkmilləşdirilir, təsdiq edilir və aidiyyəti üzrə struktur bölmələrə təqdim edilir. Lakin Strateji Planın icrasının illik monitorinqinin nəticələrinə əsasən görülən tədbirlər barədə sənədlər Akkreditasiya Komissiyasına təqdim olunmamışdır. Həmçinin, monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığının təmin olunması tövsiyə olunur.

# 2. KEYFİYYƏT TƏMİNATI

## *2.1 Keyfiyyət təminatı siyasəti*

### 2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

Xəzər Universitetində “Keyfiyyət Təminatı Siyasəti” sənədi 2019-cu ildə rektorun əmri ilə təsdiq edilmişdir. Siyasət sənədinin hazırlanmasında akademik və inzibati heyət, bir nəfər təhsilalan və bir nəfər məzun olmaqla 8 nəfərdən ibarət işçi qrup iştirak etmişdir.

“Keyfiyyət Təminatı Siyasəti”nin hazırlanması ilə əlaqədar keçirilmiş Keyfiyyət Təminatı Mərkəzinin 2019-cu il 19 fevral tarixli 1 saylı iclas protokolu (protokolun qərarına əsasən 2019-2023-cü illər üzrə “Keyfiyyət Təminatı Siyasəti” sənədinin hazırlanması üçün işçi qrupun tərkibi təsdiq edilmişdir), 2019-cu il 29 aprel tarixli 2 saylı iclas protokolu (protokolun qərarına əsasən “Keyfiyyət Təminatı Siyasəti” sənədi dəyişikliklər edilərək təsdiq edilmişdir), o cümlədən 2019-cu il 9 sentyabr tarixində yenilənmiş Keyfiyyət Təminatı Mərkəzinin Əsasnaməsinin mövcudluğu Akkreditasiya Komissiyası tərəfindən ATM-ə sahə səfəri çərçivəsində müəyyən edilmişdir.

Sözügedən sənədin hazırlanması zamanı “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi, o cümlədən Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Standartlar və Təlimatlar (ESG) və digər normativ hüquqi aktlara istinad edilmişdir.

### 2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

Xəzər Universitetinin “Keyfiyyət Təminatı Siyasəti” aşağıdakı prioritetləri əsas tutur:

- təhsilin keyfiyyətini təmin edən idarəetmə sisteminin səmərəliliyin artırılması üçün daim təkmilləşdirmə və idarəetmə strukturunun optimallaşdırılması;
- təhsilin keyfiyyətinin davamlı təkmilləşdirilməsi məqsədilə təhsil proqramlarının monitorinqinin keçirilməsi;
- tədris prosesində tələbəyonümlü interaktiv tədris metodları ve texniki vasitələrdən istifadə etməklə, tələbənin daha fəal, məsuliyyətli, nəticəyonümlü təfəkkür əsaslı öyrənmə ve 21-ci əsr bacarıqlarına malik mütəxəssis olmağa təşviqi;
- innovasiyayönümlü elmi tədqiqatlar, layihələr ve startapların effektivliyinin artırılması, innovasiya təşəbbüskarlığının dəstəklənməsi;
- elmi-tədqiqat işlərinin tədris prosesində tətbiqi üçün əlverişli şəraitin yaradılması;
- elmi-tədqiqat və tədris infrastrukturunun müvafiq maddi-texniki bazasının davamlı olaraq yaxşılaşdırılması;
- təhsil və elm sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, tələbə və professor-müəllim heyətinin mobilliyinin artırılması;
- sağlam iş mühitini təmin etməklə, beynəlxalq əməkdaşlıqdan faydalanaraq həm akademik, həm də inzibati heyətin peşəkar inkişafının dəstəklənməsi;

- universitetin əsas fəaliyyət gostəricilərini özündə ehtiva edən elektron informasiya idarəetmə sisteminin təkmilləşdirilməsi;
- bütün maraqlı tərəflərlə effektiv kommunikasiyanın təşkili ilə onların daxili keyfiyyət təminatı prosesinə cəlb edilməsi;
- daxili keyfiyyət teminatı sisteminin davamlı təkmilləşdirilməsi ve keyfiyyət mədəniyyətinin inkişafının dəstəklənməsi;
- təhsilin keyfiyyətinin təkmilləşdirilməsində həyata keçirilən tədbirlər haqqında daxili ve xarici maraqlı tərəflərin məlumatlandırılması;
- universitetdaxili ve universitetdənkənar rəylərin müzakirə edilərək mükəmməliyə doğru davamlı inkişaf üçün nəzərə alınması.

Qeyd etmək lazımdır ki, Xəzər Universitetinin "Keyfiyyət Təminatı Siyasəti" sənədi sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilmişdir.

### 2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

"Keyfiyyət Təminatı Siyasəti" sənədi ATM-in bütün struktur bölmələri ilə paylaşılmış və müvafiq struktur bölmələrin əməkdaşlarının keyfiyyət siyasəti barədə məlumatlı olması təmin edilmişdir. Siyasət ATM-in Strateji Planında müəyyən edilmiş hədəflərə uyğun hazırlanmışdır.

"Keyfiyyət Təminatı Siyasəti"nin əlçatanlığının təmin edilməsi məqsədilə sənəd Xəzər Universitetinin rəsmi internet saytında öz əksini tapmışdır (https://khazar.org/uploads/centers/Quality_Assurance_Center/files/Keyfiyyet_Teminati_Siyaseti.pdf).

Qeyd etmək lazımdır ki, sənəd struktur bölmələrin məlumat lövhələrində yerləşdirilmişdir. ATM-də əmək fəaliyyətinə yeni cəlb olunmuş əməkdaşların "Keyfiyyət Təminatı Siyasəti" sənədi ilə tanışlığı təmin olunur. Akkreditasiya Komissiyasının sahə səfəri çərçivəsində təşkil olunmuş müsahibələr zamanı əməkdaşların sözügedən sənədlə tanış olduğu və sənədlə bağlı verilən sualları ətraflı cavablandırması müşahidə edilmişdir.

ATM əməkdaşlarının "Keyfiyyət Təminatı Siyasəti" sənədi barədə məlumatlı olması və bu siyasəti bölüşməsi sahəsində görülən işlərin davamlılığının təmin edilməsi tövsiyə olunur.

### 2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

"Keyfiyyət Təminatı Siyasəti" sənədində prioritetlərin müəyyənləşdirilməsi zamanı yerli normativ hüquqi baza və beynəlxalq standartlara uyğunluq, əməkdaşların peşəkarlığının artırılması, keyfiyyət idarəetmə sisteminin tələblərinə uyğunluq və effektivliyin artırılması üçün qiymətləndirmə və monitorinqin keçirilməsi, nəticələrin təhlili və siyasətin izlənilməsi nəzərə alınmışdır.

Xəzər Universitetinin 2019-cu il 9 sentyabr tarixində yenilənmiş Keyfiyyəti Təminatı Mərkəzinin Əsasnaməsi və 2022-ci il üzrə Fəaliyyət Planı maraqlı tərəflər üçün (təhsil sistemi, idarəetmə, fakültə, tələbələr və işəgötürənlər) müvafiq məlumatları özündə əks etdirən və icrasına şərait yaradan şəkildə tərtib edilmişdir.

Sözügedən siyasətin əməkdaşlar tərəfindən səmərəli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə ATM rəhbərliyi tərəfindən uyğun şərait yaradılır. Professor-müəllim heyəti, inzibati heyət, o cümlədən təhsilalanlar keyfiyyət təminatı siyasətinin reallaşdırılmasında iştirak edirlər. Belə ki, ATM-in hər bir əməkdaşı icra etdiyi fəaliyyətə, tələbə isə aldığı təhsilin keyfiyyətinə görə məsuliyyət daşıyır.

### *2.2 Daxili keyfiyyət təminatı mexanizmləri*

#### 2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

2000-ci ildə Nottingham Trend Universiteti (Böyük Britaniya) və Haarlem Universitetinin (Niderland Krallığı) birgə əməkdaşlığı ilə həyata keçirilən TEMPUS proqramı çərçivəsində Xəzər Universitetində Keyfiyyət Təminatı Mərkəzi yaradılmışdır. 2008-ci ildə isə TEMPUS proqramının "Azərbaycan universitetlərində təhsildə keyfiyyət təminatı sistemlərinin yaradılması" layihəsi çərçivəsində Xəzər Universitetində Keyfiyyət Təminatı Mərkəzinin fəaliyyəti genişləndirilmişdir.

Mərkəz tədris işləri üzrə prorektora tabedir və fəaliyyətini 2019-cu il 9 sentyabr tarixində təsdiq edilmiş Əsasnamə (yenilənmiş) ilə müəyyən olunan fəaliyyət istiqamətləri üzrə həyata keçirir. Hesabat dövrünü əhatə edən tədris illəri üzrə Mərkəzin təsdiq edilmiş fəaliyyət planlarının mövcudluğu ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

Qeyd etmək lazımdır ki, Xəzər Universitetinin daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi məqsədilə 2021/22-ci tədris ilində Keyfiyyət Təminatı Komitəsi yaradılmışdır. Komitə ATM-in daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində təkliflərin hazırlanması və həyata keçirilməsini izləyən, ATM-in Strateji Planı və məqsədlərinə uyğun olaraq keyfiyyət təminatı sisteminin inkişaf etdirilməsi və koordinasiyasını təmin edən kollegial orqandır.

Xəzər Universitetinin Strateji Planında müəyyən olunmuş hədəfləri, “Keyfiyyət Təminatı Siyasəti”, aparılmış monitorinq nəticələri, o cümlədən maraqlı tərəflərin rəy və fikirlərini əsas tutaraq 2021/22-ci və 2022/23-cü tədris illəri üzrə Komitənin təsdiq edimiş fəaliyyət planlarının mövcudluğu müəyyən edilmişdir.

#### 2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması

Daxili keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi məqsədilə rektorun 2021-ci il 1 sentyabr tarixli U/351A saylı əmri ilə Keyfiyyət Təminatı Komitəsi yaradılmışdır. Komitə Elmi Şuranın 2021-ci il 8 oktyabr tarixli (protokol N 5/20-21) iclasında qəbul olunmuş və 2021-ci il 11 oktyabr tarixində rektor tərəfindən təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir. Əsasnamə Komitənin vəzifələri, fəaliyyət istiqamətləri, iş bölgüsü və s. məsələləri müəyyən edir.

Komitənin tərkibinə prorektorlar, fakültə dekanları, keyfiyyət təminatı mərkəzinin rəhbəri, inkişaf direktoru, tələbə və məzunlar daxildir və üzvləri rektorun əmri ilə 2 tədris ili müddətinə təyin olunur. 2021/22 və 2022/23-cü tədris illərində komitənin tərkibi 14 nəfərdən ibarət olmuşdur.

### 2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

ATM-in Strateji Planında müəyyən edilmiş hədəfləri, “Keyfiyyət Təminatı Siyasəti”, aparılmış monitorinq nəticələri, o cümlədən maraqlı tərəflərin rəy və fikirləri nəzərə alınmaqla Keyfiyyət Təminatı Komitəsinin 2021/2022 və 2022/2023-cü illər üzrə hazırlamış fəaliyyət planlarının mövcudluğu Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

Daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının ATM-in Strateji Planındakı hədəflərə uyğunluğu vəziyyəti araşdırılarkən müəyyən edilmişdir ki, Xəzər Universitetinin Strateji Planında qeyd olunan 7 istiqamət keyfiyyət təminatı istiqamətində atılmış mühüm addımlardır. Lakin Strateji Planda keyfiyyət təminatı sistemi ilə əlaqədar konkret istiqamət göstərilməmiş və hədəflər müəyyən edilməmişdir. Bununla əlaqədar olaraq müvafiq sahədə optimal addımların atılması tövsiyə olunur.

### 2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması

Xəzər Universitetində 2000-ci ildə yaradılmış, 2008-ci ildə isə fəaliyyəti genişləndirilmiş Keyfiyyət Təminatı Mərkəzi keyfiyyət üzrə fəaliyyətlərin icrasına nəzarətə görə məsuliyyət daşıyır. Mərkəz tərəfindən sorğuların təşkili, illik hesabatların hazırlanması, hesabatlar əsasında təkmilləşdirmə tədbirlərinin müəyyənləşdirilməsi istiqamətində fəaliyyətlər icra edilmişdir.

Özünütəhlil Hesabatında qeyd olunur ki, Xəzər Universitetində keyfiyyətin idarəedilməsi sistemi Deminq dövrü prinsiplərinə əsasən qurulmuşdur: Planlaşdır – İcra et – Öyrən (nəticə çıxar) - Təkmilləşdir (PİNT).




***Şəkil 1. PİNT dövriyyəsi modeli***

Xəzər Universiteti 2019/20-ci tədris ilinin yaz semestrində COVİD-19 pandemiyası səbəbindən MS Teams platformasından istifadə edərək onlayn təhsilə keçmişdir və 2020-ci ilin iyun ayında onlayn təhsildə yaranmış çətinliklərlə bağlı təhlillər aparmışdır. Aparılmış təhlil nəticələri departament iclaslarında, fakültə elmi şurasında və universitet rəhbərliyi qarşısında müzakirə edilmişdir.

Yekun olaraq, ATM-in fəaliyyətinin Deminq dövri prinsiplərinə uyğunluğunu və sözügedən istiqamətdə təkmilləşdirmənin aparıldığını qeyd etmək mümkündür.

### 2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması

Xəzər Universitetinin Keyfiyyət Təminatı Mərkəzinin əməkdaşlarının vəzifə səlahiyyətləri müəyyən edilmiş və şöbə əməkdaşları arasında iş bölgüsü meyarlar üzrə formalaşdırılmışdır. Sözügedən məsələlər müvafiq olaraq 2021-ci il 23 sentyabr tarixli Keyfiyyət Təminatı Mərkəzinin direktorunun "Vəzifə təlimatı" və Keyfiyyət Təminatı Mərkəzinin assistentinin "Vəzifə təlimatı" vasitəsilə tənzimlənir.

Keyfiyyət Təminatı Mərkəzinin direktorunun "Vəzifə təlimatı"na əsasən mərkəzin direktoru:

- "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarını, elm və təhsil sahələrinə aid Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını;
- Xəzər Universitetinin Nizamnaməsini;
- Daxili keyfiyyət təminatı sisteminin işlənib hazırlanması və tətbiqinə dair normativ sənədləri;
- Təhsilin keyfiyyətinin təmin edilməsi sahəsində beynəlxalq təcrübəni;
- Təhsilin keyfiyyətinə dair statistik təhlil və məlumatların vizuallaşdırılmasını bilməlidir.

Keyfiyyət Təminatı Mərkəzinin direktorunun "Vəzifə təlimatı" və Keyfiyyət Təminatı Mərkəzinin assistentinin "Vəzifə təlimatı"nda ümumi müddəalar, vəzifə öhdəlikləri, hüquqlar və məsuliyyətlər müəyyən edilməklə təsdiqlənmişdir.

ATM-ə sahə səfəri çərçivəsində təşkil olunmuş müsahibələr və yerində baxış nəticəsində Keyfiyyət Təminatı Mərkəzinin işçi heyətinin 2 nəfərdən (direktor və assistent) ibarət olduğu müəyyən edilmişdir. Aparılmış təhlillər nəticəsində Xəzər Universitetində Keyfiyyət Təminatı Mərkəzinin strukturunun təkmilləşdirilməsi məqsədilə mərkəzin işçi heyətinin sayının artırılması tövsiyə olunur.

### 2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti

Xəzər Universitetinin daxili keyfiyyət təminatı sisteminin təhsil, tədqiqat, beynəlxalq əlaqələr və cəmiyyətə xidmət kimi əsas sahələri əhatə etməklə təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, işəgötürənlərlə əməkdaşlıq, təhsilalanlarla görüləcək işləri fəaliyyət planına daxil etdiyi və əhatəliliyini təmin etdiyi ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

### 2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması

Qeyd etmək lazımdır ki, Xəzər Universitetində "Keyfiyyət Təminatı Siyasəti"ni formalaşdıran normativ hüquqi sənədləri özündə birləşdirən və hər kəs üçün əlçatan olan keyfiyyət təminatı üzrə təlimat kitabı hazırlanmışdır. Xəzər Universitetinin daxili keyfiyyət təminatı bələdçisi təsdiq edilmiş və struktur bölmələrin istifadəsinə verilmişdir. Keyfiyyət təminatı bələdçisi ATM-in keyfiyyət təminatı siyasəti, daxili keyfiyyət təminatı modeli və sistemini özündə birləşdirir (Xəzər Universitetinin "Əsasnamələr və qaydalar toplusu", 2013).

### 2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi

Xəzər Universitetində struktur bölmələrin (fakültə, şöbə və mərkəzlər) icrası yekunlaşmış və hazırda icra olunan fəaliyyətlərinin aralıq və illik hesabatlarının mövcudluğu Akkreditasiya Komissiyasının ATM-ə sahə səfəri zamanı müəyyən edilmişdir, məsələn:

- Keyfiyyətə təsir edən məsələlər üzrə təhlilin aparılması:
  - ✓ *Tələbələrin Xəzər Universitetindən digər universitetlərə köçürülməsinin səbəbinin araşdırılması məqsədilə 2018-ci ildə təhlil aparılmış və hesabat hazırlanmışdır;*
- Onlayn təhsildə yaranmış çətinliklərlə bağlı təhlilin aparılması:
  - ✓ *2019/20-ci tədris ilinin yaz semestrində COVİD-19 pandemiyası səbəbindən MS Teams platformasından istifadə etməklə ATM onlayn təhsilə keçmiş və 2020-ci ilin iyun ayında onlayn təhsildə yaranmış çətinliklərlə bağlı təhlil aparmışdır;*
- Təhsil proqramlarının monitorinqi və qiymətləndirilməsi;

- Hər bir struktur bölmənin fəaliyyətinə dair illik hesabatın tərtib edilməsi və təhlilin nəticələrinə uyğun olaraq növbəti il üçün fəaliyyət planının hazırlanması.

Xəzər Universitetində tədris ilinin sonunda Keyfiyyət Təminatı Komitəsinin üzvlərindən ibarət işçi qrup tərəfindən özünütəhlil aparılır və müvafiq hesabat hazırlanır. Departament rəhbərləri, fakültə dekanları, mərkəz, şöbə və digər struktur bölmə rəhbərlərinin təqdim etdiyi illik hesabatlar əsasında işçi qrup tərəfindən Özünütəhlil Hesabatı formalaşdırılır. Hesabatlar Keyfiyyət Təminatı Komitəsinin iclaslarında müzakirə olunur. ATM-in 2021/22-ci tədris ili üzrə Özünütəhlil Hesabatı 2022-ci il 11 iyul tarixində təşkil olunmuş Komitə iclasında müzakirə edilmişdir.

### 2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti

Akkreditasiya Komissiyasının Xəzər Universitetinə sahə səfəri zamanı təşkil olunmuş görüşlər və müvafiq sənədlərin təhlili nəticəsində qeyd etmək lazımdır ki, ATM-də təlim-tədris prosesinin davamlı inkişafının təmin edilməsi, elmi-tədqiqat fəaliyyəti, beynəlmiləlləşmə siyasəti, tədris prosesinin kəmiyyət və keyfiyyət göstəriciləri üzrə təhlilini özündə ehtiva edən Özünütəhlil Hesabatı hazırlanmış və hesabatın Elmi Şurada müzakirəsi təşkil edilmişdir (Xəzər Universitetinin 2021/22-ci tədris ili üzrə Özünütəhlil Hesabatı).

### 2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti

2016/17-ci tədris ilində Xəzər Universitetində keçirilmiş akkreditasiya qiymətləndirilməsi zamanı ATM-in inkişafının təmin edilməsi məqsədilə Akkreditasiya Komissiyası tərəfindən 19 tövsiyə verilmişdir.

Özünütəhlil Hesabatına (Xəzər Universitetinin 2023-cü ildə institusional akkreditasiyası üzrə Özünütəhlil Hesabatı) əsasən öncəki akkreditasiya qiymətləndirilməsi zamanı qeyd olunmuş iradların aradan qaldırılması və nəzərə alınması istiqamətində ATM tərəfindən işlər aparılmış, verilmiş tövsiyələrin icrasına dair müvafiq hesabat hazırlanmışdır. Hesabatda qeyd olunur ki, tövsiyələrin icrasının təmin edilməsi məqsədilə müvafiq qaydada tədbirlər planı hazırlanmış və 2020-ci il 27 noyabr tarixində TKTA-ya təqdim edilmişdir. Plana icrası nəzərdə tutulan 25 tədbir daxildir. Hesabatda təqdim edilmiş məlumata əsasən sözügedən tədbirlərdən 20-si tam, 4-ü qismən icra olunmuş, 1-i isə icra olunmamışdır.

Qeyd etmək lazımdır ki, ATM-ə təşkil olunmuş sahə səfəri çərçivəsində təşkil olunmuş görüşlər və müvafiq sənədlərin təhlili nəticəsində Xəzər Universitetinin əvvəlki akkreditasiyası zamanı verilmiş bəzi tövsiyələrin hələ də icra olunmadığı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir:

- 5-ci tövsiyə: *Xəzər Universitetində kargüzarlığın mövcud qanunvericiliyin tələblərinə uyğun aparılmasının təmin edilməsi və bu işə nəzarətin artırılması;*
- 10-cu tövsiyə: *Xəzər Universitetinin akademik heyətinin gücləndirilməsi, ştatda olan professor-müəllim heyətinin sayının artırılması və sabit kadr potensialının təmin olunması;*

- 19-cu tövsiyə: *Xəzər Universitetində tyutor xidmətinin təkmilləşdirilməsi.*

#### 2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti

ATM-də maraqlı tərəflərin rəyləri və məmnunluq səviyyəsinin öyrənilməsi məqsədilə akademik heyət, inzibati və tədris-köməkçi heyət, təhsilalanlar, məzunlar və əmək bazarının nümayəndələri arasında sorğular keçirilir. Sorğular Keyfiyyət Təminatı Mərkəzi tərəfindən illik fəaliyyət planına uyğun olaraq təşkil olunur. ATM tərəfindən təqdim edilmiş məlumata əsasən son 5 il ərzində professor-müəllim heyəti və inzibati heyət, tələbələr, məzunlar və işəgötürənlər arasında 30 sorğu təşkil olunmuşdur. Keçirilmiş sorğuların təhlilindən sonra müvafiq olaraq nəticələr Keyfiyyət Təminatı Komitəsinin iclaslarında müzakirə olunur.

Təhsilalanlar və məzunlar arasında keçirilən sorğuların əsas məqsədi Xəzər Universitetinin ümumi fəaliyyətinin qiymətləndirilməsi, fənlər və karyera xidmətinin təşkili üzrə məmnunluq səviyyəsinin ölçülməsi, o cümlədən qazanılmış kompetensiyaların əmək bazarının tələblərinə uyğunluğunun müəyyən edilməsidir.

Qeyd etmək lazımdır ki, sorğu anketləri ilə yanaşı ATM-də fokus qruplar, məzunlar və işəgötürənlərlə görüşlər də təşkil olunur.

### *2.3 Keyfiyyət təminatı mədəniyyəti*

#### 2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

Xəzər Universitetinin əməkdaşlarının ATM-in keyfiyyət təminatı sistemi barədə məlumatlı olması sahə səfəri çərçivəsində Akkreditasiya Komissiyası tərəfindən müşahidə edilmişdir. Belə ki, rəhbərlik, professor-müəllim heyəti və inzibati heyətin sözügedən istiqamətdə icra olunan fəaliyyətdə iştirakı təmin olunur.

Xəzər Universitetində daxili keyfiyyət təminatı sisteminə rəhbərliyin həyata keçirilməsi üçün müvafiq struktur bölmə (Keyfiyyət Təminatı Mərkəzi) və komitə (Keyfiyyət Təminatı Komitəsi) fəaliyyət göstərir.

ATM-də daxili kommunikasiya şəbəkəsinin mövcudluğu ilə bağlı qeyd etmək lazımdır ki, maraqlı tərəflərə məlumatların çatdırılması elektron poçt, MS Teams proqramı, rəy qutuları və digər vasitələrlə həyata keçirilir. SIMS platforması tədrisin elektron idarəedilməsi sistemi olaraq tətbiq edilir, lakin dərs materiallarının tələbələr arasında paylaşılması sözügedən sistem vasitəsilə tənzimlənmir. Əlavə olaraq qeyd etmək lazımdır ki, Xəzər Universitetinin struktur bölmələri arasında daxili yazışmalarda səmərəli kommunikasiya şəbəkəsinin qurulmasını təmin edəcək elektron sənəd dövriyyəsi sistemi tətbiq edilmir.

#### 2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

İnkişaf tələb edən sahələrin müəyyənləşdirilməsi məqsədilə ATM-də keyfiyyət təminatı sahəsində fərqli üsullardan istifadə etməklə əks-əlaqə təmin olunur.

Xəzər Universitetində keyfiyyətin müşahidəsinin təhlili nəticəsində mövcud problemlərin həlli və onların aradan qaldırılması məqsədilə korreksiyaedici tədbirlərin həyata keçirildiyi ATM-ə sahə səfəri zamanı məlum olmuşdur. Buna baxmayaraq, bəzi struktur bölmələrdə keyfiyyətin monitorinqi üçün yazılı qaydada müəyyən edilmiş qiymətləndirmə meyarları ATM-ə sahə səfəri zamanı müşahidə edilməmişdir (məsələn, inzibati heyət üçün).

Əlavə olaraq qeyd etmək lazımdır ki, əks-əlaqə mexanizminin mövcudluğu və müvafiq məlumatların təhlilinə baxmayaraq, ATM-də rəylərin təhlili mexanizmi üzrə yazılı meyarların, o cümlədən rəylərin maraqlı tərəflərə vaxtında çatdırılmasını təmin edən yazılı prosedur qaydalarının mövcudluğu Akkreditasiya Komissiyasının ATM-ə sahə səfəri zamanı müəyyən edilməmişdir.

### 2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

Qeyd etmək lazımdır ki, Xəzər Universitetinin rəhbərliyinin ATM-də keyfiyyətin təmin olunmasına dəstəyi müşahidə edilmişdir.

ATM əməkdaşlarının fəaliyyətinin səmərəli şəkildə yerinə yetirilməsi üçün tədbirlər həyata keçirilsə də, Keyfiyyət Təminatı Mərkəzinin əməkdaşlarının sayının (hal-hazırda mərkəzdə 2 nəfərdən ibarət işçi heyəti fəaliyyət göstərir - direktor və assistent) artırılması icra olunan fəaliyyətlərin keyfiyyətinin daha da artmasına töhfə verməsi baxımından tövsiyə olunur.

ATM-də keyfiyyət mədəniyyətinin formalaşması məqsədilə müəssisə daxilində əməkdaşlığın təşviqi müşahidə edilmişdir. Həmçinin, institusional davamlılığın təmin olunması ATM rəhbərliyinin diqqət yetirdiyi prioritet fəaliyyət istiqamətlərindən biridir.

### 2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti

ATM-də keyfiyyətin təmin olunması sahəsində Keyfiyyət Təminatı Mərkəzi tərəfindən müvafiq məlumatların toplanması, təhlili və paylaşılması həyata keçirilir.

Keyfiyyətin təmin olunması istiqamətində fəaliyyət planlarının hazırlanması, icra müddəti və məsul strukturların müəyyənləşdirilməsi üzrə ATM-də strukturlararası fəaliyyətin koordinasiyası təşkil olunur.

## 3. TƏLİM VƏ TƏDRİS

### *3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

#### 3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

Xəzər Universitetində tələbə qəbulu sifarişlərinin hazırlanmasının mexanizmi formalaşdırılmışdır. Bu məqsədlə hər tədris ilinin oktyabr - noyabr aylarında ixtisas departamentlərinin və fakültələrin fikir və rəyləri nəzərə alınaraq rektorluqda müzakirə təşkil olunur və qəbul planı müəyyənləşdirilir.

Xəzər Universitetində əmək bazarının ehtiyaclarına uyğun olaraq tələbə qəbulu yerləri üzrə sifarişlərin müəyyənləşdirilməsi üçün universitetdə yaradılmış əmək bazarı və işəgötürənlərin təmsil olunduğu Məsləhət Şurası ilə görüşlər keçirilir.

Məsləhət Şurasının fəaliyyəti Xəzər Universitetinin "Əsasnamələr və Qaydalar Toplusu"nda yer alan "Məsləhət Şurası haqqında Əsasnamə"nin tələblərinə görə tənzimlənir. Məsləhət Şurasının müəyyən üzvləri ATM-in rektoru tərəfindən təyin edilir, digər üzvləri isə Şura tərəfindən seçilir. Nəticədə təsdiq olunmuş qəbul sifarişləri Elm və Təhsil Nazirliyinə proqnoz məktubu formatında göndərilir.




***Qrafik 5. Bakalavr pilləsi üzrə qəbul planı və faktiki qəbul (nəfər)***




***Qrafik 6. Bakalavr pilləsi üzrə faktiki qəbulda dövlət sifarişi ilə qəbul (nəfər)***

2021/22-ci tədris ilində bakalavriat səviyyəsində 36 ixtisas üzrə qəbul keçirilmişdir. 4 ixtisas üzrə qəbul planı tam, digər ixtisaslar üzrə isə ümumilikdə 80% dolmaqla, 767 təhsilalandan 475-i dövlət sifarişi ilə ATM-ə qəbul olmuşdur. Əmək bazarının tələblərinə cavab olaraq ixtisaslar üzrə tələbə qəbulunun artırılmasına nail olunmuşdur. Əcnəbi tələbələrin sayı 20 olmuşdur.




*Qrafik 7. Magistratura pilləsi üzrə qəbul planı və qeydiyyatdan keçən tələbə sayı (nəfər)*




*Qrafik 8. Magistratura pilləsi üzrə qəbulda dövlət sifarişi ilə qəbul (nəfər)*

2021/22-ci tədris ilində magistratura səviyyəsində 30 ixtisaslaşma üzrə qəbul aparılmışdır. 13 ixtisasda qəbul planı tam, digər ixtisaslar üzrə isə 83% olmaqla, 224 təhsilalandan 72-si dövlət sifarişi ilə qəbul olmuşdur. Əcnəbi tələbələrin sayı 10 olmuşdur.

Xəzər Universitetində 2020-ci ildə cəmiyyətin və əmək bazarının tələblərini ödəmək məqsədilə “Mediasiya üzrə MBA proqramı” yaradılmışdır.

ATM-in illər üzrə faktiki tələbə qəbulunun dinamikasında, eləcə də dövlət sifarişi ilə qəbulun sayında artım müşahidə olunur.

Lakin bir çox ixtisasların qəbulunda, 2021/22-ci tədris ilinin bakalavriat səviyyəsi üzrə qəbul planında Coğrafiya müəllimliyi ixtisasına qəpul planı 15 yer olmasına baxmayaraq faktiki qəbul 0, Kimya müəllimliyi ixtisasına qəbul planı 15 yer olmasına baxmayaraq faktiki qəbul 1 olmuşdur.

2021/22-ci tədris ilinin magistratura pilləsi üzrə İqtisadi nəzəriyyə ixtisaslaşması üzrə qəbul planı 5 yer olmasına baxmayaraq qəbul 0 olmuşdur.

***Cədvəl 3. Qəbul yerləri dolmayan ixtisaslar***

| İxtisas | Tədris ili | Qəbul planı (nəfər) | Faktiki qəbul (nəfər) | Qəbul planının dolma faizi (%) |
|---|---|---|---|---|
| **Coğrafiya müəllimliyi** | 2020/21 | 15 | 1 | 7 |
| | 2021/22 | 15 | 0 | 0 |
| | 2022/23 | 15 | 3 | 20 |
| **Kimya müəllimliyi** | 2020/21 | 15 | 1 | 7 |
| | 2021/22 | 15 | 1 | 7 |
| | 2022/23 | 15 | 13 | 87 |

Doktorantura/dissertantura səviyyəsi üzrə ayrılmış 32 nəfərlik qəbul planından faktiki qəbul 7, qəbul planının dolma faizi 22% olmuşdur.

Yuxarıda qeyd olunanlar nəzərə alınmaqla, sifariş yerlərinin sayının müəyyənləşdirilməsində təhlillərin aparılmasına, bir çox ixtisasların qəbulunda əmək bazarının tələblərinin nəzərə alınmasının vacibliyinə və prioritet ixtisaslar üzrə qəbulun keçirilməsinə ehtiyacın olduğu müşahidə edilmişdir.

### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

ATM-də tələbə qəbulu üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin meyarlarının nəzərə alınması üçün Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı Məşğulluq İdarəsi ilə birgə əmək yarmarkaları keçirilir.

Eyni zamanda, Xəzər Universitetində əmək bazarının ehtiyaclarına uyğun olaraq tələbə qəbulu yerləri üzrə sifarişlərin müəyyənləşdirilməsi məqsədilə ATM-də yaradılmış əmək bazarı nümayəndələrinin və işəgötürənlərin təmsil olunduğu Məsləhət Şurası ilə görüşlər keçirilir.

Məsləhət Şurasının fəaliyyəti Xəzər Universiteti "Əsasnamələr və Qaydalar Toplusu"nda yer alan "Məsləhət Şurası haqqında Əsasnamə"nin tələblərinə görə tənzimlənir (https://khazar.org/az/news/4076).

Yuxarıda qeyd olunanlar nəzərə alınmaqla, bir çox ixtisasların qəbulunda əmək bazarının tələblərinin nəzərə alınmasının vacibliyinə və prioritet ixtisaslar üzrə qəbulun keçirilməsinə ehtiyacın olduğu müşahidə edilmişdir.

### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

Özünütəhlil Hesabatında Xəzər Universitetində tələbə qəbulu üzrə sifarişlərin müəyyənləşdirilməsində işəgötürənlərin  təmsil olundugu Məsləhət Şurasında müzakirələrin aparıldıgı qeyd olunmuşdur. ATM-ə sahə səfəri çərçivəsində təşkil olunmuş müsahibələr zamanı işəgötürənlərin rəylərinin olduğu ATM nümayəndələri tərəfindən bildirilsə də, sözügedən sənədlər Akkreditasiya Komissiyasına təqdim olunmamışdır.

### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 may 2019-cu il tarixli, 230 saylı "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi" Qaydalarının 5.1-ci bəndinə uyğun olaraq həyata keçirilməsi nəzərdə tutulur. Fənlərin tanınması zamanı müvafiq kreditlər və saatlarla yanaşı tələbələrin əvvəlki təhsilində fənlər üzrə əldə etdikləri kompetensiyalar da nəzərə alınır.

Xəzər Universitetinə qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması "Kreditlərin transferi (köçürülməsi)" haqqında əsasnaməyə uyğun olaraq həyata keçirilir.

"Kreditlərin transferi (köçürülməsi)" haqqında əsasnamə digər ali təhsil müəssisələrindən fənlərin köçürülməsi, Xəzər Universiteti daxilində transfer prosesini, mübadilə proqramları zamanı qazanılan kreditlərin qəbulu prosesini özündə ehtiva edir.

Qazanılan kreditlərin ATM-də tələbənin SIMS hesabına köçürülməsi üçün rəsmi transkriptin əlavə olunduğu Kredit Transfer forması tərtib olunur. Kredit Transfer formasında köçürülən fənnin kodu, adı, krediti və qiyməti, eləcə də Xəzər universitetində fənnin kodu, adı, krediti, bloku və qiymətinin ekvivalenti qeyd olunur.

## *3.2 Təhsil proqramları*

### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

Xəzər Universitetində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na (https://e-qanun.az/framework/41438), 2011-ci il 14 iyun tarixli 95 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na (https://e-qanun.az/framework/21781), 2012-ci il 15 mart tarixli 65 saylı Qərarı ilə təsdiq edilmiş Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na (https://e-qanun.az/framework/23253) uyğun olaraq bakalavriatura səviyyəsi üzrə mövcud 10 ixtisas qrupunun 8-i üzrə 35 ixtisas olmaqla, magistratura səviyyəsi üzrə mövcud 10 ixtisas qrupunun 5-i üzrə 16 ixtisas (24 ixtisaslaşma), MBA proqramı üzrə "Biznesin idarə edilməsi" ixtisası, Biznesin təşkili və idarə edilməsi ixtisaslaşması üzrə 8 istiqamət, doktorantura (dissertantura) səviyyəsi üzrə mövcud 25 elm sahəsinin 9-u üzrə 22 ixtisas olmaqla kadr hazırlığı həyata keçirilir.

***Cədvəl 4. Bakalavriat səviyyəsi üzrə kadr hazırlığının əhatəliliyi (2020/21-2022/23-cü tədris illəri)***

| İxtisas qrupu | № | İxtisaslar |
|---|---|---|
| 1. Təhsil | **1.** | 050101 - Azərbaycan dili və ədəbiyyatı müəllimliyi |
| | **2.** | 050102 - Biologiya müəllimliyi |
| | **3.** | 050103 - Coğrafiya müəllimliyi |

| | | |
|---|---|---|
| | **4.** | 050105 - Fizika müəllimliyi |
| | **5.** | 050107 - İbtidai sinif müəllimliyi |
| | **6.** | 050109 - Kimya müəllimliyi |
| | **7.** | 050110 - Kimya və biologiya müəllimliyi |
| | **8.** | 050115 - Riyaziyyat və informatika müəllimliyi |
| | **9.** | 050116 - Tarix müəllimliyi |
| | **10.** | 050117 - Tarix və coğrafiya müəllimliyi |
| | **11.** | 050119 - Təsviri incəsənət müəllimliyi |
| | **12.** | 050121 - Xarici dil müəllimliyi (ingilis dili üzrə) |
| 2. Humanitar və sosial | **13.** | 050201 - Beynəlxalq münasibətlər |
| | **14.** | 050205 - Filologiya<br>- Azərbaycan dili və ədəbiyyatı<br>- İngilis dili və ədəbiyyatı |
| | **15.** | 050210 - Politologiya |
| | **16.** | 050211 - Psixologiya |
| | **17.** | 050212 - Regionşünaslıq (Amerikaşünaslıq, Avropaşünaslıq, Asiyaşünaslıq, Şərqşünaslıq) |
| | **18.** | 050215 - Tərcümə (ingilis, ərəb, fars və çin dili) |
| 3. Mədəniyyət və incəsənət | **19.** | 050306 – Dizayn (sahələr üzrə) |
| 4. İqtisadiyyat və idarəetmə | **20.** | 050402 - Biznesin idarə edilməsi |
| | **21.** | 050405 - İqtisadiyyat |
| | **22.** | 050406 - Maliyyə |
| | **23.** | 050407 - Marketinq |
| | **24.** | 050408 - Menecment |
| | **25.** | 050409 - Mühasibat |
| 5. Təbiət | **26.** | 050509 - Kompüter elmləri |
| 6. Texniki və texnoloji | **27.** | 050607 - Elektrik və elektronika mühəndisliyi |
| | **28.** | 050617 - İnşaat mühəndisliyi |
| | **29.** | 050618 - Kimya mühəndisliyi |
| | **30.** | 050620 - Kompüter mühəndisliyi |
| | **31.** | 050628 - Mexanika mühəndisliyi |
| | **32.** | 050631 - Neft-qaz mühəndisliyi |
| | **33.** | 050636 - Radiotexnika və telekommunikasiya mühəndisliyi |
| 7. Kənd təsərrüfatı | **34.** | 050704 - Baytarlıq təbabəti |
| 8. Səhiyyə rifah və xidmət | **35.** | 050810 - Turizm işinin təşkili |

***Cədvəl 5. Magistratura səviyyəsi üzrə kadr hazırlığının əhatəliliyi (2020/21-2022/23-cü tədris illəri)***

| İxtisas qrupu | № | İxtisaslaşmalar |
|---|---|---|
| 1. Təhsil | **1.** | Pedaqogika nəzəriyyəsi və tarixi |
| 2. Humanitar və sosial | **2.** | Beynəlxalq münasibətlər və diplomatiya |
| | **3.** | Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi |
| | **4.** | Azərbaycan ədəbiyyatı |
| | **5.** | Azərbaycan dili |
| | **6.** | Dilşünaslıq (ingilis dili) |
| | **7.** | Dünya siyasi prosesləri |
| | **8.** | Konfliktologiya |
| | **9.** | Ümumi psixologiya |
| | **10.** | Klinik (tibbi) psixologiya |
| | **11.** | Regionşünaslıq (regionlar üzrə) |
| | **12.** | Tərcümə (ingilis dili) |
| 4. İqtisadiyyat və idarəetmə | **13.** | Biznesin təşkili və idarə edilməsi |

| | | |
|---|---|---|
| | | - Maliyyə<br>- Mühasibat uçotu və audit<br>- Turizm və otelçilik<br>- Marketinq<br>- Ümumi təyinatlı<br>- Layihənin idarə edilməsi<br>- Menecment<br>- Mediasiya |
| | **14.** | İqtisadi nəzəriyyə |
| | **15.** | İqtisadiyyatın tənzimlənməsi |
| | **16.** | Maliyyə menecmenti |
| 5. Təbiət | **17.** | Molekulyar biologiya |
| | **18.** | Azərbaycanın fiziki coğrafiyası |
| | **19.** | Kompüter sistemlərinin və şəbəkələrinin proqram təminatı |
| | **20.** | İnformatika |
| 6. Texniki və texnoloji | **21.** | Elektron cihazlar və qurğular |
| | **22.** | Elektronika və avtomatika |
| | **23.** | Kompüter mühəndisliyi |
| | **24.** | Neft və qaz yataqlarının işlənməsi |

***Cədvəl 6. Doktorantura üzrə kadr hazırlığının əhatəliliyi (2020/21-2022/23-cü tədris illəri)***

| Elm sahələri | № | İxtisaslar |
|---|---|---|
| 12. Riyaziyyat | **1.** | 1203.01-Kompyuter elmləri |
| | **2.** | 1211.01-Diferensial tənliklər |
| 24. Biologiya | **3.** | 2406.02-Biokimya |
| | **4.** | 2409.01-Genetika |
| | **5.** | 2414.01-Mikrobiologiya |
| | **6.** | 2415.01- Molekulyar biologiya |
| 33. Texnika | **7.** | 3305.07-İnşaat materialları və məmulatları |
| | **8.** | 3322.01-Enerji texnologiyası |
| | **9.** | 3347.01-Nanotexnologiya və nanomateriallar |
| 53. İqtisad | **10.** | 5308.01-Ümumi iqtisadiyyat |
| | **11.** | 5311.01- Müəssisələrin təşkili və idarə olunması |
| 57. Filologiya | **12.** | 5708.01- German dilləri |
| | **13.** | 5716.01-Azərbaycan ədəbiyyatı |
| | **14.** | 5718.01-Dünya ədəbiyyatı |
| 58.Pedaqogika | **15.** | 5801.01-Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) |
| | **16.** | 5802.01-Təhsilin təşkili və planlaşdırılması |
| | **17.** | 5804.01-Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi |
| 59. Siyasi | **18.** | 5901.01-Beynəlxalq münasibətlər |
| | **19.** | 5908.01-Siyasi nəzəriyyə |
| 61. Psixologiya | **20.** | 6107.01-Ümumi psixologiya |
| 72. Fəlsəfə | **21.** | 7210.01-Fəlsəfə tarixi |
| | **22.** | 7207.01- Sosial fəlsəfə |

*Qeyd: Faktiki qəbulu olmayan ixtisaslar göstərilməmişdir.*

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

Xəzər Universitetində təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğunun təmin edilməsi üçün əmək bazarının və işəgötürənlərin təmsil olunduğu Məsləhət Şurası yaradılmışdır.

ATM Azərbaycanda ali təhsilin Avropa ali təhsil məkanının tələblərinə daha da uyğunlaşdırılması məqsədilə həyata keçirilmiş TWINNING (2013-2017) layihələrində aktiv iştirak etmiş və bu layihələr çərçivəsində təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun mütəmadi olaraq yenilənməsi və təkmilləşdirilməsi üçün beynəlxalq təcrübə qazanmışdır.

ATM əməkdaşları 2015-ci ildən başlayaraq təhsil proqramlarının təlim nəticələrinin hazırlanmasına dair Suonsi Universitetinin akademik əməkdaşlıq üzrə direktoru, Böyük Britaniya üzrə Bolonya mütəxəssisi, Avropa üzrə Ali Təhsil İslahatları mütəxəssisləri tərəfindən aparılan təlimlərdə iştirak etmişdir.

Bir sıra proqram və ixtisaslarda tədris olunan praktik fənlərin əmək bazarı nümayəndələri tərəfindən tədris edilməsi ATM-də təhsilalanların peşə kompetensiyalarının əmək bazarı və cəmiyyətin tələblərinə uyğunluğunu qismən təmin edir.

Tədris planlarında nəzərdə tutulan seçmə fənlərin təlim nəticələrinin əmək bazarı və cəmiyyətin tələblərinə uyğunluğunu təmin etmək məqsədilə müvafiq mexanizmin təsdiq edilməsi və ATM-iş dünyası əlaqələrinin genişləndirilməsi tövsiyə olunur.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

Akkreditasiya Komissiyasına təqdim olunan “ATM-ə təhsilalan qəbulu” cədvəli və sahə səfəri zamanı departamentlərdə tanış olunan sənədlərin (Təhsil proqramları, tədris planları, elektron tədris platforması və s.) təhlilinə əsasən Xəzər Universitetində kadr hazırlığı aparılan ixtisasların hər 3 səviyyə üzrə Milli Kvalifikasiyalar Reyestrinə uyğun olduğu təyin edilmişdir. Mövcud ixtisasların təsnifatının ictimaiyyətə və digər maraqlı tərəflərə əlçatanlığı ATM-in rəsmi saytı vasitəsilə təmin edilir (https://khazar.org/az/item/29, https://khazar.org/az/item/32).

ATM-də təhsil proqramlarının keyfiyyətinin təmin olunması məqsədilə keyfiyyətin daxili təminatı sistemi, keyfiyyət siyasəti, qiymətləndirilmə meyarları mövcuddur ki, bu da ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğunun təmin edilməsində vacib amil hesab edilir.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

Xəzər Universitetində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nə uyğun olaraq 6, 7 və 8-ci səviyyələr üzrə ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu əsasən təmin edilmiş və “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda təsbit olunmuş təhsil pillələri və səviyyələrinə uyğun müəyyənləşdirilmişdir.

AzMKÇ-nin məqsədlərinə uyğun olaraq kvalifikasiyalar üzrə təhsil standartlarının təlim nəticələrinin qiymətləndirilməsi üçün ATM-də proqramlar üzrə özünütəhlil nəticələri aparılır.

Həmçinin, kadr hazırlığı aparılan ixtisaslar ilə əmək bazarı arasında əlaqələrin təşviq edilməsi üçün istehsalat nümayəndələrinin də təmsil olunduğu Məsləhət Şuraları yaradılmış, Avropa Ali Təhsil Məkanının Kvalifikasiyalar Çərçivəsinə uyğunlaşmaq üçün müxtəlif beynəlxalq təlimlərdə iştirak həyata keçirilir. ATM-də təhsilalanların və işçilərin milli və beynəlxalq mobilliyinin dəstəklənməsi prosesi müxtəlif mübadilə proqramları vasitəsilə təmin edilir.

ATM-də AzMKÇ-nin səviyyələri üzrə yekun təsdiqedici sənədlər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş 6-cı səviyyə üçün bakalavr, 7-ci səviyyə üçün magistr diplomudur.

ATM-də təhsilin keyfiyyətinin təmin olunması məqsədilə 2000-ci ildə Nottingham Trend Universiteti və Haarlem Universitetinin birgə əməkdaşlığı ilə həyata keçirilən TEMPUS proqramı çərçivəsində Keyfiyyətin Təminatı Mərkəzi yaradılmış, 2019-2023-cü illəri əhatə edən "Keyfiyyət Təminatı Siyasəti" sənədi hazırlanmış və 13 istiqamət üzrə prioritetlər müəyyən edilmişdir.

ATM-də ali təhsil pillələrində qazanılmış kompetensiyaların (səriştələrin) təkmilləşdirilməsini, şaxələndirilməsini təmin etmək və ömürboyu təhsili dəstəkləmək məqsədilə əlavə təhsil üzrə kadr hazırlığının aparılması tövsiyə edilir.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

Xəzər Universitetində tədris aparılan hər bir ixtisas üzrə təsdiq edilmiş təlim nəticələri təhsil proqramlarının standartlarına uyğun aparılır. Təhsil proqramına daxil olan fənlər üzrə proqram və sillabuslarda gözlənilən təlim nəticələri öz əksini tapmışdır. Həmçinin, təhsil proqramlarının tələblərinə uyğun olaraq tədris və öyrənmə metodları (mühazirə, qrup müzakirəsi, praktiki tapşırıqlar, praktiki məsələnin təhlili) təqdim olunan sillabuslarda öz əksini tapmışdır. ATM-də ixtisaslar (ixtisaslaşmalar) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğun təyin edilməsi məqsədilə təhsil proqramlarının özünütəhlili aparılır.

Tədris prosesində tələbəyönümlü interaktiv tədris metodlarının təşviqi və təkmilləşdirilməsi ATM-in keyfiyyət təminatı siyasətinin prioritet istiqaməti kimi təyin edilmişdir. Əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq ixtisaslarda praktik bacarıqların möhkəmləndirilməsi üçün bir sıra dərslər müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalarda tədris olunur.

Təhsil proqramının əsas tələblərindən olan qiymətləndirmə prosesi Xəzər Universitetinin "İmtahan qaydaları" haqqında Əsasnaməsinə uyğun həyata keçirilir və qiymətləndirmə üsulları müvafiq fənlərin sillabuslarında öz əksini tapmışdır. Aralıq qiymətləndirmənin fərqli üsullarından istifadə edilsə də ATM-də final imtahanlar bir qayda olaraq "yazılı" və qismən "şifahi" formada keçirilir ki, AR TN-nin 2020-ci il 9 iyul tarixli F-343 saylı Qərarının 5.4-cü bəndinə əsasən fənnin spesifikasından asılı olaraq tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir.

Təhsil proqramının məzunlarının məşğulluğuna dair ATM tərəfindən sorğular keçirilir, vakant iş yerlərinə dair məlumatlar ATM-in rəsmi internet səhifəsində yerləşdirilir (https://khazar.org/az/item/480).

Təhsilalanların və fənlərin spesifikliyini nəzərə alaraq fənlərin tədrisi zamanı təhsil proqramlarında göstərilən digər tədris və öyrənmə metodlarından (problemlərə əsaslanan tədris, sahə işləri, rol oyunları, qrup qiymətləndirilməsi, ekspert metodu, simulyasiyalar və s.) və yekun imtahanda fərqli qiymətləndirilmə üsullarından istifadənin təşviqi məqsədəuyğun olardı.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

Xəzər Universitetində Avropa Kredit Transfer və Toplanması Sisteminin prinsiplərinə uyğun olaraq 1 (bir) kredit auditoriyadaxili və auditoriyadan kənar saatların cəmi olaraq 30 saat müəyyənləşdirilmişdir. Fənlər üzrə 1 kreditə uyğun gələn auditoriyadaxili saatların həcmi vahid tarifdə deyil, fənlərin spesifikliynə uyğun olaraq hesablanmışdır (1/3, 1/2, 2/3 və s.).

Bütün ixtisaslarda xarici dillərə ayrılan dərslərin auditoriyadaxili saatlarının auditoriyadan kənar saatlara nisbətdə daha çox olması tələbələrin xarici dil biliklərinin möhkəmləndirilməsi və bir sıra peşəyönümlü proqramlarda ixtisas fənlərinin auditoriya saatlarının bir hissəsinin laboratoriyaya ayrılması tələbələrin peşə səriştələrinə daha yaxşı yiyələnməsi yönündə müsbət addım kimi qiymətləndirilir.

ATM-də təhsil proqramlarının əsas tələblərindən olan “5 (beş) günlük iş rejimi” prinsipi pozulmuşdur (AR NK-nin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarının 3.2.2-ci yarimbəndi, AR TN-nin 2020-ci il 9 iyul tarixli F-343 saylı Qərarı ilə təsdiq edilmiş bakalavriat səviyyəsinin (əsas (baza ali) tibb təhsili) müxtəlif ixtisasları üzrə Təhsil proqramlarının 1.4 bəndi). Belə ki, komissiyaya təqdim edilən dərs cədvəllərinə əsasən ATM-də 6-cı günlər də (şənbə) tədris aparılır.

Həmçinin, dərs cədvəllərində günlük saatların bölgüsündə də problemlər müşahidə edilmişdir. Belə ki, sahə səfəri zamanı aparılmış müşahidələrlə yanaşı, Xəzər Universitetinin təqdim etdiyi “Sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi” cədvəlində təhsilalanlar arasında keçirilmiş sorğunun nəticələrinə əsasən dərs cədvəllərində ardıcıllığın pozulması, dərslər arasında zaman fərqinin çox olması nəzərə çarpmışdır.

Xəzər Universitetində təhsil proqramlarının əsas tələblərindən olan “5 (beş) günlük iş rejimi”nin təmin edilməsi, dərs cədvəllərində günlük bölgünün optimallaşdırılması və rasionallaşdırılması tövsiyə olunur.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədilə Akkreditasiya Komissiyası tərəfindən Xəzər Universitetində hər bir ixtisas üzrə təhsil proqramlarında göstərilmiş standart fənlərin Tədris planlarında (Forma 1) nəzərə alınması, onların kreditinin və təlim nəticələrinin tələblərə uyğun olmasının monitorinqi aparılmışdır. Qeyd etmək lazımdır ki, ixtisaslar üzrə tədris olunan fənlər təhsil proqramlarının məqsədinə, məzunların kompetensiyalarına, təhsil proqramının strukturuna, tədris və öyrənmə mühitinə, qiymətləndirmə üsullarına, infrastruktur və kadr potensialına, təcrübələrin təşkilinə və məşğulluq tələblərinə tam uyğun olmalıdır.

Aparılmış monitorinq nəticəsində tədris fənlərinin tədris və öyrənmə mühitinə, qiymətləndirmə üsullarına, infrastruktur və kadr potensialına, təcrübələrin təşkilinə və məşğulluq tələblərinə müvafiq olduğu müəyyən edilsə də aşağıdakı uyğunsuzluqlar müşahidə edilmişdir:

1. Əksər fənlər üzrə kredit sayının təhsil proqramlarına uyğunlaşdırılmaması;
2. Bir sıra fənlərin adının təhsil proqramlarına uyğunlaşdırılmaması;
3. Bir neçə fənnin təhsil proqramında olmasına baxmayaraq, tədris planlarında nəzərə alınmaması;
4. Təhsil proqramlarında nəzərə alınmayan fənlərin tədris planına salınması;
5. Təhsil proqramında fənlər üzrə verilmiş təlim nəticələrinin təqdim olunan sillabuslarda əhatə edilməməsi.

AR TN-nin 2020-ci il 9 iyul tarixli F-343 saylı Qərarının 1.3-cü bəndinə əsasən Təhsil Proqramı və onun tələbləri tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün ali təhsil müəssisələri üçün məcburidir.

Tədris fənlərinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təqdim olunan təhsil proqramlarının tələblərinə uyğunluğunun təmin olunması tövsiyə edilir.

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

ATM tərəfindən ixtisaslar üzrə təqdim olunan bakalavriat üzrə Tədris planlarına (Forma 1) baxış keçirilərkən, ixtisasların müxtəlif semestrlərdə auditoriyadaxili və auditoriyadan kənar saatları arasındakı balans, onların cəmi və qanunvericiliyin tələbləri əksər hallarda uyğunlaşdırılmamışdır. Belə ki, AR NK-nın 2010-cu il 23 aprel tarixli, 75 saylı Qərarının 8.7.1-ci yarımbəndi; 2013-cü il 24 dekabr tarixli 348 saylı Qərarının 3.2.2-ci yarımbəndi və AR TN-nin 2020-ci il 9 iyul tarixli F-343 saylı Qərarının 1.4-cü bəndinə əsasən “Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır”.

Tələbələrə semestr üzrə təqdim olunan fənlərin həftəlik ümumi auditoriya və auditoriyadan kənar saatlarının miqdarının təhsil proqramlarına və qanunvericiliyin tələblərinə uyğunluğunun təmin edilməsi tövsiyə edilir.

### 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

Xəzər Universitetində təhsil proqramları və onun icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət və maraqlı tərəflər üçün əlçatanlığı ATM-in internet saytı vasitəsilə təmin edilir. Belə ki, ATM-də kadr hazırlığı aparılan ixtisaslar üzə təlim nəticələri (məzunun kompetensiyaları), təlim nəticələrinin matriksi, fənlərin təsviri, sillabuslar rəsmi internet saytda ayrı-ayrı ixtisas departamentlərinin səhifələrində yerləşdirilmişdir (https://khazar.org/az/item/19 - departamentlərə keçid linki).

Həmçinin, MS TEAMS və SIMS platformalarında yaradılan onlayn sinif otaqları vasitəsilə təhsilalanlar üçün müvafiq məlumatın əlçatanlığı təmin edilir.

### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

Xəzər Universitetində təhsil proqramlarının hazırlanması və qiymətləndirilməsində işəgötürənlərin iştirakı Məsləhət Şurasında təmsilçilik vasitəsilə həyata keçirilir.

Eyni zamanda, ATM-də kənardan tədrisə cəlb olunan müəllimlərin əsas hissəsinin istehsalatdan olması və işəgötürənləri təmsil etməsi universitet – iş dünyası əlaqəsinin genişləndirilməsində mühüm rol oynayır. Bu baxımdan ATM tədqiqat, innovasiya və sahibkarlıq imkanlarının inkişaf etdirilməsi istiqamətində NASA, “Rochester” MMC, Robotiks və Mühəndislik Akademiyası, Rabiə və Yüksək Texnologiyalar Nazirliyi, Gənclər və İdman Nazirliyi, Elektron Hökümətin İnkişafı Mərkəzi, Azərkosmos, Türkiyə Sənaye və Texnologiya Nazirliyi, “Coders Azərbaycan” şirkəti, “Sumax” şirkəti, “Code&More” və s. qurumlarla əməkdaşlıq etmişdir.

Sahə səfəri zamanı təşkil olunmuş müsahibələr nəticəsində Xəzər Universitetində təhsil proqramının illik özünütəhlil hesabatı aparılarkən də hər ixtisas üzrə iş dünyasından nümayəndələrin cəlb edildiyi qeyd olunsa da, müvafiq sənədlərə və protokollara baxış zamanı məlumatların yetərsiz olduğu, prosesin bütün ixtisasları əhatə etmədiyi müşahidə edilmişdir.

## *3.3 Tədrisin təşkili*

### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

Xəzər Universitetində həm bakalavriatura, həm də magistratura üzrə tərtib edilən tədris planları struktur baxımından kredit sisteminin tələblərinə və AR TN-in 2014-cü il 21 yanvar tarixli 40 nömrəli əmri ilə təsdiq edilmiş formaya qismən uyğundur. Belə ki, mövcud tədris planlarının monitorinqi zamanı aşağıdakı struktur uyğunsuzluqları müşahidə edilmişdir:

**Bakalavriat səviyyəsi üzrə ixtisasların tədris planları üzrə:**

*1. Fənlərin şifrələnməsi (HF-B00, İPF-B00, TE-B00) və sıralanmasının standarta uyğun olmaması;*

*2. Fənlərin adlarının bəzi hallarda standartda göstərilən kimi qeyd olunmaması;*

*3. Bir neçə fənnin standartda olmasına baxmayaraq, tədris planlarında əks olunmaması (istinad);*

*4. Korekvizit (tədrisi paralel nəzərdə tutulan) fənlər bölümünün olmaması;*

*5. Semestrlərin adlandırılması (Payız 1, Yaz 2, Payız 3, Yaz 4, Payız 5, Yaz 6, Payız 7, Yaz 8);*

*6. Fənn bölümlərinin düzgün qurulmaması (humanitar fənlər (ümumi), ixtisas-peşə hazırlığı (ixtisas), ali məktəb tərəfindən seçilən, təcrübələr və yekun attestasiya)*

*7. Təcrübələrin “yay” semestrinə daxil edilməsi;*

*8. Yekun Dövlət Attestasiyasına yer verilməməsi;*

*9. Fənn bölümləri, fənlər üzrə və ümumilikdə proqram üzrə (240) kreditlərin standarta uyğun olmaması;*

*10. Bir neçə ixtisasın əksər fənlərinin prerekvizit olması (prerekvizitlik yalnız eyni adda, nömrələnmə ilə ayrılan fənlərə aid edilir, keçilmə ardıcıllığı Forma 1 ilə semestrlər üzrə bölgüdə nəzərə alınır);*

*11. Semestrlər ərzində ümumi kreditlərin cəminin çox hallarda qanunvericiliklə nəzərdə tutulmuş miqdarda (30) olmaması;*

*12. Həftəlik auditoriyadaxili və auditoriyadan kənar saatların miqdarının standartın tələblərinə uyğun olmaması.*

**Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) tədris planları üzrə:**

1. Fənlərin şifrələnməsi (MHF-B00, MİF-B00, MET-B00) və sıralanmasının standarta uyğun olmaması;
2. Fənlərin adlarının bəzi hallarda standartda göstərilən kimi qeyd olunmaması;
3. Bir neçə fənnin standartda olmasına baxmayaraq, tədris planlarında əks olunmaması;
4. Bir neçə ixtisas üzrə elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrin olmaması;
5. Korekvizit (tədrisi paralel nəzərdə tutulan) fənlər bölümünün olmaması;
6. Semestrlərin adlandırılması (Payız 1, Yaz 2, Payız 3, Yaz 4, Payız 5, Yaz 6, Payız 7, Yaz 8);
7. Fənn bölümlərinin düzgün qurulmaması (humanitar fənlər, ixtisas, elmi-tədqiqat);
8. Fənn bölümləri, fənlər üzrə kreditlərin standarta uyğun olmaması.

Tədris planlarının struktur baxımından kredit sisteminin tələblərinə və AR TN-in 21 yanvar 2014-cü il tarixli, 40 nömrəli əmri ilə təsdiq edilmiş formaya uyğunlaşdırılması tövsiyə olunur.

### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

Xəzər Universitetində ixtisasın tədris planında göstərilmiş fənlərin tədris ili və semestr üzrə bölgüsünü əks etdirən tədris qrafiki (Forma 2) mövcud olsa da, AR TN-in 2014-cü il 21 yanvar tarixli 40 nömrəli əmri ilə təsdiq edilmiş formaya qismən uyğunlaşdırılmış və müvafiq departamentlərin veb səhifəsində maraqlı tərəflər üçün əlçatanlığı təmin edilmişdir.

Lakin sahə səfəri çərçivəsində müşahidələr və ATM-in internet saytında yerləşdirilən sənədlərə əsasən demək olar ki, müvafiq qrafiklər əsasən ingilis dilində tərtib edilmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövlət dili Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinin I hissəsinə müvafiq olaraq Azərbaycan dilidir və kargüzarlıq işləri dövlət dilində aparılmalıdır (https://e-qanun.az/framework/1865).

Xəzər Universitetinin yarandığı gündən "Azərbaycanşünaslıq" ənənəsinin prioritet olmasını, maraqlı tərəflərin əhatə edilməyini nəzərə alaraq müvafiq qrafiklərin rəsmi dövlət dilində də tərtib edilib ictimaiyyətin nəzərinə çatdırılması tövsiyə olunur.

### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

Xəzər Universitetində kadr hazırlığı aparılan ixtisaslar üzrə məcburi fənlərin və ali təhsil müəssisəsi tərəfindən təyin olunan seçmə fənlər blokunun ixtisasın spesifikliyindən asılı olaraq qruplaşdırılması aparılır. Seçmə fənlər bölümündə əksər hallarda ən azı 2, ən çox 5 fənn tələbələrə seçim üçün təqdim olunur.

Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün, onlarının kreditinin Təhsil proqramlarının tələblərinə tam uyğunlaşdırılması tövsiyə olunur.

### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

Xəzər Universitetində kadr hazırlığı aparılan ixtisaslar üzrə ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti təhsil proqramlarının tələblərinə əsasən uyğundur. Belə ki, SIMS e-tədris platforması vasitəsilə hər semestrdə tələbələrə həm ixtisas, həm ümumi fənlərin seçimi üçün şərait yaradılmışdır.

Lakin bəzi hallarda müvafiq bölmələrin kreditlərinin miqdarı standartın tələbinə uyğun gəlmir. Belə ki, ATM tərəfindən standartların tələbindən fərqli olaraq ixtisasların tədris planlarına “Azərbaycanşünaslıq” və “İngilis dili” blokları əlavə edilmişdir. Mövcud blokların ATM tərəfindən təyin edilən fənlər blokunda yerləşdirilməsi və ixtisasın ümumi kredit həcmində nəzərə alınması daha məqsədəuyğundur.

Təhsil proqramında (standart) hər hansı dəyişiklik edilməsi üçün AR Nazirlər Kabineti, Elm və Təhsil Nazirliyinə müraciət edilməsi və müvafiq qaydada icazə alınması tövsiyə olunur.

### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Xəzər Universitetində kadr hazırlığı aparılan təhsil proqramları üzrə hər ixtisas üçün “Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri” və “Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi” hazırlanmışdır. Uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi məqsədilə dekanlıqlar, departamentlər və Keyfiyyət Təminatı Mərkəzi tərəfindən davamlı olaraq sorğular (təhsilalanlar arasında keçirilmiş “Fənlər üzrə məmnunluq”, məzunlar arasında keçirilmiş “Təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq” sorğuları və s.), nəzarət və qiymətləndirmə (müəllimlərin qarşılıqlı monitorinqi) həyata keçirilir. Həmçinin, təlim nəticələrinin ixtisasın tələblərinə uyğunluğu müxtəlif metodları özündə birləşdirən aralıq və final imtahanları vasitəsilə də izlənilir.

İxtisaslar üzrə təhsil proqramlarında yer alan və ATM-də tədris olunan fənlərin təlim nəticələrinin təhsil proqramlarının tələblərinə tam uyğunlaşdırılması tövsiyə olunur.

### 3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

Xəzər Universitetinin Özünütəhlil Hesabatına əlavə olaraq təqdim edilmiş sillabuslarında fənlərin təlim nəticələrinin öz əksini tapdığı, mövcud meyarla bağlı tələblərin ödəndiyi müəyyənləşdirilmişdir. Mövcud prosesə nəzarəti ixtisas üzrə departament və Keyfiyyətin

Təminatı Mərkəzi  həyata keçirir. Həmçinin, iş dünyasının və işəgötürənlərin tələblərinə uyğun tədris planına daxil ediləcək yeni seçmə fənlərin tədrisinin həyata keçirilməsi zamanı onların təlim nəticələri Məsləhət Şurasının üzvləri ilə müzakirə edilərək təhsil nəticələri matrisinə daxil edilir.

Sillabusların bu istiqamətdə təkmilləşdirilməsi məqsədilə sillabusların hazırlanma qaydalarına dair Əsasnamə də təsdiq olunmuşdur. Müvafiq Əsasnamədə sillabuslar tərtib olunarkən struktur və məzmuna, hazırlanma və təsdiq prosesinə dair tələblər öz əksini tapmışdır.

Lakin sillabuslarda istinad olunan əsas dərsliklərin və digər tədris resurslarının sayı və nəşr ili üzrə təhlilin nəticələrinə əsasən təlim və tədris prosesində istifadə olunan ədəbiyyatın yenilənməsinə ehtiyac duyulur. Məsələn, sosial sahə üzrə departamentin sillabuslarının təhlili zamanı (klassik ədəbiyyat, tarixi mənbələr və dövlət sənədləri istisna olmaqla) müəyyən olunmuşdur ki, göstərilən ədəbiyyat siyahısında 2017-2021-ci illərdə nəşr olunan mənbələrin payı cəmi 16% təşkil edir. Digər departamenlərin sillabuslarında əsas dərsliklərin siyahısında 1993-2005-ci illərdə nəşr olunan dərsliklər qeyd olunmuşdur. Müəllimlərin əsas ədəbiyyat seçimində tədris proqramlarında ciddi fərqlər müşahidə edilmişdir. Belə ki, Həyat elmləri departamentində bəzi müəllimlərin fənn sillabuslarında əsas dərsliklərin siyahısını müasir mənbələr təşkil etdiyi halda, digərləri tərəfindən isə 30 il əvvəl nəşr olunan mənbələr əsas dərslik kimi daxil edilmişdir (*Tibbi biologiya. Azərbaycan Tibb Universiteti tələbələri üçün dərslik / D.V.Hacıyev, S.D.Əliyev, R.Ə.Əliyev; Rəyçilər. T.K.Mikayılov, E.M.Axundova; Elmi red. U.K.Ələkbərov, Ə.Ə.Mehrəliyev.- B.: Maairf, 1993.- 464 s.; Əsas dərslik: Tibbi Biologiyanın əsasları. Azərbaican Tibb universiteti tələbələri üçün dərslik. D.V. Haciyev, Ə.Ə. Mehrəliyev, R.Ə Əliyev və b. 2005.- 598 s.*).




***Qrafik 9. Sillabuslarda göstərilən əsas dərslik və digər tədris resurslarının payı (%) və nəşr ili***

### 3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti

Xəzər Universitetində tədrisi həyata keçirilən ixtisasların tədris planlarına baxdıqda semestrlər ərzində nəzərdə tutulmuş fənlərinin sayının əsasən 5-6 ədəd olması tələbələrin auditoriyadaxili yükünün azaldılmasına xidmət edir. Lakin, bakalavr ixtisaslarının müxtəlif semestrlərində auditoriyadaxili və auditoriyadan kənar saatları arasındakı balansın pozulması müşahidə edilmişdir. Belə ki, qanunvericiliyin tələblərinə uyğun olaraq auditoriyadaxili saatlar

ümumi saatların 50%-ni keçməsə də, əksər hallarda həftəlik 22,5 saatı keçir ki, bu da bakalavriaturada təhsil alan tələbələrə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan vermir.

Həmçinin sahə səfəri çərçivəsində Akkreditasiya Komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda təhsil alan 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə "Universitetdə həftəlik dərs yükü dərsdənkənar məşğələlərə vaxt ayırmağıma imkan verir" məsələsinə tələbələrin 75 nəfəri "tamamilə razıyam" və "razıyam", 85 nəfəri "qismən razıyam", 49 nəfəri "razı deyiləm", 49 nəfəri isə "qətiyyən razı deyiləm" cavabı vermiş, 11 nəfəri isə cavab verməkdən imtina etmişdir:




***Qrafik 10. Akkreditasiya Komissiyasının təşkil etdiyi sorğunun 3.3.7-ci indikator üzrə nəticəsi***

Tələbələrə ATM tərəfindən minimum və maksimumların nəzərə alınaraq say seçiminin verilməsi, bu prosesi fərdi olaraq tənzimləmələrinə şərait yaradır. Tələbələrə sonuncu semestrdə təcrübə ilə birlikdə maksimum 42 kreditə qədər dərsə yazılmağa icazə verilməsi isə qanunvericiliyin tələblərinə uyğun deyil. Belə ki, tələbə semestr ərzində maksimum 40 kredit həcmində fənn götürə bilər.

Magistratura səviyyəsi üzrə təqdim olunan tədris planlarına baxış keçirildikdə mövcud indikator üzrə tələblərin yerinə yetirildiyi müşahidə edilmişdir.

Bakalavriat ixtisasları üzrə tədris planlarında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün qanunvericiliyin tələblərinə uyğunlaşdırılması tövsiyə olunur.

### 3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti

Xəzər Universitetində tələbələrin fərdi tədris planları (Forma 4) SIMS e-tədris platforması vasitəsilə tələbələrin öz seçimləri əsasında tələbə kabinetlərində formalaşır və əlçatanlığı təmin edilir. FTP-lərin tərtibində əsasən iki uyğunsuzluq müşahidə edilmişdir:

1. AR TN-in 2014-cü il 21 yanvar tarixli 40 nömrəli əmri ilə təsdiq edilmiş formaya tam uyğunlaşdırılmamışdır;

2. Tələbələrin əvvəlki təhsillərində dinləyib azad olduqları fənlərin nəzərə alınması ilə bağlı məlumata rast gəlinməmişdir (AR NK-nın 2019-cu il 20 may tarixli 230 saylı "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə

köçürülməsi Qaydaları"nın 5-ci müddəası və AR TN-nin 2017-ci il 15 noyabr tarixli 5/2 saylı "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydalar"ın 2.13-cü bəndi).

Həmçinin, sahə səfəri zamanı akkreditasiya komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda təhsil alan 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə "Tədris ili ərzində təhsil alacağım fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən "Fərdi tədris planı"mın (FTP) tərtibində iştirakım təmin olunur" məsələsinə tələbələrin 197 nəfəri "tamamilə razıyam" və "razıyam", 32 nəfəri "qismən razıyam", 17 nəfəri "razı deyiləm", 12 nəfəri isə "qətiyyən razı deyiləm" cavabı vermiş, 11 nəfəri isə cavab verməkdən imtina etmişdir:




***Qrafik 11. Akkreditasiya Komissiyasının təşkil etdiyi sorğunun 3.3.8-ci indikator üzrə nəticəsi***

ATM-də tələbələrin fərdi tədris planlarının AR TN-in 2014-cü il 21 yanvar tarixli 40 nömrəli əmri ilə təsdiq edilmiş formaya uyğunlaşdırılması və tələbələrin tam həcmdə məlumatlandırılması tövsiyə olunur.

### 3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti

İxtisas (ixtisaslaşma) üzrə illik işçi tədris planları (Forma 3) Xəzər Universitetinə sahə səfəri zamanı müvafiq fakültələrdə müşahidə edilməmişdir.

### 3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti

Xəzər Universitetinə sahə səfəri çərçivəsində yerində baxış keçirilən departamentlərdə müəllimlərin illik işçi tədris planlarına yaxın forma – "Akademik yük" müşahidə edilmişdir. Belə ki, müvafiq formalar tələbələrin SIMS e-tədris platformasında fənn və müəllim seçimləri edildikdən sonra avtomatik müvafiq sistemdən çıxarıla bilir.

Müvafiq formanın AR TN-in 2014-cü il 21 yanvar tarixli 40 nömrəli əmri ilə təsdiq edilmiş formaya uyğunlaşdırılması tövsiyə edilir.

### 3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)

Xəzər Universitetində kadr hazırlığı aparılan tədris planlarına baxış keçirərkən Forma 1-lərdə ixtisasın istiqamətinə uyğun olaraq fənlərin mühazirə, məşğələ və laboratoriya dərslərinə bölündüyü müşahidə edilsə də, SIMS platforması vasitəsilə çap edilən müəllim-professor heyətinin akademik yük cədvəllərində yalnız mühazirə saatları qeyd edilmişdir.

Mühazirə və məşğələlərdə tələbələrin sayı onların fənn seçiminə əsasən tənzimlənir. Bəzi ixtisaslarda tələbə qəbulu faizinin az olması nəticəsində bir sıra ixtisas fənlərində tələbələrin sayının normativlərə uyğun tənzimlənməsində çətinlik yaranır.

Laboratoriya və praktik məşğələ dərslərinin əksər hisssəsi isə ixtisas üçün təsis və təchiz olunmuş laboratoriyalarda və emalatxanalarda təşkil edilir. Sahə səfəri zamanı müşahidə edilmiş dərslərin bütün növlərində tədrisin təşkilinin qənaətbəxş olduğu müəyyən edilmişdir.

### 3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti

Xəzər Universitetində tələbələrə akademik məsləhət vermək məqsədilə hər fakültədə assistentlər (akademik məsləhətçilər) və dekan müavinləri fəaliyyət göstərir. Onların əsas vəzifələrini təhsilalanlar və yeni qəbul olunan tələbələrlə görüşlərin keçirilməsi və kredit sistemi ilə tədrisin təşkili, biliyin qiymətləndirilməsi, Elektron universitet, mübadilə proqramları barədə məlumatlandırılma, eyni zamanda SIMS sistemindən istifadə vərdişlərinin yaranması, tələbələrin ayrı-ayrı təhsil illəri üzrə FTP-in tərtib edilməsinə dəstək təşkil edir.

Həmçinin, ATM-də tələbələr üçün hazırlanmış və əsasən, təlim tədris prosesini əhatə edən “Tələbə yaddaş kitabçası” hər il yenidən, əlavələrlə nəşr edilərək 1-ci kursa qəbul olunan tələbələrə təqdim olunur. “Yaddaş kitabçası” ilə yanaşı “İmtahan qaydaları haqqında əsasnamə” və “Tələbə nizam-intizam qaydaları” da tələbələrin nəzərinə çatdırılır.

Əyani məsləhət xidməti ilə yanaşı, ATM-də bütün tələbə və əməkdaşlar üçün yaradılmış koorporativ emaildən, SIMS platformasında yaradılmış tələbə kabinetindən istifadə edilir.

Həmçinin, 2015-2018-ci illərdə Avropa İttifaqının maliyyələşdirdiyi “Advocacy Establishment for Students through Ombudsman Position (AESOP)” layihəsi çərçivəsində təsis edilmiş “Universitet Ombudsman”ı tələbələrin universitetdəki problemlərinin müzakirəsi və həlli ilə məşğul olur.

Müvafiq departamentlərdə tələbələr üçün müəllimlər tərəfindən imtahanqabağı məsləhət saatları da təşkil edilir. Bunun üçün, müəllimlər tələbələrlə müvafiq vaxtlarda görüş üçün öncədən razılaşır.

Əlavə olaraq, sahə səfəri zamanı Akkreditasiya Komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda təhsil alan 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə “İmtahana hazırlıq prosesində məsləhət saatları vasitəsilə müəllimlərin köməyi bizi qane edir” məsələsinə tələbələrin 202 nəfəri “tamamilə razıyam” və “razıyam”, 52 nəfəri “qismən

razıyam”, 8 nəfəri “razı deyiləm”, 4 nəfəri isə “qətiyyən razı deyiləm” cavabı vermiş, 3 nəfəri isə cavab verməkdən imtina etmişdir:




*Qrafik 12. Akkreditasiya Komissiyasının təşkil etdiyi sorğunun 3.3.12-ci indikator üzrə nəticəsi*

Müəllimlər tərəfindən təşkil edilən imtahanqabağı məsləhət saatlarının onların akademik yüklərində əks olunması, məsləhət saatlarının tələbələrə əlçatanlığı təmin edilməklə konkret qrafiklər şəklində təşkil edilməsi, kredit sistemində tədrisin təşkili qaydalarına müvafiq olaraq dekanlıqlarda tyutor (akademik məsləhətçi) xidmətinin ayrıca ştat şəklində bərpa edilməsi tövsiyə edilir.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

Xəzər Universitetində sərbəst işlərin səmərəli təşkili üçün “Formativ qiymətləndirmə haqqında təlimat” hazırlanmış və ATM-in internet saytında yerləşdirilmişdir. Sərbəst işlərin təşkili fənn müəllimi tərəfindən sillabuslarda nəzərdə tutulmuş müxtəlif fəaliyyətlər şəklində (portfolio, quiz, qrup işi, esse, layihə və s.) həyata keçirilir.

ATM-də ERASMUS+ proqramının PETRA layihəsi çərçivəsində yaradılmış “Təlim-Tədris Mərkəzi”nin təşkil etdiyi “akademik yazı” seminarları tələbələrin sərbəst işlərinin hazırlamasına dəstək göstərir. Hazırlanmış esselər və layihələr dekanlıqlar tərəfindən plagiarizmin yoxlanılması üçün KTM-nə yönləndirilir və qiymətləndirilməsi üçün fənn müəlliminə göndərilir.

Həmçinin, sahə səfəri zamanı Akkreditasiya Komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə “Sərbəst iş, təqdimat (prezentasiya) və digər tapşırıqların hazırlanmasında fənn müəllimi rəhbərlik və köməklik edir” məsələsinə tələbələrin 183 nəfəri “tamamilə razıyam” və “razıyam”, 54 nəfəri “qismən razıyam”, 20 nəfəri “razı deyiləm”, 10 nəfəri isə “qətiyyən razı deyiləm” cavabı vermiş, 2 nəfəri isə cavab verməkdən imtina etmişdir:



*Qrafik 13. Akkreditasiya Komissiyasının təşkil etdiyi sorğunun 3.3.13-cü indikator üzrə nəticəsi*

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

Xəzər Universitetində təcrübə "İstehsalat təcrübəsi haqqında Əsasnamə"nin tələblərinə uyğun həyata keçirilir və təcrübələrin hər növünə uyğun olaraq proqramlar, sillabuslar, qiymətləndirmə və hesabat formaları mövcuddur.

Tələbələr üçün istehsalat təcrübəsini təşkil etmək məqsədilə aparıcı şirkətlər və müəssisələrlə müqavilə bağlanmışdır. Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələri metal konstruksiyaların yığılması ilə məşğul olan MQS şirkəti, layihələndirmə şirkəti ENCOTEK, sement istehsal edən NORM, dəmir-beton istehsalı Az INŞAAT, AKKORD, bina tikintisi ilə məşğul olan YENİ Masazır MTK, SİNAM, SOCAR, ENKOTEK və digər şirkətlərdə, Heydər Əliyev adına Bakı Neft Emalı zavodunda; Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbələri isə Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikası Milli Məclisi, Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondu və digər qurumlarda istehsalat təcrübəsi keçirlər. ATM-də müəllimlik ixtisasları üzrə pedaqoji təcrübə Xəzər Universiteti nəzdindəki Bakı və Sumqayıt Dünya Məktəbləri ilə bağlanmış müqavilə əsasında bakalavr pilləsinin 4-cü ilində təşkil olunur.

Təcrübəyə rəhbərliyi fakültə tərəfindən təyin olunmuş təcrübə rəhbəri icra edir.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

Xəzər Universitetində stajkeçmənin təşkili Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi" haqqında qanunvericiliyin 4-cü bəndinə əsasən həyata keçirilir.

Universitetdə stajkeçmə əsasən universitet əməkdaşlarının iştirak etdiyi beynəlxalq layihələr, beynəlxalq konfrans, seminar və görüşlər çərçivəsində dəstəklənir və həyata keçirilir.




*Qrafik 14. Beynəlxalq proqramlar / təcrübə mübadiləsində iştirak etmiş əməkdaş sayı*

Özünütəhlil Hesabatına əsasən hesabat dövründə ATM üzrə 210 əməkdaş xarici universitetlərdə (ABŞ universitetləri, Sorbon Universiteti, Middlesex Universiteti, Valensiya Politexnik Universiteti, Oslo Metropolitan Universiteti, Vyana Tətbiqi Elmlər Universiteti, Gazi

Universiteti, Bragança Politexnik Universiteti, Celal Bayar Universiteti, Dumlupınar Universiteti, İstanbul Aydın Universiteti, Koç Universiteti  və s.) təcrübə mübadiləsi və ixtisasartırma məqsədilə müxtəlif proqramlarda iştirak etmişdir.

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

Xəzər Universitetində kurs layihəsinin (işi) və referatların hazırlanması, məzmunu, onun strukturuna qoyulan tələblər və qiymətləndirilmə meyarları “Kurs işlərinin (layihələrinin) yerinə yetirilməsi haqqında Əsasnamə”də öz əksini tapmışdır. Əsasnamədə kurs işlərinin yerinə yetirilməsinin əsas mərhələləri, məzmuna qoyulan tələblər, strukturuna qoyulan tələblər, tərtib edilməsi və qiymətləndirilməsi haqqında tələblər öz əksini tapmışdır.

Lakin sahə səfəri zamanı respondentlər tərəfindən ATM-də hal-hazırda kurs işi layihəsinin təşkilinin həyata keçirilmədiyi qeyd edilmişdir.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

ATM-ə sahə səfəri zamanı baxılmış sənədlər və əmrlər əsasında magistr dissertasiyalarının qanunvericiliyin tələblərinə uyğun təşkil edildiyi müəyyən edilmişdir. Belə ki, Xəzər Universitetində magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili qəbul edilmiş “Elmi-tədqiqat işlərinin tərtib olunma Qaydaları” və “Magistratura haqqında Əsasnamə”nin (2022-ci ildə “Magistr tezisinin yazılması və müdafiəsi Qaydaları” adı ilə müəyyən dəyişikliklərlə yenidən  təsdiq edilmişdir) tələblərinə uyğun olaraq təşkil edilir. Təqdim olunan dissertasiyalar plagiat yoxlamasından keçirilərək müdafiəyə buraxılır. Müdafiələrin təşkili sədri AR ETN-in təsdiqi ilə təyin edilmiş İxtisaslaşmış Elmi Şuralar vasitəsilə aparılır.

Xəzər Universitetində bakalavriatura üzrə kadr hazırlığı aparılan ixtisasların tədris planlarında Buraxılış işləri nəzərdə tutulmamışdır.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

Xəzər Universitetində imtahan payız, yaz və yay semestrlərində yazılı və test üsulu ilə həyata keçirilir. Fənnin spesifikliyindən və tələbənin fərdi xüsusiyyətlərindən (inkluziv) asılı olaraq bəzi fənlərdə (xüsusilə dil fənlərində) şifahi və qarışıq imtahan üsullarından da istifadə olunur.

İmtahan sessiyasının təşkili Xəzər Universitetinin Elmi Şurası tərəfindən təsdiq edilmiş “İmtahan qaydaları” haqqında Əsasnaməyə uyğun imtahana hazırlıq, imtahan prosesi, apellyasiya, təkrar imtahan mərhələlərini özündə ehtiva edərək həyata keçirilir.

Tələbələrin cavab blankları imtahandan sonra Tələbə və qeydiyyat şöbəsi tərəfindən kodlaşdırılaraq yoxlanılması üçün fənn müəllimlərinə təhvil verilir və tələbələrin imtahan qiymətləri SIMS platformasında yerləşdirilir. İmtahan qiymətindən narazı olan tələbələr üçün Apellyasiya Komissiyası yaradılır.

ATM-də “İmtahan qaydaları” haqqında Əsasnamənin tətbiqinə nəzarət üçün hər semestr rektor tərəfindən ayrıca İmtahan Komissiyası yaradılır.

İmtahan sessiyasından sonra sessiyanın nəticələri barədə hesabat Elmi Şurada müzakirə edilərək Elm və Təhsil Nazirliyinə təqdim edilir.

ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda təhsil alan 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə “İmtahanların (aralıq və yekun) təşkili vəziyyəti bizi qane edir” məsələsinə tələbələrin 171 nəfəri “tamamilə razıyam” və “razıyam”, 60 nəfəri “qismən razıyam”, 19 nəfəri “razı deyiləm”, 16 nəfəri isə “qətiyyən razı deyiləm” cavabı vermiş, 3 nəfəri isə cavab verməkdən imtina etmişdir:




***Qrafik 15. Akkreditasiya Komissiyasının təşkil etdiyi sorğunun 3.3.18-ci indikator üzrə nəticəsi***

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

Xəzər Universitetində yay semestrinin təşkili AR NK-nın 2013-cü il 24 dekabr tarixli 348 saylı qərarının 3.2.1-ci yarımbəndi və 3.4-cü bəndinin tələblərinə uyğun olaraq yay tətili müddətində 6 (altı) həftədən və 2 fəndən çox olmayaraq təşkil olunur. Həmçinin, ATM-də yay semestri “Yay semestrinin təşkilinə dair təlimat” əsasında təşkil edilir.

Prosesin fasiləsiz və effektiv həyata keçirilməsi üçün ATM-də tələbələrin fərdi tədris planlarına dəyişiklik edildikdən sonra onların ərizələri əsasında yay semestrində açılacaq fənlər, kreditləri, fənnin ön şərtləri, cədvəli və fənn müəllimi SIMS e-tədris platformasında elan edilir.

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Xəzər Universitetində son 5 tədris ili üzrə bakalavriatura üzrə təhsilalanlar arasında akademik borcu yarananların sayının təhsilalanlara nisbətdə ortalama 82%, magistratura üzrə isə 71% təşkil etdiyi məlum olmuşdur.

***Cədvəl 7. Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası***

| Tədris ili | Bakalavriatura pilləsi üzrə | Magistratura pilləsi üzrə |
|---|---|---|

| | Cəmi təhsilan (nəfər) | Akademik borcu yarananlar (nəfər) | Toplam təhsilalanlara nisbətdə (%) | Cəmi təhsilan (nəfər) | Akademik borcu yarananlar (nəfər) | Toplam təhsilalanlara nisbətdə (%) |
|---|---|---|---|---|---|---|
| **2017/18** | 1774 | 1173 | 66 | 231 | 111 | 48 |
| **2018/19** | 1848 | 1451 | 79 | 200 | 106 | 53 |
| **2019/20** | 2026 | 1813 | 89 | 209 | 142 | 68 |
| **2020/21** | 2298 | 1884 | 82 | 312 | 291 | 93 |
| **2021/22** | 2589 | 2472 | 95 | 396 | 368 | 93 |

Cədvəlin təhlilindən də göründüyü kimi, 2017/18-ci tədris ilindən 2021/22-ci tədris ilinədək (bakalavriat səviyyəsi üzrə 2020/21-ci tədris ili istisna olmaqla) kredit borcu olan tələbələrin ümumi təhsilanlara nisbətdə hər tədris ili öncəki tədris ilinə nisbətdə artmışdır. Bu göstərici xüsusilə 1-ci kurs tələbələri üçün daha yüksək olmuşdur. Müsahibələr zamanı respondentlərlə aparılan müzakirələrdə səbəb kimi 1-ci kursda ATM-də adaptasiya prosesinin çətinliyi qeyd edilmişdir.

ATM-də kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası fakültələr və KTM tərəfindən e-tədris (SIMS) sistemi vasitəsilə statistik məlumat olaraq əldə edilir. Bu statistik məlumatlar fənlər üzrə fakültə və departamentlər tərəfindən təhlil edilir, səbəbləri araşdırılır.

Lakin departament, fakültə və Elmi Şura protokollarına nəzər yetirdikdə, mövcud dinamika və öncəki illərlə müqayisə ilə bağlı müzakirələrin daha geniş şəkildə aparılmasına, səbəblərin araşdırılması və müvafiq istiqamətdə təkliflərin verilməsinə ehtiyac olduğu müəyyənləşdirilmişdir.

### 3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Xəzər Universitetində son 5 tədris ili üzrə bakalavriatura üzrə təhsilalanlar arasında kredit borcu yaranmış fənlərin sayının tədris illəri üzrə azaldığı, bakalavriatura üzrə son tədris ilində (2021/22) yüksək olduğu məlum olmuşdur.

***Cədvəl 8. Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası***

| Tədris ili | Bakalavriatura pilləsi üzrə (ədəd) | Magistratura pilləsi üzrə (ədəd) |
|---|---|---|
| **2017/18** | 392 | 71 |
| **2018/19** | 357 | 69 |
| **2019/20** | 328 | 39 |
| **2020/21** | 293 | 55 |
| **2021/22** | 335 | 50 |

Cədvəlin təhlilindən də göründüyü kimi, bakalavriatura üzrə 2017/18-ci tədris ilindən 2020/21-ci tədris ilinədək kredit borcu yaranmış fənlərin sayının hər tədris ili azaldığı halda, 2021/22-ci tədris ili ərzində bu göstəricilər bakalavriatura üzrə öncəki tədris ilinə nisbətdə 42 ədəd artmışdır. Pandemiya dövrünə təsadüf edən 2019/20-ci və 2020/21-ci tədris illərinin imtahanlarının faiz göstəriciləri digər tədris illəri ilə müqayisədə aşağıdır.

Departament, fakültə və Elmi Şura protokollarına nəzər yetirdikdə, mövcud dinamika və öncəki illərlə müqayisə ilə bağlı müzakirələrin daha geniş şəkildə aparılmasına, səbəblərin araşdırılması və müvafiq istiqamətdə təkliflərin verilməsinə, xüsusilə ən çox kredit borcu yaranmış fənlərin təlim nəticələrinin monitorinqinə ehtiyac olduğu müəyyənləşdirilmişdir.

#### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi ilə əlaqədar Xəzər Universitetində hər departament üzrə "müəllimlərin qarşılıqlı monitorinq"i aparılır. Belə ki, müvafiq monitorinq nəticəsində hər müəllimin qiymətləndirilməsi (dərsin təşkili və aydınlığı, təqdimatın təşkili, tələbələrlə ünsiyyət, bilik səviyyəsi) həyata keçirilir.

Xəzər Universitetində tədrisin səmərəli və sistemli təşkil olunması üçün aşağıdakı universitetdaxili qaydalar və əsasnamələr tərtib edilmiş və maraqlı tərəflər üçün əlçatanlıq baxımından ATM-in internet saytında yerləşdirilmişdir:

- Tədris proqramlarının hazırlanması və təsdiq edilməsi qaydaları;
- Sillabus (fənn üzrə işçi tədris proqramı) haqqında əsasnamə;
- Fakültənin tədris ili üçün fəaliyyət planı (metodiki göstərişlər);
- Departamentin tədris ili üçün fəaliyyət planı (metodiki göstərişlər);
- Departamentin tədris ili üçün illik hesabatı (metodiki göstərişlər);
- Kurs işlərinin (layihələrinin) yerinə yetirilməsi haqqında əsasnamə;
- Müəllimin peşə fəaliyyətinin qiymətləndirilməsi haqqında əsasnamə;
- Formativ qiymətləndirmə haqqında təlimat kitabçası;
- Dərs jurnalının tərtib edilmə qaydaları;
- Fənlərin sərbəst öyrənilməsi qaydaları;
- Test tapşırıqlarının hazırlanması qaydaları;
- İmtahan qaydaları haqqında əsasnamə;
- Bakalavriat və magistratura üzrə məzunluq haqqında qaydalar;
- İstehsalat təcrübəsi haqqında əsasnamə;
- Universitet tədbirlərinin təşkil edilməsi haqqında əsasnamə.

Həmçinin, ATM-də tətbiq edilən e-tədris sistemi (SIMS) vasitəsilə hər semestrin sonu statistik təhlillər aparılır, müxtəlif istiqamətlər üzrə sorğular keçirilərək problemlər araşdırılır və məmnunluq səviyyəsi yoxlanılır.

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların Azərbaycan Respublikasının Təhsil Qanunvericiliyinin tələblərinə uyğun təkmilləşdirilməsi tövsiyə olunur.

### *3.4 Tədris metodları və üsulları*

#### 3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

ATM-də müasir avadanlıq və texnologiyaların mövcudluğu yaradıcı və innovativ texnologiyalardan istifadə etməklə tədris prosesinin təşkilini mümkün edir. Özünütəhlil Hesabatında dərslərin innovativ, yaradıcı və interaktiv metodlar (*Ayrı-ayrı fənlərə uyğun olan real hal və misalların təhlili (case analysis); Qrup müzakirələri və fikir mübadiləsi; Qrup və fərdi prezentasiyalar (təqdimatlar); Portfolio; Debatların təşkili; Praktiki ekskursiyaların təşkil olunması; Təhsil yarışmalarının təşkil olunması*) əsasında təşkil edildiyi qeyd olunsa da, tədris prosesinin sözügedən metodlar əsasında təşkil olunduğu ATM-ə sahə səfəri zamanı qənaətbəxş səviyyədə olduğu müşahidə edilmişdir. Belə ki, Akkreditasiya Komissiyasının dərs müşahidələri zamanı (fakültələr üzrə 10 fənn) əsasən *Qrup və fərdi prezentasiyalar (təqdimatlar)* və *Ayrı-ayrı fənlərə uyğun olan real hal və misalların təhlili (case analysis)* üsullarının tətbiq olunduğu müşahidə edilmişdir.

Qeyd etmək lazımdır ki, tədris planlarında nəzərdə tutulmuş fənlərin tədrisində elektron kitabxana, elektron mühazirə konspektləri, internet resursları və s. mənbələrdən istifadə olunur.

ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda təhsil alan 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə "Müəllimlərin tədris metodikası bizə dərsi daha yaxşı anlamağa imkan verir və dərslərdə innovativ, yaradıcı, interaktiv metod və texnologiyalardan geniş istifadə olunur" məsələsinə münasibətdə tələbələrin cavabları aşağıdakı qrafikdə ətraflı təqdim olunur:




***Qrafik 16. Akkreditasiya Komissiyasının təşkil etdiyi sorğunun 3.4.1-ci indikator üzrə nəticəsi***

### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Xəzər Universitetində tədris prosesində müxtəlif üsul və metodlardan istifadə olunur. ATM-də ixtisas fənləri üzrə bəzi mövzular kompüter proqramları əsasında nəzəri bilik və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə edilməklə tədris olunur. Fənn sillabuslarına baxış zamanı yeni/dəyişən təhsil üsullarının istifadəsinə imkan yaradılması və tələbələrin ehtiyaclarına xidmətin səviyyəsinin qənaətbəxş olduğu müşahidə edilmişdir. Lakin, bəzi sillabuslarda qeyd olunan "tarix - planlaşdırılma" bölümündə həftələr üzrə dərslərin hansı tarixdə keçiriləcəyi qeyd olunmamışdır.

ATM-ə sahə səfəri çərçivəsində Akkreditasiya Komissiyasının dərs müşahidələri zamanı vizual (müşahidə olunan obyektlər, hadisələr və əyani vəsaitlər bilik mənbəyi kimi xidmət edir) və praktiki (bilik və bacarıqlar praktiki hərəkətlərin yerinə yetirilməsi prosesində formalaşır) üsulların istifadəsi qismən izlənilmişdir.

### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

ATM-ə sahə səfəri çərçivəsində bakalavriat səviyyəsi üzrə Akkreditasiya Komissiyasının dərs müşahidələri zamanı mühazirə dərslərinin təşkilində əsasən təqdimatlar vasitəsilə mövzuların izahına üstünlük verildiyi müəyyən olunmuşdur. Praktiki məşğələ dərslərində isə müxtəlif interaktiv təlim metodlarından - *Real hal və misalların təhlili (case analysis); Portfolio; Kiçik qruplarda (komandada) iş; Qrup və fərdi prezentasiyalar (təqdimatlar); Debat; Diskussiya; Sual-cavab; Tənqidi düşüncənin inkişafı* - qismən istifadə müşahidə edilmişdir. Əlavə olaraq qeyd etmək lazımdır ki, ixtisas və fənnin təlim nəticələrindən asılı olaraq praktiki ekskursiyalar və müxtəlif təhsil yarışmaları təşkil olunur.

Magistratura səviyyəsində isə əsasən tədqiqat yönümlü, layihə əsaslı və problem əsaslı təlim metod və üsullarından istifadə edilir. Bu metod və texnikalar elm sahələrindən asılı olaraq məqalələrin təhlilləri, refleksiya esselərinin hazırlanması, tədqiqat sahəsi üzrə layihələrin hazırlanması və tədqiqatların aparılması, təqdimatlar, müzakirə və "case/nümunə hadisə" təhlillərinə istiqamətlənmişdir.

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, Xəzər Universitetində tədris prosesi tələbəyönümlülük prinsipinə əsaslandığı üçün dərslərdə müəllimyönümlü mühazirə, seminar kimi təlim strategiyaları ilə yanaşı tələbəyönümlü təlim strategiyalarına uyğun reflektiv esse, problem əsaslı layihələr və qrup müzakirələri kimi strategiyalardan istifadə edilir.

Qeyd etmək lazımdır ki, Xəzər Universitetində ERASMUS+ proqramı çərçivəsində maliyyələşdirilən PETRA layihəsinin icrasının nəticəsində "Təlim - Tədris Mərkəzi" təşkil olunmuşdur. Mərkəzin dəstəyi ilə "Akademik yazı" mövzusunda seminarlar təşkil olunur, tədris prosesində akademik dürüstlük məsələsinə xüsusi diqqət ayrılır. Hazırlanmış esselər və layihələr dekanlıqlar tərəfindən plagiatlılığın yoxlanılması məqsədilə Keyfiyyət Təminatı Mərkəzinə göndərilir və plagiat yoxlanışı hesabatı ilə birgə qiymətləndirmə üçün fənn müəlliminə təqdim edilir.

### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

Xəzər Universitetində bakalavr səviyyəsinə nisbətən magistratura və doktorantura səviyyələrində əsasən tədqiqat yönümlü, layihə əsaslı və problem əsaslı təlim metod və üsullarından daha çox istifadə edildiyi müəyyən edilmişdir.

Qeyd etmək lazımdır ki, ATM-də tələbələrin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodları tətbiq olunur. Sağlamlıq imkanları məhdud tələbələr üçün müvafiq olaraq dərslərin planlaşdırılması (dərs otaqları, dərs və imtahanların keçirilmə üsulları) həyata keçirilir. Belə ki, tədris prosesində sözügedən tələbələr üçün əlavə fərdi dərs və konsultasiya saatları təyin edilir. Fənnin xüsusiyyətindən asılı olaraq imtahanların keçirilmə forması şifahi və ya əlavə vaxtın verilməsi şəklində təşkil edilir.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

Xəzər Universitetində tədris prosesində rəqəmsal texnologiyaların təqdim etdiyi müxtəlif imkanlardan (kompyuter sinifləri - virtual laboratoriyalar, proyektorlar, ağıllı lövhələr və s. multimedia avadanlığı) istifadə olunur.

ATM-də 2014-cü ildən etibarən SIMS platforması tətbiq olunur və sözügedən platforma tədrisin elektron idarə edilməsinin bütün funksiyalarını əhatə edir (üç əsas istiqamət üzrə: idarəetmə, müəllim (ABİS) və tələbə (OBİS) kabinetləri).

### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

Xəzər Universitetində öyrətmə və öyrənmə mühitinin yaradılması istiqamətində müxtəlif təlim, seminar və müzakirələr təşkil olunur. Belə ki, semestr ərzində dekanlıqlar və departamentlər arasında dərslərin keyfiyyətli keçirilməsi, istifadə olunan təlim metodlarının və auditoriyaların interaktiv təlim mühitinə uyğunlaşdırılması haqqında müzakirələr təşkil edilir.

ATM-də hesabat dövrün üzrə təşkil olunmuş sorğuların nəticələri və müşahidələr göstərir ki, tələbələr dərslərin interaktiv keçirilməsinə üstünlük verir və interaktiv öyrənmənin daha davamlı olduğunu hesab edirlər.

### 3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, ATM-də tədris metod və üsullarının dövri monitorinqi aparılır və bu məqsədlə Keyfiyyət Təminatı Mərkəzi tərəfindən sorğular təşkil edilir.

Fakültələr tərəfindən dövri monitorinq və preventiv tədbirlərin sistematik qiymətləndirilmə və təkmilləşdirilmə səviyyəsinin qənaətbəxş olduğu ATM-ə sahə səfəri zamanı müşahidə edilmişdir.

Qeyd etmək lazımdır ki, 2018-ci tədris ilində PETRA layihəsi çərçivəsində təlim və tədris prosesinin təkmilləşdirilməsi məqsədilə ehtiyacların müəyyənləşdirilməsi üçün həm Xəzər Universitetində, həm də layihədə iştirak edən digər yerli ATM-lərdə akademik heyətin İKT-dən istifadə bacarıqları, istifadə etdiyi təlim üsul və texnologiyaları, yaradıcı tətbiqetmə bacarıqlarına dair anket sorğular keçirilmiş və nəticələr növbəti ilin sorğu anketində təsdiqənmişdir.

Sorğuların nəticələri departamentlərlə müzakirə edilir, akademik heyətin peşəkar ehtiyacları müəyyənləşdirilir və ATM-in imkanları daxilində müxtəlif istiqamətlər üzrə peşəkar inkişaf üçün tədbirlər həyata keçirilir. Professor-müəllim heyətinin peşəkar inkişafına dair fəaliyyət planına uyğun olaraq ATM-də təlimlər təşkil olunur. Belə ki, ATM-in “Təlim – Tədris Mərkəzi”nin təşkilatçılığı ilə professor-müəllim heyəti və inzibati heyət üçün Britaniya Şurası (Creative Spark), ABŞ Təhsil Departamenti (CBELT), Avropa İttifaqı (PETRA, Mediation: Training & Society Transformation, UNILAB, PICASP, ECAR) və s. beynəlxalq qurumların maliyyələşdirdiyi layihələr çərçivəsində təlimlər təşkil edilmişdir.

### *3.5 Təlim və tədris resursları*

#### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

Xəzər Universitetində tədrisin elektron idarəetmə sistemi (Student Information Management System - SIMS) 2014-cü ildən etibarən istifadəyə verilmişdir. SIMS platforması tədrisin idarə edilməsinin müəyyən funksiyalarını əhatə edir. SIMS vasitəsilə üç əsas istiqamət üzrə (idarəetmə, müəllim (ABİS) və tələbə (OBİS) kabinetləri) aşağıdakı fəaliyyətlər həyata keçirilir:

- Tələbənin statusuna (möhlət, köçürülmə, nizam-intizam tədbirləri və s.) dair məlumatların saxlanılması və emalı, arayışlar və müxtəlif sənədlərin verilməsi;
- Fənlərə dair məlumatın qeydiyyatı, fərdi tədris planların formalaşdırılması;
- Semestrlər üzrə tələbələrin fənlərə qeydiyyatı;
- Məzunların uçotu və tələbə məlumatlarının arxivləşdirilməsi;
- İngilis dilində diplom əlavəsinin verilməsi;
- Tədris planları, semestrdə açılacaq fənlər, cədvəllər və s. haqqında məlumatların verilməsi;
- Tədris prosesinə dair digər məlumatların uçotu və emalı;
- Bal bölgüsü, elektron jurnal, fənlər üzrə tapşırıqların yerinə yetirilməsi, aralıq və yekun imtahan nəticələri, apellyasiya müraciət və nəticələrin qeydiyyatı;
- Transfer.

Covid-19 pandemiyası zamanı ATM-də "Microsoft Teams" platformasından (sinxron öyrənmə) geniş istifadə edilmişdir və hal hazırda da fakültələrdə sözügedən platformadan istifadə olunur.

Qeyd etmək lazımdır ki, "Moodle" tədrisin elektron idarəetmə sisteminin (ETİS) əsasında (https://elearning.khazar.org) Xəzər Universitetində qarışıq (sinxron və asinxron) tədris mühiti yaradılmışdır. Qarışıq tədris mühiti ənənəvi və onlayn (distant) formada tədrisin həyata keçirilməsinə imkan verir. Tələbələr həm sinxron, həm də asinxron öyrənmə üsullarından faydalana bilirlər.

#### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

ATM-in tədris binaları üzrə əksər dərs auditoriyalarının internetlə təchiz olunduğu, təlim prosesini aparmaq üçün ATM-də ağıllı lövhələrdən istifadə olunduğu Akkreditasiya Komissiyası tərəfindən müşahidə edilmişdir.

Qeyd etmək lazımdır ki, Xəzər Universitetində təlim prosesini aparmaq üçün auditoriyaların müasir texnika ilə təminatı səviyyəsi aşağıdakı kimidir:

- İnternetə qoşulan kompyuter sayı – 361;
- Tədris auditoriyalarının sayı – 76;

- Proyektorla təmin edilmiş auditoriyaların sayı – 62;
- Kompyuter laboratoriyalarının sayı – 4.

### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti.

Xəzər Universitetində fənn və tələbələrin qeydiyyatı elektron jurnal vasitəsilə aparılır. 2021/22-ci tədris ilinin yaz semestrindən etibarən ATM-də elektron jurnal sistemi tətbiq edilir.

Elektron jurnal sistemi aşağıda qeyd olunmuş funksiyaları əhatə edir:

- Cədvəl;
- Davamiyyətin yoxlanılması və buraxılmış dərslərin izlənilməsi;
- Ev tapşırığı;
- Tələbənin akademik performansı;
- Semestr və ya tədris ilinin sonunda qiymətlər və s.

Elektron jurnaldan istifadə SIMS tələbə informasiya sistemi vasitəsilə həyata keçirilir. SIMS platforması tələbələrin fənlərə qeydiyyatı, bilik və bacarıqların qiymətləndirilməsinin uçotu, tələbələrə transkriplərin verilməsi, tələbələrin dərs cədvəllərinin formalaşdırılması, dərslərə davamiyyət uçotu, müxtəlif hesabat və statistik məlumatların verilməsi, müəllimlərin dərs yükü haqqında məlumatların formalaşdırılması, o cümlədən tədris prosesinin idarəçiliyini əhatə edən müxtəlif məlumatların əldə edilməsini təmin edir.

ATM-ə sahə səfəri çərçivəsində Akkreditasiya Komissiyasının müşahidə və təhlillərinin nəticəsində elektron jurnalda reqlamentlərin tənzimlənməsi (davamiyyətin yoxlanılması üçün vaxt məhdudiyətinin qoyulması) tövsiyə olunur.

### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

Xəzər Universitetində tədris prosesində rəqəmsal texnologiyaların təqdim etdiyi müxtəlif imkanlardan istifadə olunur:

- Blended Learning - Qarışıq Öyrənmə (Onlayn kursların mühazirələrində iştirak, sinifdə müəllimlə müzakirə və praktiki tapşırıqların yerinə yetirilməsi);
- Adaptive Learning - Adaptiv Öyrənmə (tələbənin bilik səviyyəsinə görə uyğunlaşdırılmış tədris kursların hazırlanması);
- Müxtəlif fənlər üzrə simulyator və trenajor proqram təminatları;
- Virtual laboratoriyalar (MatLab, LabVIEW, Aspen Hysys, Schlumberger Petrel, Techlog, Eclipse və s.)
- Tədqiqat işlərində plagiat yoxlanılması (StrikePlagiarism);
- Bulud texnologiyalarının tədris prosesində tətbiqi (Google Classroom, Microsoft Teams, Google Cloud Platform, Microsoft Azure, Amazon Web Services, Oracle Cloud).

ATM-də tədris prosesində həmçinin “Microsoft Teams”, “Google Classroom”, “Zoom”, “Go To Meeting” rəqəmsal xidmətlərindən də istifadə olunur (təqdimatlar, vebinarlar, virtual sinif otaqları, videokonfranslar və s.).

Əlavə olaraq qeyd etmək lazımdır ki, tədris prosesinin fasiləsiz və davamlı fəaliyyəti üçün müxtəlif istiqamətlər üzrə texniki dəstək göstərilir:

- Kampusu əhatə edən lokal kompyuter və Wi-Fi şəbəkələri;
- Ayrılmış xətt üzrə internet xidməti – 150 Mbit/s;
- Korporativ elektron poçt xidməti (email) @khazar.org domeni üzərində;
- Tələbə, professor-müəllim heyəti və əməkdaşlar üçün Microsoft Office 365 (Word, Excel, PowerPoint, Teams, OneNote, SharePoint, OneDrive, Outlook, Sway, Forms) lisenziyalı hesablarının yaradılması.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

Xəzər Universitetində hal-hazırda dörd kompüter laboratoriyasının fəaliyyət göstərdiyi ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. ATM-də internetə çıxışı təmin olunmuş kompüter sayı 361-dir. Xəzər Universiteti tərəfindən Özünütəhlil Hesabatına əlavə olaraq təqdim olunmuş sənədlərdə ATM-də internetə çıxışı təmin olunmuş kompüterlərin təhsilalanlarının ümumi sayına nisbətinin (faizlə) 10% təşkil etdiyi qeyd olunmuşdur. Əlavə olaraq qeyd etmək lazımdır ki, tədris laboratoriyaları və auditoriyalarında 178 kompüterin internetə çıxışı təmin edilmişdir.

ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda təhsil alan 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda tələbələrin 4% internetə qoşulmaq məsələsindən narazılığını bildirmişdirlər.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

Sahə səfəri zamanı ATM-də tədris prosesinin 2 tədris binasında (Neftçilər korpusu və Nizami korpusu) təşkil olunduğu müəyyən olunmuşdur. Hər iki tədris binasında Akkreditasiya Komissiyası tərəfindən yerində baxış keçirilmişdir. Qeyd etmək lazımdır ki, ATM-də tədris prosesinin təşkil olunduğu binaların ümumi sahəsi 9446 kv.m. təşkil edir. Nəticə olaraq, hər tələbəyə düşən faktiki sahə üçün 2,7 kv.m. təşkil edir.

Tədris prosesi üçün nəzərdə tutulmuş 76 auditoriyanın sahəsinin 3467,85 kv.m. təşkil etdiyi müəyyən edilmişdir. Mövcud sahə təlim-tədris prosesinin təşkili üçün həm sahə (hər təhsilalana düşən fatiki sahə 0,99 kv.m.), həm də say nisbətinə görə (5 fakültə üçün cəmi 100 olmalıdır) kifayət qədər deyil.

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

Qeyd etmək lazımdır ki, Xəzər Universitetində akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunu 30 (ümumi sahəsi 617,8 kv.m., hər müəllimə düşən faktiki sahə 1,83 kv.m.)

otaq təşkil edir. İnzibati heyətin fəaliyyətini təmin edən fond ümumi sahəsi 1479,06 kv.m olan 66 otaqdan ibarətdir.




***Qrafik 17. Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun dinamikası***

Qrafikdən də göründüyü kimi, ATM-də akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun azalma dinamikası müşahidə olunur.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

Xəzər Universitetində kitabxananın elektron və ənənəvi resurslarının tələbə və akademik heyətin sayına nisbətdə artım dinamikası qənaətbəxşdir.

ATM-də tələbələr və akademik heyət üçün aşağıdakı resurslar təqdim edilir:

- Elektron Məlumat bazaları - https://khazar.org/en/item/1306;
- EBSCO Discovery axtarış sistemi;
- Azərbaycan Milli ISBN Agentliyi Məlumat bazası; https://khazar.org/en/item/10137;
- Xəzər Universitetinin nəşrlərinin elektron kataloqu;
- Khazar Journal of Humanities and Social Sciences (KJHSS);
- Hal-hazırda KJHSS Açıq Jurnal Sistemi (OJS) platformasının yeni versiyasından istifadə edilir;
- Elektron jurnallara abunəlik: The Economist, Time, National Geographic, Harvard Business Review və s.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

Hesabat dövründə Xəzər Universitetində Kitabxana İnformasiya Mərkəzinin tədris resurslarının artım dinamikası izlənilir. Belə ki, 2017/18-ci tədris ilinə nisbətən cari tədris ilində 18%-ə qədər artım müşahidə edilmişdir.




***Qrafik 18. Ktabxana İnformasiya Mərkəzinin tədris resurlarının dinamikası***

Qeyd etmək lazımdır ki, informasiya resurslarının toplanması və yayılması vasitəsi kimi elektron kitabxanada 89 mindən artıq biblioqrafik qeyd mövcuddur. Buraya məlumat bazaları (18 xarici abunə bazası və 3 şəxsi məlumat bazası), xarici daşıyıcılardakı sənədlər (ensiklopediyalar, lüğətlər, məlumat kitabçaları, dərsliklər), sorğu-axtarış aparatı, biblioqrafik məhsullar (Xəzər Universiteti nəşrlərinin biblioqrafik göstəricisi) daxildir.

Hesabat dövründə ATM-in elektron kitabxana fondu zənginləşmişdir və aşağıdakı cədvəldən də göründüyü kimi müxtəlif e-book platformalardan istidadə edilir. Məsələn, Dspace rəqəmsal akademik nəşrlər bazasından əldə edilən kitabların nüsxələri 2017/18-ci il ilə müqayisədə son ildə 4 dəfəyə qədər artmışdır.

***Cədvəl 9. Rəqəmsal bazalardan əldə edilən resursların sayı***

| Rəqəmsal bazalar | 2017/18 | 2018/19 | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 |
|---|---|---|---|---|---|---|
| Elektron kataloq (Follett) | 35183 | 36523 | 38012 | 38512 | 45214 | 48955 |
| Məlumat bazaları | 23289 | 24234 | 29300 | 29504 | 30125 | 35455 |
| DSpace | 1289 | 1584 | 2211 | 2378 | 3798 | 4674 |
| Calibre | 58 | 93 | 129 | 198 | 212 | 363 |
| Cəmi (nüsxə) | 59819 | 62434 | 69652 | 70592 | 79349 | 89447 |

### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

Xəzər Universitetində tədris prosesinin azərbaycan və ingilis dillərində təşkil olunmasına baxmayaraq, ATM-in kitabxana fondunda ingilis dilində resurslar üstünlük təşkil edir.

Aşağıdakı cədvəldə Kitabxana İnformasiya Mərkəzinin çap və elektron formada aktiv kitab fondu göstərilmişdir. Xəzər Universitetində tədris prosesin ingilis dilində də təşkil olunduğu üçün kitabxana fondunda əsasən ingilis dilində olan resurslar üstünlük təşkil edir.

Müvafiq olaraq, Kitabxana İnformasiya Mərkəzinin tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası qənaətbəxş səviyyədədir.

***Cədvəl 10. Ktabxana İnformasiya Mərkəzinin çap və elektron formatda olan aktiv kitab fondu***

| Kitab fondu | 2017/18 | 2018/19 | 2019/20 | 2020/21 | 2021/22 |
|---|---|---|---|---|---|
| İngilis dilində (nüsxə) | 53456 | 54178 | 54219 | 55586 | 56785 |
| Azərbaycan dilində (nüsxə) | 30028 | 33457 | 36857 | 39144 | 42112 |

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

Cari tədris ilinədək Xəzər Universitetində dərslik, elmi ədəbiyyat və elmi bazalardan istifadə üçün ayrılan vəsaitin həcmində ATM-in müəllim və tələbə heyətinin sayına nisbətdə azalma dinamikası müşahidə edilmişdir.




***Qrafik 19. Dərslik, elmi ədəbiyyat və elmi bazalardan istifadə üçün ayrılan vəsait***

### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

SIMS e-tədris platformasında şəxsi kabinet və “Microsoft Teams” platforması vasitəsilə ATM-də təlim və tədris resurslarından istifadə üçün imkan yaradılmışdır.

Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqinin icrası illik monitorinq nəticələrinə əsasən növbəti tədris ili üçün təkmilləşdirilir və təsdiqlənir. Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi Keyfiyyətin təminatı şöbəsi tərəfindən aparılır. ATM-ə sahə səfəri çərçivəsində təlim və tədris resurslarının istifadə və monitorinqinin qənaətbəxş səviyyədə olması müşahidə edilmişdir.

Xəzər Universitetində tədris ilinin sonunda Keyfiyyət Təminatı Komitəsinin üzvlərindən ibarət işçi qrupu tərəfindən özünütəhlil aparılır və illik özünütəhlil hesabatı hazırlanır. Hesabat Keyfiyyət təminatı komitəsinin iclasında müzakirə olunur.

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

ATM-də təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı təmin edilir. Tədris materiallarının aktuallığını və əlçatanlığını təmin etmək üçün onların biblioqrafik qeydləri elektron kataloqda yerləşdirilirmişdir. Xəzər

Universitetinin internet saytında Kitabxana İnformasiya Mərkəzinin səhifəsində müvafiq qaydada elektron resurslar haqqında məlumatlar yerləşdirilmişdir:

- Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS) – Follett Destiny (Online catalog) (https://khazaruniversity.follettdestiny.com);
- Elektron arxiv – Dspace (Institutional Repository) (http://dspace.khazar.org/).

Qeyd etmək lazımdır ki, təhsilalanlar üçün əlçatanlığın təmin olunması məqsədilə fənn sillabusları SIMS elektron tədris platformasında yerləşdirilmişdir.

### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

Sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təmin olunması üçün universitetdə tədris infrastrukturu qənaətbəxş olduğu ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Belə ki, ATM-də sağlamlıq imkanları məhdud tələbələr üçün dərslərin planlaşdırılması (dərs otaqları, dərslərin və imtahanların keçirilmə üsulları) həyata keçirilir. Qeyd etmək lazımdır ki, tədris prosesi zamanı görmə məhdudiyyəti olan tələbələr üçün əlavə fərdi dərs və məsləhət saatları təyin edilir. Fənnin xüsusiyyətindən asılı olaraq imtahanların təşkil forması şifahi və ya əlavə vaxtın verilməsi şəklində təşkil olunur.

Xəzər Universitetində "Əlilliyi olan tələbələr üçün Mərkəz"in fəaliyyəti sağlamlıq imkanları məhdud tələbələrə dair məsələləri tənzimlənməsini təmin edir. (https://khazar.org/az/item/954).

### 3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

Xəzər Universitetində İnkişaf Mərkəzi və "Təlim - Tədris Mərkəzi"nin təşkilatçılığı ilə akademik heyət üçün tədris və təlim strategiyasının inkişafı ilə bağlı PETRA təlimi, "Creative Spark" və UniLab layihələri çərçivəsində təlimlər, "Təlim və tədris strategiyasının təkmilləşdirilməsi" mövzusunda vörkşoplar keçirilmişdir.

Akademik heyətin inkişafı üçün ixtisas sahələrinə uyğun olaraq yerli və beynəlxalq ixtisasartırma və digər təlim kurslarında iştirak ATM tərəfindən dəstəklənir. Məsələn, mütəmadi keçirilən ingilis dili kursları, texnoloji bacarıqların artırılması üçün keçirilən proqramlaşdırma kursları, İngilis dili və ədəbiyyatı departamentinin silsilə olaraq ingilis dili müəllimləri üçün keçirdiyi TKT kursları bu qəbildən olan tədbirlər hesab edilə bilər.

### 3.5.16 Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resursları), dəstək planlarının mövcudluğu

Özünütəhlil Hesabatında qeyd olunur ki, Xəzər Universitetində debat klubu, texnoklub, astroklub və müxtəlif döyüş növləri üzrə idman bölmələri, tələbə və müəllimlərdən ibarət iki mahnı və rəqs ansamblı fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resursları), dəstək planlarının mövcudluğu vəziyyətinin qənaətbəxş olduğu ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.




***Qrafik 20. Tələbənin sosial, mədəni və idman fəaliyyətləri üçün ayrılan vəsait***

### 3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

ATM-də Xəzər Psixoloji Xidmət Mərkəzi fəaliyyət göstərir. Mərkəz  tələbələr üçün psixoloji dəstək xidmətinin göstərilməsi məqsədi ilə 2016-cı ildə Psixologiya Departamentinin təşəbbüsü ilə yaradılmışdır. Mərkəz tərəfindən psixoloji dəstəyə ehtiyacı olan tələbələr üçün konsultasiyalar təşkil olunur. Həmçinin, Mərkəzin fəaliyyətindən faydalanmaq istəyən digər şəxslər üçün də ödənişli əsaslarla xidmətlər təklif olunur.

Psixoloji Xidmət Mərkəzində fəaliyyət göstərən mütəxəssislər Avropa ölkələrində və Amerika Birləşmiş Ştatlarında təhsil almış peşəkar psixoloqlardır. Xarici ölkələrdən dəvət olunmuş peşəkar psixoloq və mütəxəssislər tərəfindən Mərkəzdə psixoloji məsləhət və psixoterapiya seansları keçirilir.




***Qrafik 21. Mərkəzə olan müraciətlərin sayı***

Mərkəzə 2018-ci ildə 30 nəfər, 2019-cu ildə 35 nəfər, 2020-ci ildə 15 nəfər (onlayn müraciət əsasında), 2021-ci ildə 32 nəfər, 2022-ci ildə isə 40 nəfər tələbə müraciət etmişdir.

ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda təhsil alan 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə “Psixoloji məsləhət xidmətlərindən  istifadə təmin olunur” məsələsinə münasibətdə tələbələrin 35%-i müsbət (“Tamamilə razıyam” və “Razıyam”), 35%-i mənfi (“Razı deyiləm” və “Qətiyyən razı deyiləm”), 30%-i isə qismən razılığını ifadə etmişdirlər.




***Qrafik 22. Akkreditasiya Komissiyasının təşkil etdiyi sorğunun 3.5.17-ci indikator üzrə nəticəsi***

Xəzər Universitetində psixoloji məsləhət xidmətləri üzrə vəziyyətin qiymətləndirilməsinin aparılması tövsiyə olunur.

## *3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

Xəzər Universitetində bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydalar mövcuddur, lakin bu qaydalar müəllimlər üçün hazırlanmışdır. “Formativ qiymətləndirmə haqqında təlimat”, “Layihələrin hazırlanması və qiymətləndirilməsi Qaydaları”, “Bilik və bacarıqların taksonomik qiymətləndirilməsi haqqında metodiki göstəriş”, “Tapşırıqların hazırlanmasının metodik əsasları”, “Test tapşırıqlarının hazırlanması Qaydaları”, “İmtahan qaydaları haqqında Əsasnamə”lərin müvafiq bəndlərində qiymətləndirmə prosesində istifadə ediləcək üsul və vasitələr haqqında ətraflı təsvirlər mövcuddur.

Xəzər Universitetində kredit sistemi ilə təhsil alan tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi sistemi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 saylı qərarı ilə müəyyən edilmiş Qaydaların tələblərinə uyğun formalaşdırılmır. ATM təlimin nəticələrini daxili əmr və təlimatlarla qiymətləndirir.

Müvafiq istiqamətdə optimallaşdırılmanın aparılması tövsiyə olunur.

### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

Xəzər Universitetinin qiymətləndirmə siyasəti (https://khazar.org/az/item/149) fəaliyyətə başladığı müddətdən etibarən 100 ballıq və hərfli qiymətləndirmə sisteminə əsaslanır.

ATM-də bakalavr səviyyəsində keçid balı 60, məzun olmaq üçün isə minimum orta qiymət (G.P.A.) 70, magistr səviyyəsində keçid balı 65, məzun olmaq üçün isə minimum orta qiymət (G.P.A.) 75-dir.

Xəzər Universitetinin rektorunun müvafiq əmrinə əsasən 100 balın bölgüsündə xüsusi yaradıcılıq tələb edən fənlər istisna olmaqla, bir qayda olaraq aralıq və final imtahanlarının toplamı, cəmi qiymətləndirmə minimum 60%, maksimum 75% təşkil etməlidir. Bu qaydalara

görə digər 25-40% isə formativ qiymətləndirmə olaraq fənn müəllimləri tərəfindən fəaliyyət əsasında müəyyənləşdirilir.

Həmin 25-40% çoxballı qiymətləndirmə sistemində davamiyyət, fəallıq, fərdi və ya qrup işləri, təqdimatlar, laboratoriya işləri, portfolio, tədqiqat layihələri və s. kimi fəaliyyət əsaslı qiymətləndirilir. Qiymətləndirmə bölgüsü barədə geniş məlumatlar müəllim tərəfindən hazırlanan sillabuslarda öz əksini tapır və həmin sillabuslar hər semestrin əvvəlində tələbəyə təqdim olunur.

Eyni zamanda, fənn müəlliminin fənnin işçi tədris planında (sillabus) qeyd etdiyi bölgü semestrin əvvəlində e-tədris (SIMS) sistemində fənn müəllimi tərəfindən qeyd edilib təsdiqlənərək möhürlənir.

Xəzər Universitetinin qiymətləndirmə siyasəti, bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların müvafiq qanunvericiliyin (https://e-qanun.az/framework/27030) tələblərinə uyğunlaşdırılması üçün sözügedən istiqamətdə optimallaşmanın aparılmasına ehtiyac duyulur.

### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalardan (üz-üzə, məsafədən, qarışıq, açıq və s.), metod və vasitələrdən istifadə olunması vəziyyəti

Xəzər Universitetində cari və aralıq qiymətləndirmə üçün formativ qiymətləndirmənin üsul və vasitələri ixtisaslaşmanın və fənnin xüsusiyyətindən asılı olaraq fənn müəllimi tərəfindən tərtib edilir. Eyni zamanda, aralıq və final imtahanlarının tapşırıqları isə qaydalar və təlimatlar əsasında açıq və qapalı tapşırıqlardan ibarət olur.

Xəzər Universitetində yekun imtahanlar bir qayda olaraq yazılı, fənnin xüsusiyyətindən asılı olaraq bəzi hallarda şifahi və ya qismən şifahi formada keçirilir. İmtahan müddəti 1 saat 20 dəqiqə olaraq müəyyən edilmişdir. İmtahandan sonra tələbələrin cavabları həmin gün ərzində Tələbə Qeydiyyat Şöbəsində şifrələnir və yoxlanılması üçün dekanlığa geri göndərilir. 5 (beş) gün müddətində yoxlanılıb qiymətləndirildikdən sonra tələbələrin işləri yenidən Tələbə Qeydiyyat Şöbəsinə təqdim edilir və şifrələr açılır. Müvafiq məlumatlar şöbə tərəfindən məlumat sisteminə daxil edilir.

Qeyd etmək lazımdır ki, "İmtahan qaydaları" haqqında Əsasnaməyə əsasən imtahan suallarının təhsilalanlara verilməsini qadağan edilmişdir. Xəzər Universitetinin "Əsasnamələr və qaydalar toplusu" və "İmtahan qaydaları" haqqında Əsasnamənin ictimaiyyət üçün əlçatanlığı təmin edilmişdir.

Xəzər Universitetində imtahan cavablarının yoxlanılıb tələbələrə çatdırılması müddətinin qısaldılması sahəsində optimallaşdırılmanın aparılması tövsiyə olunur.

### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

Xəzər Universitetində imtahanlar əsasən yazılı və qismən şifahi formada keçirilir. Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin və şəffaflığın təmin olunması məqsədilə imtahan sessiyasında imtahan işləri Tələbə və qeydiyyat şöbəsinin əməkdaşları tərəfindən kodlaşdırılır. Kodlaşdırılma aparıldıqdan sonra işlər yoxlanılması üçün müəllimlərə təqdim edilir və

kodlaşdırılmış işlərin hansı təhsilalana aid olduğu müəllimlər tərəfindən bilinmir. Bu isə öz növbəsində müəllimi tələbənin qiymətləndirilməsində daha obyektiv olmağa sövq edir.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Xəzər Universitetində tələbəyönümlü təlim strategiyasının tətbiqi, fənn sillabuslarının strukturu, tapşırıqların hazırlanması və tədris prosesində çoxtərəfli interaksiyanın təmin edilməsi tələbələrdə öyrənmə məsuliyyəti və dərs prosesinə aktiv iştirakı zəruri edir. Portfolioların hazırlanması, laboratoriya işləri, tədqiqat işləri, məqalə dəyərləndirməsi, layihələrin hazırlanması və s. tipli tapşırıqlar tələbələrə öyrənmə məsuliyyətinin aşılanmasına xidmət edir.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

Xəzər Universitetində informasiya kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə edilir. ATM-də SİMS elektron tədris idarəetmə sistemi 2014-cü ildən etibarən fəaliyyət göstərir. Sözügedən sistem təhsilalana aid bütün məlumatların əldə edilməsinə imkanı verir. Hər bir təhsilslalan üçün korporativ elektron poçt ünvanı açılır.

SİMS e-tədris sistemi tələbələrin fənlərə qeydiyyatı, bilik və bacarıqlarının qiymətləndirilməsinin uçotu, transkriptlərin verilməsi, tələbələrin dərs cədvəllərinin formalaşdırılması, dərslərə davamiyyət uçotu və s. imkanlar yaradır. Eyni zamanda, təhsilalanların cari və aralıq qiymətlərinin SİMS-də qeydiyyatı aparılır və bütün nəticələr vahid elektron bazada saxlanılır. Həmçinin, sözügedən sistem aralıq və yekun imtahan nəticələri barədə hesabatların hazırlanması üçün də imkan yaradır.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

Xəzər Universitetində sağlamlıq imkanları məhdud təhsilalanlara münasibətdə xüsusi yanaşma mövcuddur. Belə ki, ATM-də Əlilliyi olan tələbələr üçün Mərkəz və Xəzər Psixoloji Xidmət Mərkəzi fəaliyyət göstərir. Əlilliyi olan tələbələr üçün Mərkəzin əsas funksiyası əlilliyi olan təhsilalanlara dəstək olmaq, onları lazımi avadanlıqlarla təchiz etmək və ehtiyac olduqda imtahanların təşkilinə yardım göstərməkdir. Görmə məhdudiyyətli təhsilalanlar üçün tədris prosesi zamanı əlavə dərs və məsləhət saatları təşkil olunur.

Mərkəz əlilliyi olan təhsilalanların işlə təmin olunması məsələlərində də yaxından iştirak edir. Belə ki, ATM-in internet saytında elanlar bölməsində iş axtaran əlilliyi olan tələbə və məzunların müraciət edə biləcəyi və tərcümeyi-hallarını yönləndirə biləcəyi əlaqə vasitələri mövcuddur.

Xəzər Universitetində “Əlilliyin dərki və stiqmalarımız” mövzusunda təlim kecirilmiş, ATM-in əməkdaşları “İnklüziv ali təhsildə 3N” mövzusunda vebinarda iştirak etmişdirlər.

ATM-də sağlamlıq imkanları məhdud olan tələbələrin sayı barədə məlumat aşağıda qeyd olunmuşdur.




***Qrafik 23. Sağlamlıq imkanları məhdud tələbələrin dinamikası***

Qrafikdən də göründüyü kimi, 2017/18-ci tədris ilində ATM-də sağlamlıq imkanları məhdud tələbələrin sayı 4 nəfər, 2018/19-cu tədris ilində 2 nəfər, 2019/20-ci tədris ilində 3 nəfər, 2020/21-ci tədris ilində 1 nəfər, 2021/22-ci tədris ilində 18 nəfər, 2022/23-cü tədris ilində 16 nəfər olmuşdur.

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

Cari və aralıq qiymətləndirmə üsulu fənnin xüsusiyyətindən asılı olaraq müxtəlif olur. Belə ki, qiymətləndirmə üsulu fənn müəllimi tərəfindən müəyyən edilir və fənn sillabusunda öz əksini tapır. Davamiyyət, fəallıq, fərdi və ya qrup işləri, müxtəlif tipli esselər, təqdimatlar, laboratoriya işləri, portfolio, tədqiqat layihələri və s. fənn müəllimi tərəfindən müəyyənləşdirilir, müvafiq departament rəhbəri tərəfindən təsdiq edilərək fənn sillabusuna daxil edilir.

Qiymətləndirmə qaydalarının hazırlanması zamanı fənn müəllimləri tərəfindən əsasən “Formativ qiymətləndirmə haqqında təlimat” və “Test tapşırıqlarının hazırlanması Qaydaları” ndan istifadə olunur.

Xəzər Universitetində kredit sistemi ilə təhsil alan tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi sistemi AR Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 saylı qərarı ilə müəyyən edilmiş Qaydaların tələblərinə uyğun formalaşdırılmır. ATM təlimin nəticələrini daxili əmr və təlimatlarla qiymətləndirir.

Müvafiq istiqamətdə optimallaşdırılmanın aparılması tövsiyə olunur.

### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

ATM-də yekun qiymətləndirmə Dövlət Attestasiya Komissiyaları tərəfindən aparılır. Bakalavr və magistr səviyyələri üzrə məzun olmaq üçün bütün fənn blokları üzrə kreditlər toplanmalıdır. Bakalavr bütün fənlərdən minimum 60(D), magistr 65D(+) qiymətlərini almalıdır.

Bakalavriatura üzrə ÜOMG (GPA) 70 C, magistratura üzrə isə 75(C) olmalıdır. Magistr dissertasiyasının yazılması və müdafiəsi qaydaları Xəzər Universitetinin “Magistr dissertasiyasının yazılması və müdafiəsi Qaydaları” və “Magistratura tələbələrinin dissertasiya müdafiəsi üçün təlimat kitabçası” ilə tənzimlənir.

“Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında, “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında, “Magistratura təhsilinin məzmunu, təşkili və “magistr” dərəcələrinin verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiqlənmiş qaydalar, eyni zamanda “Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr səviyyəsində dövlət attestasiyası haqqında əsasnamə” və “Magistr dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında əsasnamə”lərin qaydalarına qismən əməl olunur və tam şəkildə əməl olunması üçün optimallaşdırmanın aparılması tövsiyə olunur (https://e-qanun.az/framework/27030).

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Xəzər Universitetində bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillər Keyfiyyətin təminatı şöbəsi tərəfindən aparılır. Eyni zamanda, bilik və bacarıqların qiymətləndirilməsi üzrə hesabatlar Xəzər Universitetinin Məsləhət Şurası və Elmi Şurasında müzakirə olunur.

Tələbə və qeydiyyat şöbəsi ilə müsahibə zamanı yazılı imtahanların kodlaşdırılması, işlərin yoxlanılması və qeydiyyatın aparılması ilə bağlı müzakirə nəticəsində yazılı imtahanların test imtahanlarına nisbətən daha çox vaxt tələb etdiyi aydın olmuşdur.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

Xəzər Universitetində təhsil səviyyəsinin bitirilməsi qaydaları və şərtləri hər il birinci il tələbələrinə paylanan “Yaddaş kitabça”sında qeyd edilmişdir. Bu şərtlər sadə, aydın və başa düşülən formadadır. Bundan əlavə, SIMS e-tədris sistemində hər bir tələbə öz kabinetində əks olunan transkriptinin bölmələrindən məzun olması üçün lazım olan tədris planında müəyyənləşdirilmiş bloklar, məcburi və seçmə fənlər üzrə kreditləri müəyyən edə bilir.

### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

Ali təhsil pilləsinin bakalavriat və ya magistratura səviyyəsini bitirən məzunlara dövlət nümunəli təhsil sənədinin verilməsi və təhsil səviyyəsini bitirməyən şəxslərə isə ATM tərəfindən

oxuduğu fənlərə dair rəsmi transkriptin, Elm və Təhsil Nazirliyi tərəfindən tərtib edilən xüsusi rəsmi arayışın verilməsi qanunvericiliyin tələblərinə uyğun aparılır.

Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsi "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 1.23-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti müvafiq qərarına əsasən tənzimlənir (https://e-qanun.az/framework/28204).

### *3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

#### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

Xəzər Universitetində akademik heyətin işə qəbulu və peşəkar kadr seçimi mexanizmi mövcuddur. Belə ki, rektorun 2 aprel 2019-cu il tarixli, U/166 saylı əmrinə əsasən ATM-də işə qəbul üzrə komissiya yaradılmışdır. Komissiya işə qəbul ilə əlaqədar müraciətlərlə tanış olur, rəy və təkliflərini rektora təqdim edir.

Eyni zamanda, Xəzər Universitetinin "Professor-müəllim heyətinin işə qəbul qaydaları haqqında Əsasnamə"si mövcuddur. ATM-ə işə qəbul zamanı müəllimlərin qiymətləndirilməsi üçün meyarlar müəyyən edilmişdir. Sözügedən Əsasnamə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin sənədlərinə uyğun olaraq idarəetmə və akademik vəzifələrə yüksəlmə qaydalarını müəyyən edir.

Əsasnamə professor-müəllim heyətinin işə qəbulu ilə bağlı aşağıdakı tələbləri qoyur:

- Müvafiq sahə üzrə fəlsəfə doktoru və ya daha yüksək elmi dərəcənin olması;
- 3 il (minimum) pedaqoji təcrübə; professor vakansiyası üçün 5 il;
- İngilis dilində tədris olunan fənlər üçün mükəmməl danışıq, yazı və tədqiqat qabiliyyəti. Tədris dili fərqli olan fənlərdə ingilis dilində tədqiqatın aparılması üçün tələb olunan səviyyədə biliyə sahib olmaq;
- İKT və innovativ tədris metodlarından istifadə bacarığı;
- Tələbəyönümlü tədris aparmaq bacarığı;
- İxtisaslaşmış elmi tədqiqat aparmaq bacarığı.

Xəzər Universiteti fəaliyyətində Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsaslanır (https://www.e-qanun.az/framework/37434). ATM-in akademik heyətinin işə qəbulu barədə məlumatın ictimaiyyət üçün əlçatanlığı təmin olunur və vakansiyalar barədə məlumat ATM-in internet saytının elanlar bölməsində yerləşdirilmişdir (https://khazar.org/az/search/q=vakansiyalar).

#### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

Xəzər Universitetində akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlar müəyyən olunmuşdur. Texnoloji səriştələr müasir proqramlarda işləmək bacarığı, aktiv öyrənmə, tədqiqat işi bacarıqlarının formalaşması kimi imkanları akademik heyət üçün təmin edir. Pandemiya dövründə onlayn təhsildə tədrisin səmərəliliyi məqsədilə müxtəlif internet resurslarından istifadəyə geniş yer verilmişdir. (Microsoft Teams, Zoom).

2020-ci il 28 yanvar tarixində Xəzər Universitetinin rəhbərliyi tərəfindən ATM-in departamentləri "Ən yaxşı departament" və "Yaxşı departament", habelə tədqiqatçıları "Ən yaxşı tədqiqatçı" və "Yaxşı tədqiqatçı" kateqoriyaları üzrə diplom və pul mükafatları ilə təltif olunmuşdur.

Eyni zamanda, Xəzər Universitetinin professor-müəllim və işçi heyətinin ATM-lə uzunmüddətli əməkdaşlığını təmin etmək üçün onların performansının qiymətləndirilməsi məqsədilə differensiallaşdırılmış əməkhaqqı sistemi tətbiq olunur (https://khazar.org/az/news/4719).

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

2009-cu ildən etibarən Moodle onlayn platforması Xəzər Universitetində müəllim və tələbələrin istifadəsinə verilmişdir. Sözügedən platforma elektron kursların yaradılması, onlayn quizin keçirilməsi, zəruri informasiya resurslarının yerləşdirilməsi, mövzular ətrafında müzakirənin keçirilməsi kimi imkanları professor-müəllim heyəti üçün təmin edir. Başlanğıc mərhələdə müxtəlif ixtisaslar üzrə 30-dan çox e-kurslar yaradılmışdır.

Pandemiya dövründə akademik heyətin dərsləri Microsoft Teams, Zoom, Google platformaları üzərindən onlayn şəkildə (distant) təşkil olunmuşdur. Dərslər üzrə lazımi elektron materiallar tələbələr üçün Teams platformasında yerləşdirilmişdir. Pandemiya dövründən başlayaraq ATM-də mütəmadi olaraq interaktiv və aktiv tədris metodları və onlayn tədrisin təşkilinə dair təlimlər keçirilmişdir. Akademik heyət üçün tədris və təlim strategiyasının inkişafı ilə bağlı PETRA təlimi, "Creative Spark" və UniLab layihələri çərçivəsində təlimlər, "Təlim və tədris strategiyasının təkmilləşdirilməsi" mövzusunda vörkşoplar və digər təlimlər keçirilmişdir.

***Cədvəl 11. Seminarda iştirak etmiş akademik heyətin sayı***

| Göstərici | 2019-2020 | 2020-2021 | 2021-2022 |
|---|---|---|---|
| Texnoloji bacarıqların artırılması üçün təlim və seminarlarda iştirak etmiş akademik heyətin sayı | 29 | 38 | 60 |

Təlimlərdə iştirak edən akademik heyətin sayı 2019/20-ci tədris ilində 29 nəfər, 2020/21-ci tədris ilində 38 nəfər, 2021/22-ci tədris ilində 60 nəfər olmuşdur.

### 3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

ATM təlim-tədris prosesini müasir tələblərə uyğun təşkil etmək məqsədilə professor-müəllim heyətini mütəmadi olaraq ixtisasartırma və digər təlim kurslarında iştiraka cəlb edir.

İngilis dili və ədəbiyyat departamenti tərəfindən mütəmadi olaraq ingilis dili müəllimləri üçün TKT kursları təşkil edilir. Professor-müəllim və işçi heyətinin bilik və bacarıqlarında olan boşluqlar müəyyən edilir, müvafiq olaraq onların fəaliyyət göstəricilərinin yüksəldilməsi üçün təlimlər təşkil edilir.

***Cədvəl 12. İxtisasartırma kursları və təlimlərdə iştirak edən akademik heyətin sayı***

| Göstərici | Tədris ili | Say |
|---|---|---|
| İxtisasartırma kurslarında və təlimlərdə iştirak etmiş akademik heyət | 2019-2020 | 72 |
| | 2020-2021 | 110 |
| | 2021-2022 | 127 |

Sözügedən təlimlərdə iştirak edən akademik heyətin sayı 2019/20-ci tədris ilində 72 nəfər, 2020/21-ci tədris ilində 110 nəfər, 2021/22-ci tədris ilində isə 127 nəfər olmuşdur. Nəticə olaraq, qeyd olunmuş 3 il üzrə təlimlərə cəlb olunmuş akademik heyətin sayı ilə bağlı artım dinamikası müşahidə olunur.

***Cədvəl 13. Professor-müəllim və işçi heyətinin sayı***

| Göstəricilər | 2019- 2020 | 2020-2021 | 2021-2022 |
|---|---|---|---|
| İxtisasartırma kursları və təlimlərdə iştirak etmiş akademik heyətin sayı | 72 | 110 | 127 |
| Beynəlxalq peşəkar inkişaf və mübadilə proqramlarında iştirak etmiş akademik heyətin sayı | 33 | 40 | 48 |
| Tədqiqat bacarıqlarını inkişaf etdirmək üçün təlim və seminarlarda iştirak etmiş akademik heyətin sayı | 84 | 104 | 134 |
| Texnoloji bacarıqların artırılması üçün təlim və seminarlarda iştirak etmiş akademik heyətin sayı | 29 | 38 | 60 |
| Pedaqoji bacarıqların artırılması üçün təlim və seminarlarda iştirak etmiş akademik heyətin sayı | 73 | 85 | 113 |

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, Xəzər Universitetinin strateji hədəflərindən biri professor-müəllim və inzibati heyətin peşəkar inkişafına dəstək göstərməkdir.

***Cədvəl 14. Beynəlxalq peşəkar inkişaf proqramlarında iştirak etmiş akademik heyət***

| Göstəricilər | Tədris ili | Say |
|---|---|---|
| Beynəlxalq səviyyəli peşəkar inkişaf və mübadilə proqramlarında iştirak etmiş akademik heyətin sayı | 2019-2020 | 33 |
| | 2020-2021 | 40 |
| | 2021-2022 | 48 |

Sözügedən inkişaf proqramlarında iştirak etmiş akademik heyətin sayı 2019/20-ci tədris ilində 33 nəfər, 2020/21-ci tədris ilində 40 nəfər, 2021/22-ci tədris ilində isə 48 nəfər olmuşdur. Nəticə olaraq, qeyd olunmuş 3 il üzrə beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarına cəlb olunmuş akademik heyətin sayı ilə bağlı artım dinamikası müşahidə olunur.

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

ATM-də Keyfiyyətin təminatı mərkəzi tərəfindən hər semestrin sonunda tələbələr arasında akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi məqsədilə SİMS e-tədris platforması vasitəsilə sorğular təşkil olunur.

Sorğuların keçirilməsi mexanizminin tənzimlənməsi məqsədilə ATM tərəfindən 16 sentyabr 2021-ci il tarixində “Sorğuların təşkili proseduru” sənədi işlənib hazırlanmışdır. ATM-də sorğuların keçirilməsində əsas məqsəd tədris prosesinə tələbələrin gözü ilə baxılması və müvafiq qərarların qəbul edilməsidir.

Tələbələr arasında hər semestrin sonunda təşkil olunan “Fənn sorğusu” müəllimlərin fəaliyyətinin, o cümlədən akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi kimi məsələlərin həllində müəyyən qərarların qəbul edilməsinə imkan verir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, ATM-də mütəmadi olaraq akademik heyətin açıq dərsləri keçirilir. Hər bir kafedra üzrə açıq dərslərin qrafikləri tərtib olunur və kafedra iclaslarında müzakirəsi həyata keçirilir. Açıq dərslərin qiymətləndirmə meyarları ATM-də mövcud olsa da, müsahibələr zamanı açıq dərslərinin qiymətləndirilməsi prosesinin tam aydın olmadığı müəyyən edilmişdir. Belə ki, eyni kafedranın müəllimlərinin bir-birinin açıq dərslərində iştirak etməsi və qiymətləndirmədə iştirakı bu sahədə tam obyektivliyin olmaması fikrinin formalaşmasına əsas verir. Bununla əlaqədar olaraq, açıq dərslərin qiymətləndirməsi mexanizminin işlənib hazırlanması və bu sahədə təkmilləşdirmə işlərinin görülməsi tövsiyə olunur.

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

Xəzər Universitetində ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü, professor-müəllim heyətinin dərs yükünün təyin edilməsi (auditoriya və auditoriyadan kənar) və dərs saatlarının nisbəti normativ tələblərə uyğunlaşdırılmışdır. Belə ki, ştatda olan departament əməkdaşının həftəlik maksimal dərs yükü vəzifədən asılı olaraq 8-24 saat arasında dəyişir.

Departamentdə saathesabı qaydada fəaliyyətə cəlb olunmuş əməkdaşın dərs yükünün həftəlik 16-24 akademik saatdan çox olmadığı sahə səfəri zamanı müşahidə edilmişdir. Saathesabı qaydada cəlb olunmuş əməkdaşın dərs yükü onun təcrübəsi, elmi və pedaqoji fəaliyyət istiqamətinin tədrisi nəzərdə tutulmuş fənlərə uyğunluğu, hər tədris ilinin sonunda tələbələr arasında müəllimlərlə bağlı keçirilən anonim sorğuda müəllimin müxtəlif parametrlər üzrə qiymətləndirmə nəticələri və əməkdaşın öncəki tədris ilində imtahan nəticələrinin ətraflı təhlilindən əldə olunan nəticələr nəzərə alınmaqla müəyyən olunur.

Lakin sənədlərə baxış zamanı (2022/23-cü tədris ili üçün dərs yükü) auditoriyadaxili və auditoriyadankənar saatların qeydiyyatının tam şəkildə qaydalara uyğun aparılmadığı müşahidə edilmiş və bu sənədin SIMS e-tədris sistemində yerləşdirildiyi qeyd olunmuşdur.

Nəticə olaraq, Xəzər Universitetində dərs yüklərinin bölgüsünün AR NK 2010-cu il 24 noyabr tarixli, 215 nömrəli "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında Qərar"ın tələblərinə uyğun olaraq həyata keçirilməsi tövsiyə olunur.

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

Xəzər Universitetinin bütün fakültələrində 2022/23-cü tədris ilinin II-ci yarımili üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyətinin təhlili aşağıdakı cədvəldə təqdim olunur.

***Cədvəl 15. Professor-müəllim heyətinin tələbə sayına nisbəti***

| Fakültə | Professor-müəllim heyətinin sayı | Tələbə sayı | Nisbət |
|---|---|---|---|
| Təbiət elmləri və mühəndislik fakültəsi | 103 | 966 | 1/9 |
| İqtisadiyyat və menecment fakültəsi | 66 | 439 | 1/7 |
| Humanitar, təhsil və sosial elmlər fakültəsi | 168 | 1547 | 1/9 |
| Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsi | 44 | 252 | 1/6 |
| İqtisadiyyat və biznes yüksək təhsil fakültəsi | 34 | 293 | 1/9 |
| Cəmi | 415 | 3497 | 1/12 |

Cədvəldən də göründüyü kimi, Təbiət və mühəndislik fakültəsi üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti 1/9, İqtisadiyyat və menecment fakültəsi üzrə sözügedən nisbət 1/7, Humanitar, təhsil və sosial elmlər fakültəsi üzrə nisbət 1/9, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsi üzrə nisbət 1/6, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsi üzrə nisbət isə 1/9 olmuşdur.

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

Xəzər Universitetində tədris prosesində iştirak edən professor-müəllim heyətinin sayı 317 nəfər (ştat, yarımştat və saathesabı olmaqla) təşkil edir. Ştatda olan professor-müəllim heyətinin sayı haqqında məlumat Özünütəhlil Hesabatında göstərilməsə də, ATM-ə sahə səfəri çərçivəsində sözügedən sahə üzrə məsul şəxslə müsahibə zamanı ştatda olan müəllimlərin sayının cəmi 72 nəfər olduğu müəyyənləşdirilmişdir. Yuxarıda qeyd olunanları nəzərə alaraq, Xəzər Universitetində tədris prosesində iştirak edən professor-müəllim heyətinin cəmi 22.7% (faizinin) əsas iş yerinin müvafiq ATM olduğu məlum olmuşdur. Bu səbəbdən, əsas iş yeri Xəzər Universiteti olan professor-müəllim heyətinin sayının artırılması tövsiyə olunur.

Hal-hazırda ATM üzrə saathesabı yolu ilə işləyən müəllimlərin sayının çoxluğu müşahidə olunur. Bu isə öz növbəsində Xəzər Universitetində sabit kadr potensialının və dayanıqlı professor-müəllim heyətinin sayının aşağı olmasının göstəricisidir.

Xüsusilə qeyd etmək lazımdır ki, öncəki akkreditasiya qiymətləndirilməsi zamanı da akademik heyətin gücləndirilməsi, ştatda olan professor-müəllim heyətinin sayının artırılması və sabit kadr potensialının təmin olunması Akkreditasiya Komissiyası tərəfindən Xəzər Universitetinə tövsiyə olunmuşdur.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70%-dən çoxunun əsas iş yerinin müvafiq ATM olması istiqamətində Xəzər Universiteti tərəfindən optimallaşdırma işlərinin aparılması tövsiyə olunur.

***Cədvəl 16. Akademik heyətin illər üzrə sayı***

| İllər | Akademik heyətin sayı (tədris ili üzrə) | Elmi dərəcəli akademik heyətin sayı |
|---|---|---|
| **2018** | 211 | 93 |
| **2019** | 210 | 102 |
| **2020** | 240 | 88 |
| **2021** | 251 | 85 |
| **2022** | 317 | 86 |

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

Özünütəhlil Hesabatında əsasən 2022/2023-cü tədris ili üzrə ATM-də tədris prosesində 317 nəfər professor-müəllim heyəti (ştat, yarımştat və saathesabı) iştirak edir. Hesabatda qeyd olunur ki, son beş ildə təhsilalanların sayının iki dəfə artması ilə bərabər ATM-də ştat vahidində işləyən professor-müəllim heyətininin sayı da artmışdır.  Lakin ATM-ə sahə səfəri çərçivəsində aparılan müsahibələr və təhlillərin nəticəsində məlum olmuşdur ki, ştatda olan professor-müəllim heyətinin sayı cəmi 72 nəfər, saathesabı qaydada tədrisə cəlb olunanların sayı isə 245 nəfərdir. Beləliklə, professor-müəllim heyətinin 77.28% (faizi) saathesabı qaydada kənardan (sənayedən, dövlət qurumlarından və s.) dəvət olunan əməkdaşlardır. Bu isə ATM-də stabil və dayanıqlı professor-müəllim heyətinin sayında problemlərin olduğunu və müvafiq sahədə optimallaşmanın aparılmasına ehtiyacın olduğunu göstərir.

Təhlillər göstərir ki, 2019-cu ildə tədris prosesinə cəlb edilmiş əcnəbi akademik heyətin ümumi akademik heyətdə payı 12,3% (hesabat dövrü üzrə ən yüksək göstərici), 2018-ci ildə isə 8,5% (hesabat dövrü üzrə ən aşağı göstərici) olmuşdur.

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

Xəzər Universitetində professor-müəllim heyətinin elmi və pedaqoji fəaliyyətinin qiymətləndirilməsi məqsədilə 2018-ci ildə “Differensial əməkhaqqı mexanizmi” sənədi işlənmiş və rektor tərəfindən təsdiqlənmişdir. ATM-də işçilərin differensiallaşdırılmış əməkhaqqı sisteminə uyğun olaraq yeni işçinin qəbulu zamanı ştat cədvəlində nəzərdə tutulmuş əmək haqqının minimum həddi müəyyənləşdirilir.

Xəzər Universitetində işçilərin motivasiyası və mükafatlandırılması müxtəlif şəkildə həyata keçirilir. Belə ki, fəaliyyəti dövründə göstərdiyi performansa, habelə digər nailiyyətlərinə

(məsələn, nüfuzlu jurnallarda məqalə dərc edilməsi) müvafiq olaraq işçinin əməkhaqqında dəyişiklik edilir. Əməkhaqqı sistemində ədalətliliyin təmin edilməsi üçün dəyişikliklər rektorluqda müzakirə edilir, bütün meyarlar nəzərə alınır və yekun qərar qəbul edilir. 2018-ci ildə "Differensial əməkhaqqı mexanizmi" sənədi təsdiq edildikdən sonra hər tədris ilinin sonunda differensiallaşdırılmış əməkhaqqı sistemi tətbiq edilməklə akademik heyət arasında nailiyyətləri ilə fərqlənmiş professor-müəllim heyətinin əməkhaqları artırılmışdır.

Differensial əməkhaqqı mexanizmi ATM-də akademik heyətin aşağıdakı qiymətləndirmə meyarları nəzərə alınmaqla tətbiq olunur:

- Tədris fəaliyyəti;
- Elmi və yaradıcı fəaliyyət;
- İctimai və təşkilati işlər.

Özünütəhlil Hesabatında qeyd olunur ki, 2021/22-ci tədris ili üzrə differensial əməkhaqqı mexanizminə cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə payı 39% təşkil etmişdir.

### 3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və/və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

Xəzər Universitetində professor-müəllim heyətinin təxminən 28%-i (90-dan çox) xarici ölkələrdə təhsil almış və dünyanın müxtəlif ATM-lərində təcrübə keçmiş ingilisdilli mütəxəssislərdir.

Hər semestr 10 - 20 əcnəbi müəllim semestr müddətində ATM-də tədris prosesində iştirak edir. 2018-ci ildə əcnəbi professor-müəllim heyətinin sayı 18 nəfər (ümumi akademik heyətin 8.5%-i), 2019-cu ildə 26 nəfər (ümumi akademik heyətin 12.3%-i), 2020-ci ildə 22 nəfər (ümumi akademik heyətin 9.1%-i), 2021-ci ildə 27 nəfər (ümumi akademik heyətin 10.7%-i), 2022-ci ildə 30 nəfər (ümumi akademik heyətin 9.4%-i) olmuşdur. Bununla yanaşı, qısamüddətli dövr üçün fənn tədris etmək və məruzələrlə çıxış etmək üçün mütəmadi olaraq Fulbright, Erasmus+ mübadilə proqramları çərçivəsində xarici ölkələrdən professor-müəllim heyəti dəvət olunur.

Növbəti illərdə kadr potensialının artırılması məqsədilə ATM 2019-2023-cü illər üçün "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində prioritet sahələr üzrə xaricdə təhsilə dəstək verərək 37 doktorant ilə üçtərəfli müqavilə imzalamışdır. Müqaviləyə əsasən tələbələr məzun olduqdan sonra 5 il müddətində Xəzər Universitetində fəaliyyət göstərəcəklər.

***Cədvəl 17. Əcnəbi akademik heyətin ümumi akademik heyətdə payı***

| İllər | Akademik heyətin sayı (tədris ili üzrə) | Əcnəbi professor-müəllim heyətinin sayı | Əcnəbi akademik heyətin ümumi akademik heyətdə payı (%) |
|---|---|---|---|
| **2018** | 211 | 18 | 8.5 |
| **2019** | 210 | 26 | 12.3 |
| **2020** | 240 | 22 | 9.1 |
| **2021** | 251 | 27 | 10.7 |

| | | | |
|---|---|---|---|
| **2022** | 317 | 30 | 9.4 |

### *3.8 Tələbəyönümlü tədris*

### 3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

Xəzər Universitetində təhsilalanlar SİMS e-tədris platformasında şəxsi kabinetlərinə daxil olaraq hər tədris ili və semestr üzrə götürəcəyi fənləri və kreditləri müəyyənləşdirirlər. Hər semestr dərslərin başlamasından öncəki həftə tələbə şəxsi kodu və şifrəsi ilə sistemə daxil olaraq, ixtisası və tədris semestri üzrə açılmış fənlərin kodu, adı, qruplar, ön şərtlər, kredit, hansı bloka aid olması, məcburi və ya seçmə fənni, fənn müəlliminin adını və bloklar üzrə kreditlər kimi məlumatlarla tanış ola bilir. Fənnin/qrupun seçildiyi zaman fənnin/qrupun cədvəli tələbənin sistemdə yerləşdirilmiş səhifəsində öz əksini tapır.

2021-ci ildə ATM-də aparılmış sorğu əsasında “**tələbələr fərdi tədris planının doldurulmasında özü şəxsən iştirak edir”** sualına:

- 30% “tamamilə razıyam”;
- 36% “razıyam”;
- 8% “qismən razıyam”;
- 8% “razı deyiləm”;
- 18% “tələbənin fərdi tədris planının nə oldugunu bilmirəm” cavabı vermişlər.

### 3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

Xəzər Universitetində təhsilalanın fərdi tədris planının tərtib edilməsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” qismən nəzərə alınır. Təhsilalanlar SIMS platforması vasitəsilə şəxsi kabinetlərində hər tədris ili üzrə götürüləcək fənləri və kreditləri qismən müəyyənləşdirirlər. Seçmə fənlərin tələbələr tərəfindən qismən yox, tam şəkildə müəyyənləşdirilməsinə şəraitin yaradılması tövsiyə olunur.

2021-ci ildə ATM-də keçirilmiş sorğu zamanı **“tədris planında qeyd olunan seçmə fənlər təhsilalanların iştirakı ilə təyin olunur”** sualına:

- 23% “tamamilə razıyam”;
- 35% “razıyam”;
- 17% “qismən razıyam”;
- 10% “razı deyiləm”;
- 14% “məlumatım yoxdur” cavabını vermişdirlər.

### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçim sərbəstliyinin təmin edilməsi

“Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 1.3.3-cü yarımbəndində təhsil prosesinə akademik məsləhətçilərin (tyutorların) cəlb olunması qeyd olunur.

Xəzər Universitetinə sahə səfəri çərçivəsində təşkil olunmuş müsahibələr zamanı ATM-də tyutor (akademik məsləhətçi) xidmətinin səlahiyyətlərinin dekan müavinləri və assistentlər tərəfindən həyata keçirildiyi məlum olmuşdur.

Qeyd etmək lazımdır ki, öncəki akkreditasiya qiymətləndirilməsi zamanı da Akkreditasiya Komissiyası tərəfindən “Xəzər Universitetinin tyutor xidmətinin təkmilləşdirilməsi” ilə bağlı tövsiyənin verilməsinə baxmayaraq Xəzər Universitetində hələ də tyutor xidməti formalaşdırılmamışdır. Təhsilverənlər və akademik məsləhətçilərin (tyutorlar) təhsilalanlar tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçim sərbəstliyinin təmin edilməsi ATM-də SIMS e-tədris sistemi vasitəsilə həyata keçirilir.

### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

Son 5 ildə Xəzər Universitetində tələbələr, professor-müəllim heyəti və inzibati heyət, məzunlar və işəgötürənlər arasında 30-a qədər sorğu təşkil olunmuşdur. 16 sentyabr 2021-ci il tarixli “Sorguların təşkili proseduru” sənədi tələbələr tərəfindən təhsil prosesinin təşkilinin qiymətləndirilməsi və qiymətləndirmə qaydalarını müəyyən edir.

Xəzər Universitetində keçirilən sorğuların bir qismi (ümumi fəaliyyətin qiymətləndirilməsi barədə) Survey Monkey sorğu proqramı, digər hissəsi isə (fənlər üzrə məmnunluq barədə) SIMS platforması vasitəsilə keçirilmişdir.

Keçirilən sorğuların nəticələri Keyfiyyətin Təminatı Mərkəzi səviyyəsində müzakirə olunur və müvafiq tədbirlər görülür.

Hesabat dövrü üzrə ATM-də təşkil olunmuş sorğularda tələbələrin iştirak səviyyəsi barədə ətraflı məlumat aşağıda təqdim olunur.




***Qrafik 24. Sorğularda iştirak edən tələbələrin sayı***

### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

ATM tərəfindən tələbələr arasında təşkil olunmuş sorğuların nəticələrinin Akkreditasiya

Komissiyası tərəfindən təhlili zamanı dərs cədvəlində ardıcıllığın pozulması, dərslər arasında zaman fərqinin çox olması kimi çatışmazlıqlar müəyyən olunmuşdur. Sözügedən çatışmazlıqlar hələ də cədvəldə özünü göstərməkdədir və bu sahədə təkmilləşdirmə işlərinin aparılmasına ehtiyac duyulur.

Məzunlar arasında keçirilmiş karyera xidmətlərindən məmnunluq sorğularının nəticələrinin təhlili nəticəsində isə məzunların işlə təmin olunması, məzunlarla daimi və daha sıx əməkdaşlığın qurulması kimi təkliflərin mövcudluğu müəyyənləşdirilmişdir. Qeyd olunan təkliflərin həyata keçirilməsi məqsədilə məzunların karyera yarmarkasında iştirakı, uğur qazanmış məzunların ATM-ə dəvət olunması və təcrübələrini bölüşməsi üçün şərait yaradılması istiqamətində addımlar atılmışdır.

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

ATM-də SIMS e-tədris sistemi və müxtəlif sorğu platformaları vasitəsilə keçirilmiş sorğuların nəticələrinin təhlili əsasında əldə olunmuş məlumatlar, təklif və rəylər sistemli şəkildə departament, dekanlıq və Keyfiyyət Təminatı Mərkəzi səviyyəsində müzakirə olunur. Müvafiq tədbirlərin görülməsi və qərarların qəbul edilməsi üçün sözügedən məsələlər 2021/22-ci tədris ilinə qədər rektorluqda universitet rəhbərliyinin (rektor, prorektorlar, dekanlar, Keyfiyyət Təminatı Mərkəzinin rəhbəri və İnkişaf Mərkəzinin rəhbəri), 2021-ci ildən sonra isə Keyfiyyət Təminatı Komitəsinin iclaslarında müzakirə olunmuş, tədbirlərin həyata keçirilməsinin monitorinqi isə Keyfiyyət Təminatı Mərkəzi tərəfindən aparılmışdır.

Nəticə olaraq, sorğu nəticələri əsasında qərarlar qəbul edilsə də, qərarların həllinə nəzarət mexanizminin işlənməsi sahəsində optimallaşdırma işlərinin aparılmasına ehtiyac duyulur.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

ATM-də təhsilalanların irad, rəy və təklifləri üçün müxtəlif mexanizmlər mövcuddur. Tələbələrin irad, rəy və təklifləri aşağıda qeyd olunan qaydada ünvanlanır:

- İxtisas departamentində akademik məsləhətçilərə və dekanlıqda ixtisas üzrə təyin edilmiş koordinatora müraciət etməklə;
- ATM-in müxtəlif strukturlarında (girişdə, dekanlıqlarda və s.) yerləşdirilmiş “Təklif və rəy qutu”sundan istifadə etməklə;
- E-platforma vasitəsilə müraciət: SIMS e-tədris platforması, MS Teams və Outlook-dan istifadə etməklə;
- ATM üzrə təyin olunmuş “Universitet Ombudsmanı”na müraciət etməklə;
- “Tələbə Məclisi” vasitəsilə irad, rəy və təkliflərin bildirilməsi;
- Yazılı ərizə və ya elektron məktublarla dekan, prorektor, rektor və Direktorlar və Qəyyumlar Şurasının sədrinə müraciət etməklə.

### 3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

“Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”n 1.3.3. bəndində təhsil prosesinə tyutor akademik məsləhətçilərin (tyutorların) cəlb olunması qeyd olunur. Xəzər Universitetində tyutor (akademik məsləhətçilərin) xidmətinin səlahiyyətlərini dekan müavini və assistentlər həyata keçrir. Təhsil müəssisəsinin öncəki akkreditasiyanın 19 bəndində „Xəzər Universitetinin tyutor xidmətinin təkmilləşdirilməsi” tövsiyyə olunmasına baxmayaraq bu xidmət hələ də formalaşdırılmamışdır.Təhsilalanlar SİMS e-tədris sistemi vasitəsilə təlimatlandırılırlar.

### 3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

Xəzər Universitetində yaradılmış dəstəkləyiçi təlim-tədris mühitində tələbələr sual, irad və təkliflərlə ATM-in əlaqədar şöbələrinə həftə içi hər gün saat 09:00-18:00 arasında üz-üzə, o cümlədən 24 saat ərzində elektron poçt ünvanı vasitəsilə müraciət edə bilərlər. ATM-də təşkil olunan ilk məlumatlandırma görüşündə tələbələrə *khazar.org* domenli korporativ elektron poçt ünvanları, SIMS e-tədris platformasında istifadəçi adı və şifrəsi təqdim edilir.

SIMS e-tədris platforması vasitəsilə tələbələrin birbaşa dekanlığa müraciət etməsi mümkündür. Tələbə arayış, rəsmi transkript, tövsiyə (referans) məktubu və s. kimi məsələlər ilə bağlı müraciət etdiyi halda, müvafiq sənəd hazırlanaraq tələbənin elektron poçt ünvanına göndərilir və ya sənəd dekanlıqdan təhvil alınır. Həmçinin, dərs və ya qrup dəyişikliyi barədə müraciətlər, o cümlədən apellyasiya müraciətləri SIMS e-platforması vasitəsilə icra olunur.

### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

Xəzər Universitetində 23 iyun 2015-ci il tarixindən Avropa İttifaqının “Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyası” (ESFIDIP) layihəsi çərçivəsində Əlilliyi olan tələbələr üçün Mərkəz (https://khazar.org/az/item/786) fəaliyyətə başlamışdır. Sağlamlıq imkanları məhdud tələbələr üçün dəsrlərin planlaşdırılması (dərs otaqları, dərslərin və imtahanların keçirilmə üsulları) uyğun dekanlıqlarla birgə həyata keçirilir. Tədris prosesi interaktiv (təqdimatlar) şəkildə həyata keçirildiyi üçün sağlamlıq imkanları məhdud şəxslər üçün təhsil əlverişli formada təmin olunur.

Hal-hazırda ATM-də (Humanitar, təhsil və sosial elmlər fakültəsi) görmə məhdudiyyətli 3 tələbə təhsil alır. Tədris materiallarının brayl əlifbasına çevrilməsinə Mərkəz dəstək göstərir. Sözügedən tələbələr üçün ATM-də fərdi dərslər təşkil olunur, tədris prosesi zamanı əlavə fərdi dərs və məsləhət saatları təyin edilir. Fənnin xüsusiyyətindən asılı olaraq imtahanların formatı şifahi şəkildə təşkil olunur və ehtiyac yarandıqda imtahan müddətində dəyişiklik edilir.

### 3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 aprel 2020-ci il tarixli “Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə Qanun”a uyğun olaraq Xəzər Universitetində sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı təmin olunur. Xəzər Universitetinin 297 tələbəsi sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələr üçün yaradılan imkanlardan yararlanmışdırlar.

***Cədvəl 18. Sosial həssas qrupa aid tələbələrin sayı***

| Tədris ili | Sosial həssas qrupa aid tələbələrin sayı |
|---|---|
| 2019/20-ci tədris ilinin 2-ci semestri | 100 |
| 2020/21-ci tədris ilinin 1-ci semestri | 104 |
| 2020/21-ci tədris ilinin 2 ci semestri | 93 |

2018/19, 2019/20, 2020/21, 2021/22 və 2022/23-cü tədris illəri üzrə sosial həssas qrupa aid tələbələrin sayı aşağıdakı qrafikdə qeyd olunmuş, müvafiq olaraq Xəzər Universitetində sözügedən istiqamətdə dinamikanın artdığı müşahidə edilmişdir.




***Qrafik 25. Sosial həssas qrupa aid tələbələrin sayı***

### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 fevral 2016-cı il tarixli, 38 nömrəli qərarı ilə təsdiq edilmiş “Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin

təyin olunması və ödənilməsi Qaydası" ilə yanaşı, Xəzər Universitetinin daxili qərarları hesabına da tələbələr təqaüdlə təmin edir.

ATM-ə qəbul imtahanı nəticəsində toplanmış bal, bir ailədən 2 nəfərin təhsil alması, Xəzər Universitetinin Dünya məktəbinin məzunu olması, tələbə ikən valideynlərindən birinin itirilməsi, valideynin Xəzər Universitetində işləməsi və s. hallar nəzərə alınmaqla təhsilalanlar üçün əlavə təqaüd imkanları yaradılmışdır.

Xəzər Universitetində tələbələrə yaradılan təqaüd imkanları və imtiyazlar kateqoriyalar üzrə aşağıdakı cədvəldə daha ətraflı təsvir olunmuşdur.

***Cədvəl 19. Təqaüd imkanları və imtiyazlardan yararlanan tələbə sayı***

| Göstəricilər | 2017/18 | 2018/19 | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 |
|---|---|---|---|---|---|---|
| ATM-ə qəbul imtahanı nəticəsində toplanmış bala görə | 43 | 90 | 181 | 274 | 309 | 362 |
| Bir ailədən 2 nəfərin təhsil almasına görə | 31 | 38 | 42 | 44 | 15 | 17 |
| Xəzər Universitetinin Dünya məktəbinin məzunu olmasına görə | 6 | 6 | 6 | 6 | 1 | ? |
| Tələbə ikən valideynlərindən birinin itirilməsinə görə | 3 | 9 | 10 | 12 | 13 | 11 |
| Xəzərin məzunu | 16 | 17 | 17 | 21 | 11 | 16 |
| Valideynin Xəzər Universitetində işləməsinə görə | 6 | 7 | 7 | 8 | 1 | 2 |
| Olimpiadanın qalibi olmasına görə | 1 | 1 | 1 | 2 | 2 | 1 |
| Nailəxanım təqaüdü | - | - | - | - | 1 | 3 |
| Erasmus proqramları | 6 | 6 | 6 | 6 | 6 | 1 |
| **CƏMİ** | **112** | **174** | **270** | **373** | **359** | **413** |

***Cədvəl 20. Akademik nailiyyətinə görə xarici tələbələrə yaradılan təqaüd imkanı***

| Tədris ili | 25% | 50% | 75% | 100% |
|---|---|---|---|---|
| 2017/2018 | 2 | 19 | 26 | 30 |
| 2018/2019 | 8 | 24 | 40 | 36 |
| 2019/2020 | 9 | 28 | 50 | 38 |
| 2020/2021 | 11 | 34 | 66 | 38 |
| 2021/2022 | 11 | 34 | 45 | 17 |
| 2022/2023 | 21 | 36 | 27 | 8 |
| **Cəmi:** | **62** | **175** | **254** | **167** |



| | 2017-2018 | 2018-2019 | 2019-2020 | 2020-2021 | 2021-2022 |
|---|---|---|---|---|---|
| Nəfər | 954 | 1435 | 1523 | 2920 | 2742 |

***Qrafik 26. Təqaüd alan yerli tələbələrin illər üzrə inkişaf dinamikası***

## *3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

Xəzər Universitetində təhsil proqramlarının monitorinqi əsas istinad sənədi olan “Tədris planlarının monitorinq strategiyası” vasitəsilə aparılır. Sözügedən strategiya Xəzər Universitetinin inkişaf strategiyası və fəaliyyət planına uyğun olaraq həyata keçirilir. Həmçinin, ATM-də təhsil proqramları üzrə özünütəhlil aparılır.

ATM-də təhsil proqramlarının monitorinq strategiyası və fəaliyyət planları aşağıdakıları əhatə edir:

- Tədris planlarının təqvim planına uyğun olaraq yerinə yetirilməsi;
- Tədris prosesinin gedişatına nəzarət;
- Fənn sillabuslarının fənn proqramlarına uyğunluğu;
- Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi prosesinin monitorinqi;
- Öyrənmə nəticələrinin tədris planında nəzərdə tutulanlara uyğunluğu;
- Təcrübələrin tədris planlarına uyğun keçirilməsi;
- Təcrübənin nəticələrinin tədris planında nəzərdə tutulanlara uyğunluğu;
- Magistr dissertasiyalarının məzmun və keyfiyyətinin monitorinqi;
- Tələbələr arasında sorğuların keçirilməsi.

İndikatora uyğun olaraq tədris planları ilə yanaşı təhsil proqramlarının monitorinqi strategiyasının təkmilləşdirilməsi tövsiyə olunur.

### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

Xəzər Universitetində təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət müxtəlif istiqamətlərdə aparılır:

- fənn sillabuslarının keyfiyyətinə nəzarət;
- mühazirələrin məzmun və keyfiyyətinə nəzarət;
- aralıq və yekun imtahan tapşırıqlarının məzmununa nəzarət;
- fərdi tapşırıqların yerinə yetirilməsinin keyfiyyətinə nəzarət.

Təhsil proqramlarının icrası nəticəsində əldə ediləcək təlim nəticələri və onların matriksi ixtisasın təlim nəticələri ilə uyğunlaşdırılaraq sillabuslarda öz əksini tapır. Müvafiq sillabuslar departament rəhbərləri tərəfindən təsdiq edildikdən sonra Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən yoxlanılır və ATM-in rəsmi internet saytında hər departamentin səhifəsində yerləşdirilir.

Təhsil proqramları üzrə yer alan fənlərin təlim nəticələrinin ATM-də keçilən fənlərə tam uyğunlaşdırılması üçün təkmilləşdirilmənin aparılması tövsiyə olunur.

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

Xəzər Universitetində SIMS e-tədris platforması vasitəsilə ayrı-ayrı fənlərin mənimsəmə göstəriciləri əldə edilərək təhsil proqramlarının həyata keçirilməsinin effektivliyi qiymətləndirilir və ehtiyac olduğu hallarda müvafiq düzəliş və əlavələr edilir. Xüsusilə təhsil proqramlarının monitorinqi zamanı onların daxili keyfiyyət təminatı sisteminə töhfəsini təmin etmək üçün seçmə fənlərin proqrama daxil edilməsi zamanı ATM - iş dünyası konteksində müzakirələrin aparılması və əmək bazarının tələblərinin öyrənilməsi müsbət addım kimi qiymətləndirilir.

Monitorinq nəticəsində tədris proqramlarının tədris qrafiklərinə uyğun yerinə yetirilməsinin təmin olunması, sillabusların ətraflı təhlili və ehtiyac olduqda yenidən işlənilməsi, imtahan tapşırıqlarının hərtərəfli məzmun, əhatə dairəsi və mürəkkəblik baxımından təhlili və nəzarət altında saxlanılması, fənn üzrə əldə edilmiş nəticələrin müvafiq fənnin növbəti semestrlərdə tədrisin təkmilləşdirilməsi məqsədilə istifadəsi Özünütəhlil Hesabatında qeyd olunsa da, təhsil proqramlarının ATM-də tədris prosesinə uyğunlaşdırılmasında bir sıra problemlər (3.2.6, 3.2.7, 3.2.8, 3.3.1, 3.3.4, 3.3.7 saylı indikatorlarda qeyd olunan) Akkreditasiya Komissiyasının Xəzər Universitetinə sahə səfəri çərçivəsində müşahidə edilmişdir. Qeyd olunan Təhsil proqramı - Tədris planı uyğunsuzluğu mövcud problemin davam etməsində aparıcı amildir. Xəzər Universitetinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin 12-ci bəndində də müvafiq problemə toxunulmuşdur.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

ATM-də təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması departamentlərin illik fəaliyyətinə uyğun olaraq, tədris semestrin əvvəlində maraqlı tərəflərin iştirakı ilə həyata keçirilir.

Hesabatın strukturu aşağıdakıları əhatə edir:

- Təhsil proqramı üzrə təhsilalanların qəbulu;
- Təhsil proqramı üzrə əvvəlki kvalifikasiyaların tanınması;
- Təhsil proqramı üzrə tədrisin təşkili;
- Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları.

Təhsil proqramlarının özünütəhlil hesabatının formatına uyğun olaraq SWOT analizi aparılır, xüsusilə, ixtisaslarla bağlı zəif cəhətlər təyin edilərək növbəti fəaliyyət planında mövcud çatışmazlıqların aradan qaldırılması üçün tədbirlər nəzərdə tutulur.

Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının bütün təhsil pillələri və ixtisasları üzrə aparılması tövsiyə olunur.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

Xəzər Universitetinin Strateji Planına (2018-2023) uyğun olaraq təlim-tədris prosesinin davamlı inkişafını təmin etmək və universitet-sənaye münasibətlərini ATM-in tədqiqat, innovasiya və sahibkarlıq imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək məqsədilə kadr hazırlığı həyata keçirilən təhsil proqramlarının əmək bazarı və cəmiyyətin tələblərinə uyğunluğu təmin edilir. Bu məqsədlə mütamadi olaraq əmək bazarını təmsil edən şirkət və müssisələrlə əlaqə saxlanılır, görüşlər keçirilir və müzakirələr aparılır, məzunların işlə təmin olunmasına dair sorğular təşkil olunur. Xüsusilə əksər ixtisasların tədrisinin ingilis dilində aparılması, müvafiq fənn saatlarının artırılması yolu ilə təhsilalanlar arasında ingilis dilini mənimsəmə prosesinin təkmilləşdirilməsi ATM-in beynəlxalq iş dünyası ilə əməkdaşlığı üçün körpü rolunu oynayır.

Qeyd etmək lazımdır ki, Xəzər Universitetində Məsləhət Şurası yaradılmışdır ki, onun da əsas vəzifəsi tədris və tədqiqat proqramlarının yüksək akademik və elmi standartlara cavab verməsini təmin etməkdir.

Lakin, sahə səfəri zamanı müvafiq istiqamət üzrə sənədlər və Məsləhət Şurasının protokollarına baxış zamanı məlumatların yetərsiz olduğu, prosesin bütün təhsil proqramları üzrə vahid mexanizm vasitəsilə əhatə edilməsində təkmilləşdirməyə ehtiyac olduğu müşahidə edilmişdir.

## *3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

Xəzər Universitetinə Akkreditasiya Komissiyasının sahə səfəri çərçivəsində Karyera Mərkəzinin mövcudluq vəziyyətinin qiymətləndirilməsi məqsədilə müvafiq strukturla görüş keçirilmiş və strukturun təşkili barədə məlumatlar əldə edilmişdir. Belə ki, ATM-in Karyera Mərkəzi 1 noyabr 1999-cu ildə ABŞ-ın Avrasiya Fondu tərəfindən maliyyələşdirilən “Xəzər Universitetində 1999-2001-ci illərdə Karyera Mərkəzinin İnkişafı Layihəsi” çərçivəsində yaradılmışdır. Böyük Britaniyanın Nottingham Trent Universitetinin karyera ekspertləri yeni yaradılmış Mərkəzin əməkdaşlarına təlimlər keçərək və dərs vəsaitləri hədiyyə edərək daimi dəstək göstərmişdirlər.

Müvafiq Mərkəz ATM-in tələbələrinə karyera seçimlərini araşdırmaq və karyera inkişafı ilə bağlı materiallara, o cümlədən, onlayn resurslara və müxtəlif alternativ xidmətlərə çıxış təmin etməklə bakalavr və magistratura təhsilindən karyeraya keçiddə köməklik göstərir. Mərkəz ATM-in internet saytı (https://khazar.org/az/item/510) vasitəsilə müvafiq karyera imkanları və potensial namizədlər haqqında tələbələrə və işəgötürənlərə məlumat verməkdədir.

Mərkəz həm yerli, həm də Avropa Birliyinin dəstəyi ilə müxtəlif təlimlərdə Xəzər Universitetini təmsil etmişdir. 17 dekabr 2022-ci il tarixində Xəzər Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) təşkilatçılığı ilə Erasmus+ UniLab layihəsi

çərçivəsində ADNSU-da UniLab Milli Konfransı keçirilmişdir. Konfransda "Tələbələrin və işəgötürənlərin vakansiyalara və təcrübə proqramlarına müraciət edərkən qarşılaşdıqları problemlər və onların həlli istiqamətində atılan addımlar" və "Gənclərin iş həyatında yeri və rolu: sənaye və universitet əməkdaşlığı" mövzularında panel müzakirələri aparılmışdır.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

Xəzər Universitetində tələbə və məzunlara karyera məsləhət xidmətinin göstərilməsi Karyera Mərkəzi tərəfindən həyata keçirilir.

Karyera Mərkəzinin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Karyera Konsultasiyası;
- Təhsil konsultasiyası;
- Müsahibə bacarıqları;
- Korporativ tədbirlər;
- CV konsultasiyası;
- Peşəkar inkişaf təlimləri seriyası;
- Karyera sərgisi;
- Tələbələrin və məzunların işlə təmin olunması;
- İstehsalat təcrübəsinə yerləşdirmə və s.

ATM-də tələbələr məzun olduqdan sonrakı 1 il ərzində Karyera Mərkəzinə müraciət edərək bilik və bacarıqlarına uyğun vakansiyalarla maraqlana bilərlər. Xəzər Universitetinin məzunlara dəstəyi 2017-2022-ci tədris illəri ərzində (pandemiya müşahidə edilən 2020/2021 və 2021/2022-ci tədris illəri istisna olmaqla) 59-75% olmuşdur.




***Qrafik 27. Karyera Mərkəzinin dəstəyini alan məzunlar (%-lə)***

*(Qeyd: 2020 və 2021-ci illərdə pandemiya səbəbindən aktiv şəkildə dəstək göstərilməmişdir)*

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Karyera Mərkəzi Xəzər Universitetinin məzunlarının müvafiq dövlət və ya özəl şirkət və qurumlarda əmək bazarındakı iştirakını, ixtisasına uyğun sahədə işlə təmin olunmasını dəstəkləyir və nəzarət altında saxlayır. Hər il məzunlar arasında keçirilən sorğu vasitəsilə onların iş fəaliyyəti ilə bağlı və təmsil etdikləri qurum və şirkətlər barədə məlumat sistemli şəkildə qeydə alınır. Karyera Mərkəzinə sahə səfəri zamanı müvafiq qeydiyyatın aparılması ilə bağlı baza ilə yerində tanış olunmuşdur.

Həmçinin, ATM-in məzunlarının əmək bazarında təmsilçiliyinin təyin olunması məqsədilə onlarla müxtəlif sorğular aparılaraq nəticələri müzakirə edilir.

Məzunların əmək bazarında təmsilçiliyinin təyin olunması məqsədilə sorğuların nəticələrinin sxematik müzakirələrinin genişləndirilməsi tövsiyə olunur.




*Qrafik 28. Karyera Mərkəzinin məzunlar arasında keçirdiyi sorğular üzrə göstəricilər (nəfər)*




*Qrafik 29. Sorğu nəticələrinə əsasən işlə təmin olunanların sayı (nəfər)*

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

Xəzər Universitetində məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi məqsədilə Karyera Mərkəzi tərəfindən müxtəlif məzmunlu sorğular təşkil olunur. Keçirilmiş sorğunun nəticəsi aşağıdakı qrafiklərdə öz əksini tapmışdır:




*Qrafik 30. Məzunların sorğuda iştirak dərəcəsi (faizlə)*




*Qrafik 31. 2017-2022-ci illər ərzində məzunların əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluq dərəcəsi (faizlə)*

Qeyd etmək lazımdır ki, hər il ATM-in məzunlarına onlayn sorğu göndərilir. Hərbi xidmətə yollanan və təhsilini xaricdə davam etdirən məzunların sorğuya cəlb edilməsi çətinlik yaradır. Bu məqsədlə ATM-in rəsmi internet saytında məzunlarla daimi sorğu aparılması üçün müvafiq panelin, elektron məzun şəbəkəsinin yaradılması tövsiyə olunur.

### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Xəzər Universitetində Karyera Mərkəzinin fəaliyyəti və məzunlarla əlaqə sisteminin mövcudluğu barədə məlumatlarla tələbələr 1-ci və 2-ci kursdan başlayaraq tanış olur, mərkəzin əsas prinsipləri haqqında məlumatlandırılır və ehtiyac olduğu təqdirdə keçirilən tədbirlərdə iştirak edirlər. Tələbələrin 3-cü kursdan etibarən məqsədyönlü şəkildə istər təcrübə proqramlarına, istərsə də CV profili və müsahibələrə hazır olması üçün konsultasiyalar aparılır, Karyera Mərkəzinin əməkdaşlıq etdiyi şirkətlərdə təcrübə proqramlarında iştiraka tələbələr cəlb

edilir. Tələbələr 4-cü kursdan etibarən və məzun olduqdan sonra vakansiya proseslərində Mərkəzə müraciət edə bilirlər.

Karyera Mərkəzi ilə tələbələrin əlaqələrinin qurulması sorğu, LinkedIn, e-mail, əlaqə telefonları, CV, sosial platforma, şirkətlər, müqavilələr və s. vasitələrlə həyata keçirilir.

# 4. ELMİ TƏDQİQAT

## *4.1 Elmi-tədqiqat strategiyası*

### 4.1.1 ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, Xəzər Universitetinin Elmi-Tədqiqat Strategiyası (2018-2023) ATM-in Elmi Şurasının 9 iyul 2018-ci il tarixində keçirilmiş iclasında müzakirə olunaraq təsdiq edilmişdir.

Strategiyada aşağıda qeyd olunmuş 5 strateji hədəf müəyyən edilmişdir:

- Aparıcı tədqiqat yönümlü universitetə çevrilmək;
- Akademik heyətin tədqiqat bacarıqlarını təkmilləşdirmək və tədqiqat fəaliyyətinə dəstək vermək;
- Ali təhsil pilləsinin magistratura və doktorantura səviyyələrində tədqiqat mühiti və kadr hazırlığının keyfiyyətini yaxşılaşdırmaq;
- Elmi tədqiqat sahəsində beynəlxalq əlaqələri genişləndirmək;
- Universitet-sənaye əlaqələrini universitetin tədqiqat və innovasiya imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək.

### 4.1.2 Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

Müvafiq sənədlərin təhlili nəticəsində Xəzər Universitetinin Elmi-Tədqiqat Strategiyasının ATM-in 2018-2023-cü illəri əhatə edən Strateji Planında müəyyən olunmuş missiyasına uyğunluğu müşahidə edilmişdir. Belə ki, həm Strateji Planda, həm də Elmi-Tədqiqat Strategiyasında müəyyən olunmuş ATM-in missiyası “ali təhsil pilləsinin hər üç səviyyəsində tələbə mərkəzli keyfiyyətli təhsil verən, tədqiqat yönümlü, fəaliyyətini davamlı inkişaf etdirən, Azərbaycana və bütövlükdə regiona xidmət edən universitet olmaqdır”.

Qeyd etmək lazımdır ki, Elmi-Tədqiqat Strategiyası ATM-in Strateji Planında müəyyən olunmuş hədəflərə əsasən uyğundur. Belə ki, hər iki sənəddə Strateji Hədəf 1 qismində ATM-in *“aparıcı tədqiqat yönümlü universitetə çevrilməsi”* qeyd olunmuşdur. Strategiyada qeyd olunmuş digər strateji hədəflər isə Strateji Planda müəyyən olunmuş Strateji Hədəf 1-ə əsasən uyğundur.

Lakin aparılmış təhlillər nəticəsində hər iki sənəddə strateji hədəflər üzrə müəyyən olunmuş strateji fəaliyyətlərin icra vəziyyətinin monitorinqinin aparılması və hesabat dövründə

rəqəmsal dinamikanın izlənilməsi baxımından çatışmazlıqların olduğu Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

### 4.1.3 ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

ATM-ə sahə səfəri zamanı təşkil olunan müsahibələr və müvafiq sənədlərin təhlili nəticəsində Strateji Planda ATM-in elmi-tədqiqat fəaliyyəti üzrə müəyyən olunmuş istiqamətlər, təşviq mexanizmləri və tədqiqat fəaliyyətinin idarə olunmasının Elmi-Tədqiqat Strategiyasında əsasən nəzərə alındığı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Təqdim edilmiş Elmi-tədqiqat strategiyası, 5 illik fəaliyyət planları və hesabatların təhlili əsasında müvafiq indikatorda nəzərdə tutulan məsələlərin sözügedən sənədlərdə öz əksini tapdığı aydın olmuşdur.

### 4.1.4 Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

Xəzər Universitetinin Strateji Planı və elmi-tədqiqat strategiyasının təhlili nəticəsində elmi-tədqiqat məqsədlərinin ATM-in Strateji Planının istiqamətlərinə (Strateji istiqamət 1: “Aparıcı tədqiqat yönümlü Universitetə çevrilmək”) uyğun olduğu Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

### 4.1.5 Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

Magistrant və doktorantların tədqiqat bacarıqlarının inkişafına töhfə verən müxtəlif seminar və vörkşopların keçirilməsi, “Tədqiqat metodları” fənninin sillabuslarının təkmilləşdirilməsi, tədqiqat nəticələrinin nəşr edilməsinə dəstəyin göstərilməsi, tələbələrin müxtəlif beynəlxalq proqramlar çərçivəsində tədqiqat yönümlü start-up layihələrə, magistrant və doktorantların ATM-də aparılan elmi-tədqiqat işləri və qrant layihələrə, xarici ölkələrin nüfuzlu universitetlərində çalışan tədqiqatçı alimlərin kadr hazırlığına, doktorantların ATM-də bakalavriat səviyyəsində tədris prosesinə cəlb edilməsinin və s. Xəzər Universitetinin əsas hədəfləri sırasında olduğu Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Qeyd etmək lazımdır ki, elmi-tədqiqat fəaliyyətinin tədris prosesinə inteqrasiya edilməsində idarəetmənin təkmilləşdirilməsinə ehtiyacın olduğu ATM-ə sahə səfəri zamanı müşahidə edilmişdir.

ATM-ə sahə səfəri çərçivəsində Akkreditasiya Komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda təhsil alan 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə “Dərslər zamanı elmi-tədqiqat və ixtisas laboratoriyalarından istifadə təmin olunur və təchizatı yaxşı səviyyədədir” məsələsinə tələbələrin 54%-i müsbət münasibət bildirdiyi halda (“tamamilə razıyam” və “razıyam”), 17%-i “qismən razıyam” cavabını vermiş, 29%-i isə narazılığını bildirmişdirlər (“razı deyiləm” və “qətiyyən razı deyiləm”):




***Qrafik 32. Akkreditasiya Komissiyasının təşkil etdiyi sorğunun 4.1.5-ci indikator üzrə nəticəsi***

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Strateji Planda elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə intreqrasiyasının optimallaşdırmasına ehtiyac duyulur.

### 4.1.6 Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

Akademik heyətin tədqiqat bacarıqlarının təkmilləşdirilməsi və tədqiqat fəaliyyətlərinə dəstəyin verilməsi (Strateji istiqamət (hədəf) 2) məqsədilə peşəkar təlimlərin, yerli və beynəlxalq layihələrə çağırış barədə seminarların keçirilməsi, beynəlxalq elektron resurslara çıxışın genişləndirilməsi, tədqiqatçılar üçün DSpace elektron arxivində şəxsi səhifələrin yaradılması, SCOPUS və “Web of Science“ indeksli jurnallarda elmi məqalələrin dərc olunmasının təşviqi, tədqiqat ezamiyyələrinə maliyyə dəstəyinin verilməsi, beynəlxalq elmi konfransların keçirilməsinə texniki və maddi dəstəyin göstərilməsi, habelə məqaləsi dərc olunan tədqiqatçıların mükafatlandırılması planının hazırlanması ATM-in elmi-tədqiqat strategiyasında nəzərdə tutulmuşdur.

### 4.1.7 Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

Xəzər Universitetinin elmi-tədqiqat strategiyasının təsdiq olunmasından sonra sənədin əlçatanlığı ATM-in rəsmi internet səhifəsi vasitəsilə təmin edilmişdir (https://khazar.org/uploads/centers/Quality_Assurance_Center/files/Elmi-Tedqiqat_Strategiyasi.pdf). Həmçinin, sənəd Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzinin Dspace səhifəsində yerləşdirilmişdir.

ATM-in xarici tərəfdaşları üçün elmi-tədqiqat strategiyasının xarici dildə də əlçatanlığının təmin edilməsi tövsiyə olunur.

### 4.1.8 Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Xəzər Universitetin elmi-tədqiqat strategiyasının hazırlanması ilə bağlı 2018-ci ilin may ayında keçirilmiş iclasa Mərkəzi Bankın, Dünya məktəbinin və AMEA Genetik Ehtiyatlar İnstitutunun əməkdaşları dəvət olunmuş və müzakirələrdə etmişdirlər.

## *4.2 Tədqiqat resursları*

### 4.2.1 ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

Xəzər Universitetinin infrastrukturu, maddi-texniki bazası və texnoloji resurslarının ATM tərəfindən müəyyən edilmiş elmi-tədqiqat məqsədləri və tədqiqatçıların elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün ehtiyaclara əsasən cavab verdiyi müşahidə edilmişdir. Elmi tədqiqatların aparılmasının stimullaşdırılması, layihəyönümlü fəaliyyətin təşviqi üçün maliyyə dəstəyinin göstərilməsi ATM-də əsas məsələlərdən biri kimi müəyyən edilmişdir. Hesabat dövründə Xəzər Universitetinin büdcəsindən elmi-tədqiqat fəaliyyətinə ayrılan maliyyə resurslarının ATM-in elmi tədqiqat məqsədlərinə və strategiyaya uyğun olduğu məlum olmuşdur.

Müvafiq indikator üzrə tələb olunan resursların ATM-in Elmi-Tədqiqat Strategiyasının Tədbirlər Planında illər üzrə əks olunması tövsiyə olunur.

### 4.2.2 Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

Xəzər Universitetində aktiv elmi tədqiqatla məşğul olan akademik heyətin ümumi akademik heyətdə payı (%) ilə bağlı dinamika aşağıdakı qrafikdə verilmişdir.




***Qrafik 33. Aktiv elmi tədqiqatla məşğul olan akademik heyətin ümumi akademik heyətdə payı (%)***

Kadr potensialının gücləndirilməsi məqsədilə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində prioritet sahələr üzrə xaricdə təhsilə dəstək verərək 37 doktorant ilə üç tərəfli müqavilə imzalanmışdır. Professor-müəllim heyətinin beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirakı ilə bağlı müsbət dinamika (%) müşahidə olunur:




*Qrafik 34. Akademik heyətin beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirakı*

### 4.2.3 Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, ATM-də aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması məqsədilə yaradılmış Doktorantura və Magistratura Birliyi Beynəlxalq Əlaqələr Şöbəsinin koordinasiyası ilə fəaliyyət göstərir. Birliyinin əsas məqsədi doktorantura və magistratura səvviyələrində təhsil alan tələbələrin təhsil, tədqiqat, əməkdaşlıq və qarşılıqlı öyrənmə fəaliyyətlərinə dəstək göstərməkdir.

ATM-də fəaliyyət göstərən elmi-tədqiqat mərkəzləri və tədqiqat laboratoriyalarında gənclərin elmi-tədqiqat işləri ilə məşğul olması üçün müvafiq şəraitin yaradıldığı sahə səfəri zamanı müəyyən edilmişdir.

### 4.2.4 Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

Özünütəhlil Hesabatında Xəzər Universitetinin müxtəlif istiqamətlər üzrə 2018-ci ildə 24, 2019-cu ildə 26, 2020-ci ildə 25, 2021-ci ildə 25 və 2022-ci ildə 27 beynəlxalq elmi bazaya çıxışının olduğu qeyd olunmuşdur.

Beynəlxalq elmi bazalara girişin təmin edilməsi üçün memorandumlar imzalanmış və müxtəlif nəşriyyatlara üzvlük ilə bağlı razılıqlar əldə edilmişdir. Qeydiyyatdan keçən hər bir əməkdaş isə istənilən məkandan daxil olaraq xidmətdən istifadə edə bilər.

### 4.2.5 Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

Xəzər Universitetinin 2016-cı il 1 fevral tarixli U/107 saylı əmrinə əsasən Tədqiqatlara Dəstək Mərkəzi yaradılmış, nüfuzlu beynəlxalq jurnallarda dərc edilmiş elmi məqalələrə görə professor-müəllim heyətinin stimullaşdırılması barədə əsasnamə hazırlanmış və mexanizm müəyyənləşdirilmişdir. Belə ki, ATM tərəfindən aktiv elmi tədqiqatla məşğul olan əməkdaşlara nüfuzlu beynəlxalq jurnallarda dərc edilmiş elmi məqalələrin impakt faktoruna uyğun olaraq mükafat verilməsi, elmi rəhbərlərə xüsusi meyarlar əsasında ödənişin edilməsi, tədqiqat məqsədli səfərlərə maddi dəstəyin verilməsi, xaricdə doktorantura təhsili alan əməkdaşlara təhsil müddətində əmək haqlarının saxlanılması ilə dəstəyin göstərilməsi nəzərdə tutulur.

### 4.2.6 Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

Hesabat dövrü üzrə son üç ildə ATM-də elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər ilə bağlı artan dinamika müşahidə edilmişdir. Belə ki, elmi-tədqiqat fəaliyyəti nəticəsində ATM tərəfindən 2019-cu ildə 9352.8 AZN, 2020-ci ildə 13996.99 AZN və 2021-ci ildə 17820 AZN məbləğində gəlir əldə olunmuşdur:




*Qrafik 35. Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər (AZN)*

## 4.2.7 Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

Xəzər Universitetinin hal-hazırda müxtəlif ölkələrinin universitetləri ilə elmi-tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq etdiyi Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. 2022-ci ildə xarici universitetlərlə bağlanmış müqavilələrə Türkiyə, Ukrayna, Qazaxıstan, Litva, Rusiya Federasiyası, Latviya, Özbəkistan, Çili, Bolqarıstan ATM-ləri ilə müqavilələri misal göstərmək mümkündür. COVID-19 pandemiyası dövründə tədqiqat yönümlü əməkdaşlığının gücləndirilməsinə baxmayaraq 2022-ci ildə 2021-ci il ilə müqayisədə göstəricilərin 2 dəfəyədək aşağı olduğu müşahidə edilmişdir.




*Qrafik 36. Tədqiqat sahəsində əməkdaşlıq edilən elmi müəssisə və təşkilatların payı*

Qeyd etmək lazımdır ki, 2018-2022-ci illərdə beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") 2%-dən 34%-ə qədər artdığı müşahidə edilmişdir.




*Qrafik 37. Beynəlxalq nəşrlərdə elmi məqalələrə istinadetmə indeksinin artım dinamikası*

## *4.3 Elmi-tədqiqat fəaliyyəti*

### 4.3.1 Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, hesabat dövründə ATM-də elmi-tədqiqat fəaliyyətinin səmərəli idarə edilməsi məqsədilə aşağıdakı struktur dəyişiklikləri həyata keçirilmişdir:

- Magistratura, doktorantura və elmi işlər bölməsi bölməsi;
- Elmi işlər üzrə prorektorluq;
- Magistratura, doktorantura və elmi işlər bölməsinin bazasında "Təbiət elmləri, sənət və texnologiya" və "İqtisadiyyat və biznes" yüksək təhsil fakültələri;
- Xəzər Tədqiqatlara Dəstək Mərkəzi yaradılmışdır.

ATM-ə sahə səfəri zamanı elmi işlər üzrə prorektor ştat vahidinin vakant olması, elmi-tədqiqat fəaliyyətinin isə yuxarıda qeyd olunmuş iki yüksək təhsil fakültəsi tərəfindən idarə olunduğu Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Qeyd etmək lazımdır ki, Strateji Plan və Elmi-tədqiqat strategiyasına uyğun olaraq fəaliyyət planları hazırlanır. Lakin fəaliyyət planlarının monitorinq və qiymətləndirilməsinin aparılması üçün təkmilləşdirilməyə ehtiyacın olduğu müşahidə edilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, ATM-də elmi-tədqiqat fəaliyyətinin idarə olunması üzrə strukturda optimallaşdırmanın aparılması məqsədəuyğun hesab olunur.

### 4.3.2 Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

Xəzər Universitetində hesabat dövründə elmi-tədqiqat xarakterli tədbirlərin keçirilməsi vəziyyəti ilə bağlı pandemiya dövrü istisna olmaqla əsasən müsbət dinamika müşahidə edilmişdir. Qeyd etmək lazımdır ki, 2022-ci ildə ATM-də 3 beynəlxalq konfrans, 38 seminar və 5 görüş olmaqla ümumilikdə 46 elmi-tədqiqat xarakterli tədbir təşkil olunmuşdur.

ATM-də elmi-tədqiqat xarakterli tədbirlərin keçirilməsi ilə bağlı vəziyyət aşağıdakı qrafikdə göstərilmişdir:




*Qrafik 38. Elmi-tədqiqat xarakterli konfrans, seminar, görüş və s. tədbirlərin payı (%)*

### 4.3.3 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

Hesabat dövründə Xəzər Universitetində təşkil edilmiş elmi-tədqiqat xarakterli konfrans, seminar, görüş və s. tədbirlərdə ABŞ, Finlandiya, Türkiyə, İsveç, Böyük Britaniya, İsrail, Yaponiya, Çin və bir sıra digər ölkələri təmsil edən tədqiqatçıların iştirak etdiyi müşahidə edilmişdir.

### 4.3.4 Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

Hesabat dövründə Xəzər Universitetində təşkil edilmiş elmi-tədqiqat xarakterli konfrans, seminar, görüş və s. tədbirlərdə pandemiya dövrü istisna olmaqla gənc tələbə-tədqiqatçıların iştirakı ilə bağlı müsbət dinamika müşahidə edilmişdir. Belə ki, 2018-ci ildə 5, 2019-cu ildə 16, 2020-ci ildə 7, 2021-ci ildə 28 və 2022-ci ildə 43 nəfər gənc tələbə-tədqiqatçı iştirak etmişdir.

### 4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

Xəzər Universitetində hesabat dövründə 21 beynəlxalq olmaqla 37 qrant layihəsi həyata keçirilmişdir. Aşağıdakı cədvəldə son 5 il üzrə həyata keçirilmiş qrant layihələrin sayı barədə məlumat verilmişdir:

***Cədvəl 21. Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrinin sayı (2018-2022)***

| İllər | Elm və təhsil sahəsində həyata keçirilən beynəlxalq qrant layihələrin sayı |
|---|---|
| 2022 | 6 |
| 2021 | 10 |
| 2020 | 6 |
| 2019 | 7 |
| 2018 | 8 |
| **CƏMİ** | **37** |

Qeyd etmək lazımdır ki, uzunmüddətli qrant layihələri çərçivəsində ali təhsil üzrə tədqiqat mövzuları əhatə olunur, məsələn ali təhsil sektorunun modernləşdirilməsi, təhsil və tədqiqat sahəsində çoxmillətli layihələrin inkişafı, universitet-müəssisə əməkdaşlığının inkişafı və s.

### 4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

Akkreditasiya Komissiyasının Xəzər Universitetinə sahə səfəri zamanı hesabat dövründə ATM tərəfindən elmi-tədqiqat fəaliyyəti üzrə patent əldə edilmədiyi müəyyən edilmişdir.

### 4.3.7 İnstitusional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

Qeyd etmək lazımdır ki, Xəzər Universitetində institusional əməkdaşlığın aparılması və birgə təşəbbüslərin həyata keçirilməsinə dəstəyin göstərildiyi müşahidə edilmişdir. Belə ki, ATM-də Türk Dünyası Araşdırmalar Mərkəzi (TİKA), Avropa İttifaqı Araşdırmalar Mərkəzi, Miqrasiya Araşdırmalar Mərkəzi və s. tədqiqat mərkəzləri fəaliyyət göstərir.

### 4.3.8 Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

ATM-ə sahə səfəri zamanı və müvafiq sənədlərin təhlili nəticəsində Xəzər Universitetinin əməkdaşlarının yerli və xarici ölkələrin ATM və elmi-tədqiqat müəssisələrinin tədqiqatçıları ilə birgə tədqiqatlar apardığı müəyyən edilmişdir. Hesabat dövründə aşağıdakı üsullarla birgə tədqiqat proqramları həyata keçirilmişdir:

- Almaniyanın Leibniz Bitki Genetikası və Kənd Təsərrüfatı Bitkiləri Tədqiqatları İnstitutu ilə əməkdaşlıq (2019-cu il);
- Elmin İnkişafı Fondunun elan etdiyi qrant müsabiqəsinin nəticəsində (2020-ci il);
- COST proqramı (2020-ci il);
- İsveç İnstitutu, Baltic Sea Neighbourhood Proqramı vasitəsilə (2021 və 2022-ci illər).

### 4.3.9 Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

Özünütəhlil Hesabatında Xəzər Universitetinin əməkdaşlarının müxtəlif beynəlxalq elmi-tədqiqat şəbəkələrində birgə əməkdaşlığının nəticəsi olaraq dərc etdiyi elmi nəşrlər barədə məlumat verilmişdir. Lakin ATM-in hansı beynəlxalq elmi-tədqiqat şəbəkə və assosiasiyalarının üzvü olması barədə məlumat qeyd olunmamışdır.

### 4.3.10 Yerinə yetirilən elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

Akkreditasiya Komissiyasına təqdim edilmiş son üç il üzrə ATM-in elmi-tədqiqat fəaliyyəti barədə hesabatların təhlili nəticəsində sözügedən müddətdə elmi-tədqiqat işlərinin nəticələrinin monoqrafiya, dərs vəsaiti və metodik vəsait kimi nəşr olunduğu müəyyən edilmişdir. Özünütəhlil Hesabatında isə müvafiq istiqamətdə məlumatlar qeyd edilməmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, sözügedən istiqamətdə müvafiq indikator üzrə təkmilləşdirməyə ehtiyacın olduğu müəyyən edilmişdir.

### 4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

Xəzər Universitetində akademik heyət, magistrant və doktorantların elmi-tədqiqat nəticələrinin dərc etdirilmə imkanlarının yaxşılaşdırılması üçün müxtəlif sahələr üzrə aşağıdakı üç elmi jurnal dərc olunur:

- Xəzər “Humanitar və Sosial elmlər” jurnalı (*Web of Science bazasına daxildir*);

- Xəzər “Elm və Texnologiya” jurnalı;
- “Azərbaycan Arxeologiyası” jurnalı.

### 4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası

Özünütəhlil Hesabatında qeyd olunur ki, 2018-2022-ci illərdə Web of Science bazasına daxil olan nüfuzlu jurnallarda Xəzər Universitetinin əməkdaşlarının dərc olunmuş 279 məqaləsinə ümumilikdə 3899, özünə istinadlar istisna olmaqla 2358 dəfə istinad olunmuşdur. Ayrı-ayrılıqda illər üzrə isə nəticələr aşağıdakı kimidir:

- 2018-ci il: məqalə sayı – 48, istinad sayı – 99;
- 2019-cu il: məqalə sayı – 51, istinad sayı – 492;
- 2020-ci il: məqalə sayı – 79, istinad sayı – 905;
- 2021-ci il: məqalə sayı – 52, istinad sayı – 1022;
- 2022-ci il: məqalə sayı – 48, istinad sayı – 1290.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Web of Science bazasına daxil olan nüfuzlu jurnallarda ATM əməkdaşlarının dərc olunmuş məqalələrinin sayı azalsa da, məqalələrə istinadetmə indeksinin artdığı müşahidə edilmişdir.

Scopus bazasında indekslənən jurnallarda dərc olunmuş ATM əməkdaşlarının məqalələrinə istinadetmə indeksinin dinamikası barədə məlumat isə Akkreditasiya Komissiyasına təqdim edilməmişdir.

### 4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

Xəzər Universitetində magistratura və doktorantura səviyyəsində təhsil alan tələbələrə ixtisaslarından asılı olaraq aşağıdakı tədqiqat yönümlü fənlər tədris olunur.

***Cədvəl 22. İxtisaslar üzrə tədris olunan tədqiqat yönümlü fənlər***

| № | İxtisas | Fənn |
|---|---|---|
| 1 | Azərbaycan dili | Humanitar elmlərdə tədqiqat metodları |
| 2 | Azərbaycan ədəbiyyatı | Ədəbiyyatşünaslıqda tədqiqat metodları |
| 3 | Dilşünaslıq | Tədqiqat metodları |
| 4 | Regionşünaslıq (Avropa) | |
| 5 | Neft və qaz yataqlarının işlənməsi | |
| 6 | Konfliktologiya | |
| 7 | Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi | |
| 8 | Beynəlxalq münasibətlər və diplomatiya | Tədqiqat metodları;<br>Tədqiqat layihə təkliflərinin işlənməsi |
| 9 | Dünya siyasi prosesləri | |
| 10 | Elektron cihazlar və qurğular | |

| | | |
|---|---|---|
| 11 | Elektronika və avtomatika | Tədqiqat metodları (Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi üzrə) |
| 12 | İnformatika | Kompüter elmlərində tədqiqat metodları |
| 13 | Kompüter mühəndisliyi | |
| 14 | Kliniki psixologiya | Kliniki psixologiyada tədqiqat və statistika – 1 və 2 |
| 15 | Ümumi psixologiya | |
| 16 | Kompüter sistemlərinin və şəbəkələrinin proqram təminatı | Kompüter elmlərində tədqiqat metodları və etika |
| 17 | Tərcümə | Tədqiqat metodları;<br>Tədqiqat işinin tərtibi və yazılması |
| 18 | MBA və MSc | Tədqiqat metodları və Statistika |

### 4.3.14 Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti

Xəzər Universitetində Tədqiqatlara Dəstək Mərkəzi, İnkişaf Ofisi və Təlim-Tədris Mərkəzi akademik heyətin tədqiqat bacarıqlarını inkişaf etdirmək məqsədilə müvafiq qaydada təlim və seminarlar təşkil edir. Aşağıdakı cədvəldə 2019-ci il istisna olmaqla 5 ildə tədbirlərin statistik göstəriciləri verilmişdir. Cədvəldən görünür ki, 2018-ci ildən etibarən sözügedən tədbirlərin sayında azalma dinamikası müşahidə olunur.

***Cədvəl 23. Təlim və seminarların artım dinamikası***

| İllər | Tədbirlərin sayı |
|---|---|
| 2022 | 7 |
| 2021 | 8 |
| 2020 | 7 |
| 2018 | 16 |

### 4.3.15 Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu

Xəzər Universitetində doktorantura proqramlarına qəbul prosesi barədə məlumatlar ATM-in rəsmi internet səhifəsi vasitəsilə paylaşılır (https://khazar.org/az/announce/4622).

Qeyd etmək lazımdır ki, yüksək bal ilə qəbul olmuş tələbələrin elmi fəaliyyətə həvəsləndirilməsi məqsədilə onların təhsil haqqında müəyyən güzəştlər tətbiq edilir. Həmçinin, 2021-ci ildən etibarən Xəzər Universitetinin nəzdində yaradılmış Nailəxanım Fondu tərəfindən istedadlı tələbələr üçün təqaüd imkanları təklif olunur (https://khazar.org/az/news/5593).

Özünütəhlil Hesabatında 2018-ci ildə 1, 2019-cu ildə 1, 2020-ci ildə 3, 2021-ci ildə 3 və 2022-ci ildə 1 məzun olmuş doktorantın ATM-də işə qəbul edildiyi qeyd olunmuşdur. Cari tədris ilində 4 nəfər əcnəbi doktorant bakalavr pilləsində tədris aparır. Həmçinin, “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması

üzrə Dövlət Proqramı" çərçivəsində prioritet sahələr üzrə xaricdə təhsilə dəstək verərək nüfuzlu xarici ali təhsil müəssisələrində doktoranturaya qəbul edilmiş 37 doktorant ilə üç tərəfli müqavilə imzalamışdır.

Ümumilikdə isə Xəzər Universitetində doktorantura proqramlarının aktiv təşviqi və doktorantura məzunlarının işə cəlb edilməsi istiqamətində optimallaşdırmanın aparılması tövsiyə olunur.

### 4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə tədris prosesində iştirak edən professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti

Müvafiq indikatorla bağlı statistik göstəricilər aşağıdakı cədvəldə verilmişdir.

***Cədvəl 24. Professorların sayı və akademik heyətdə payı***

| İllər | Professorların sayı | Akademik heyət sayı | Professorların ümumi akademik heyətdə payı (%) |
|---|---|---|---|
| 2018 | 7 | 211 | 3.3 |
| 2019 | 7 | 210 | 3.3 |
| 2020 | 6 | 240 | 2.5 |
| 2021 | 6 | 251 | 2.4 |
| 2022 | 9 | 323 | 2.8 |

Cədvəldən göründüyü kimi, ATM-də tədris prosesində iştirak edən professorların ümumi akademik heyətdə payı hesabat dövründə 5%-dən aşağı olmuşdur.

### 4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların nisbətinin dəyişməsi vəziyyəti

Hesabat dövründə Xəzər Universitetində elmi dərəcəsi olan tədqiqatçıların ümumi akademik heyətə olan nisbəti ilə bağlı Akkreditasiya Komissiyası tərəfindən azalma tendesiyası müşahidə edilmişdir.

Müvafiq indikatorla bağlı statistik göstəricilər (faizlə) aşağıdakı qrafikdə verilmişdir:




***Qrafik 39. Elmi dərəcəsi olan tədqiqatçıların ümumi akademik heyətdə payı (faizlə)***

### 4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu

Hesabat dövründə Xəzər Universitetində təklif edilən doktorantura proqramlarının ATM-in elmi-tədqiqat hədəfləri ilə uyğunluq təşkil etdiyi Akkreditasiya Komissiyası tərəfindən müşahidə edilmişdir.

### 4.3.19 Elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

ATM-in elmi-tədqiqat fəaliyyətinin monitorinqi illik əsasda fəaliyyət planları vasitəsilə yüksək təhsil fakültələri tərəfindən aparılır. Lakin monitorinq meyarlarının təkmilləşdirilməsi üzrə ehtiyacın olduğu ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

### 4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

2020-ci ildə Xəzər Universitetində Magistratura, doktorantura və elmi işlər bölməsinin bazasında iki yüksək təhsil fakültəsi ("Təbiət elmləri, sənət və texnologiya" və "İqtisadiyyat və biznes") yaradılmışdır. Fakültələr magistrant, doktorant və dissertantların hazırlanmasına, tədris prosesinin keyfiyyətli təşkilinə, tezis və dissertasiya işlərinin müdafiəsinə nəzarət edir və sözügedən proseslərin təşkil olunmasına dəstək göstərir.

Xəzər Universitetində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün doktorant hazırlığı həyata keçirilir. Hər il müxtəlif ixtisaslar üzrə doktorant və dissertantların ilkin müzakirəsi təşkil edilərək sənədləri müdafiə üçün müvafiq dissertasiya şurasına təqdim edilir.

## *4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

### 4.4.1 Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu

Plagiat.pl MMC şirkəti ilə əməkdaşlıq çərçivəsində Xəzər Universitetində StrikePlagiarism antiplagiat internet sisteminin istifadəsi təmin olunur. Akademik dürüstlük qaydalarının ATM-in rəsmi internet səhifəsi vasitəsilə əlçatanlığının təmin olunduğu Xəzər Universitetinə sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir (https://khazar.org/az/item/173).

### 4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

Xəzər Universitetində köçürmə hallarının qarşısının alınması məqsədilə müvafiq prosedurların mövcudluğu Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Belə ki, ATM-in "İmtahan qaydaları haqqında Əsasnamə"sində müvafiq məsələlər əhatə olunmuşdur.

Həmçinin, imtahanların təşkil olunduğu auditoriyaların kameralarla əsasən təchiz olunduğu müşahidə edilmişdir.

#### 4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

ATM-ə sahə səfəri çərçivəsində təşkil edilmiş müsahibələr və müvafiq sənədlərin təhlili nəticəsində qeyd etmək lazımdır ki, Xəzər Universitetində tədqiqat layihələri, kurs işləri, məqalə, tezis və dissertasiya işlərinin StrikePlagiarism antiplagiat sistemi vasitəsilə yoxlanılması həyata keçirilir. Hesabat dövründə antiplagiat yoxlanılması həyata keçirilmiş sənədlərin sayı barədə statistik məlumatlar aşağıdakı cədvəldə verilmişdir.

***Cədvəl 25. Hesabat dövründə antiplagiat yoxlanılması həyata keçirilmiş sənədlərin sayı barədə statistik məlumatlar***

| İstifadə edən bölmə | Sənəd sayı | İşarə sayı |
|---|---|---|
| Humanitar, təhsil və sosial elmlər fakültəsi | 74 | 11130,248 |
| Mühəndislik və tətbiqi elmlər fakültəsi | 42 | 2402,208 |
| İqtisadiyyat və menecment fakültəsi | 8 | 403,703 |
| Yüksək təhsil fakültələri, Keyfiyyət Təminatı Mərkəzi, Kitabxana İnformasiya Mərkəzi və s. | 341 | 31903,435 |
| Magistratura, doktorantura və elmi işlər bölməsi | 91 | 9562,78 |

## 5. İDARƏETMƏ SİSTEMİ

### *5.1 İdarəetmə orqanları*

#### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət/iş planlarının mövcudluğu vəziyyəti

Xəzər Universitetinin idarə olunması və onun fəaliyyəti əsasən ATM-in Nizamnaməsi, ümumi idarəetmə orqanı olan Elmi Şuranın qərarları və daxili əsasnamələrə uyğun olaraq həyata keçirilir.

ATM-in ali idarəetmə orqanı 2010-cu ildən etibarən fəaliyyət göstərən Direktorlar və Qəyyumlar Şurasıdır.

Ali kollegial idarəetmə orqanı isə Elmi Şuradır. Elmi Şuranın tərkibi hər tədris ilinin əvvəlində 1 il müddətinə seçilir. Elmi Şuranın, o cümlədən fakültə Elmi Şuralarının tərkibi və vəzifələri müvafiq olaraq Xəzər Universitetin "Əsasnamələr və Qaydalar Toplusu"nda müəyyən edilmiş "Universitet Elmi Şurası haqqında Əsasnamə" və "Fakültə Elmi Şurası haqqında Əsasnamə" ilə tənzimlənir.

Xəzər Universitetində əsasə vəzifəsi tədris və tədqiqat işlərinin yüksək səviyyədə yerinə yetirilməsinin istiqamətləndirilməsi olan Məsləhət Şurası fəaliyyət göstərir. Məsləhət Şurası aşağıdakı qeyd olunmuş sahələr üzrə tövsiyələrin hazırlanması və icrasına köməklik göstərir:

- Kadr məsələləri;
- Strateji planlaşdırma;
- Təşkilati məsələlər;
- Mövcud təhsil proqramları;
- Yeni təhsil proqramları;
- Karyera xidməti;
- İstehsalat təcrübəsi;
- İctimaiyyətlə əlaqələr;
- Əlavə maliyyə vəsaitləri, xüsusi tələbə təqaüdləri və s.

Qeyd etmək lazımdır ki, Xəzər Universitetinin ştat cədvəlində elmi işlər üzrə prorektor vəzifəsinin olmasına baxmayaraq, son 4 ili əhatə edən müddətdə sözügedən vəzifəyə təyinatın olmadığı ATM-ə sahə səfəri zamanı müəyyən edilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, sözügedən istiqamətdə strukturun optimallaşdırılması tövsiyə olunur.

### 5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin ( işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

Xəzər Universitetinin ali kollegial idarəetmə orqanı olan Elmi Şuranın tərkibi hər tədris ilinin əvvəlində 1 il müddətinə təsdiq edilir. Elmi Şuranın cari tərkibi 39 nəfərdən ibarətdir və 3 əsas meyar üzrə müəyyən edilir:

1. Tutduğu vəzifəyə uyğun olaraq Şuraya birbaşa daxil edilənlər – 15 nəfər;
2. Rektorun təqdimatı əsasında Şuraya daxil edilənlər – 3 nəfər;
3. Fakültələrin təqdimatı ilə Şuraya daxil edilənlər – 21 nəfər.

Hal-hazırda Elmi Şuranın tərkibinə Tələbə Məclisinin nümayəndəsi daxildir. Lakin işəgötürənlərin Elmi Şurada aktiv təmsilçiliyi müəyyən olunmamışdır.

Özünütəhlil Hesabatında qeyd olunur ki, Məsləhət Şurasında işəgötürənlər və ictimaiyyət nümayəndələri təmsil olunur, Keyfiyyət Təminatı Komitəsinin tərkibinə isə professor-müəllim heyəti və inzibati heyət, tələbə (lər) və məzun daxildir.

### 5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, idarəetmə orqanlarının iclasları, yığıncaqları və tədbirləri fəaliyyət planlarına uyğun olaraq aparılır. İclas və yığıncaqların bir qismi ATM-in

təqvim planına, digər qismi isə həyata keçirilən tədbir və təşkil olunan yığıncaqların gündəliyinə uyğun olaraq həyata keçirilir.

Tədris ili müddətində Elmi Şura iclaslarının 4-5 dəfə keçirildiyi ATM-ə sahə səfəri çərçivəsində müəyyən edilmişdir. Şurada gündəlikdə olan məsələlərin müzakirəsi qaydaları Xəzər Universitetinin Əsasnaməsi ilə tənzimlənir. Şuranın işini təşkil etmək, iclasların gündəliyini hazırlamaq və qərarların həyata keçirilməsinə nəzarət etmək məqsədilə şura üzvləri içərisindən elmi katib seçilir.

Elmi Şura tədris ili üçün nəzərdə tutulmuş iş planı üzrə fəaliyyət göstərir və iş planı onun iclasında müzakirə olunub qəbul edildikdən sonra rektor tərəfindən təsdiq edilir.

Xəzər Universitetində Tədris-Metodik Şuranın mövcud olmadığı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Tədris prosesində fəaliyyətin səmərəliliyinin yüksəldilməsi və təkmilləşdirilməsinə görə ATM-də Tədris-Metodiki Şuranın yaradılması tövsiyə olunur.

### 5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

Elmi Şura və digər idarəetmə orqanlarının sənədlərinin təhlili nəticəsində qeyd etmək lazımdır ki, Xəzər Universitetində iş planlarına uyğun olaraq məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi proseduru mövcuddur.

Lakin ATM-də kargüzarlığın aparılmasında, o cümlədən elektron sənəd dövriyyəsinin tətbiq edilməməsi səbəbindən struktur bölmələr arasında daxili kommunikasiyanın təşkilində çatışmazlıqların olduğu Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Həmçinin, idarəetmə orqanlarının iclas protokollarının tərtibatının təkmilləşdirilməsi üzrə ehtiyacın mövcudluğu müşahidə edilmişdir. Belə ki, iclas protokollarında tənqidi fikirlər, təkliflər, müzakirələr və müzakirə olunan məsələlərin həlli yolları əhatə olunmalıdır.

### 5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, Xəzər Universitetində idarəetmə orqanlarının qərarlarının müvafiq struktur bölmə rəhbərlərinə təqdim olunması elektron poçt vasitəsilə həyata keçirilir, ictimaiyyət üçün əhəmiyyətli məlumatlar isə ATM-in rəsmi internet saytında yerləşdirilir.

Elmi Şuranın iş planları və protokollarının təhlili göstərir ki, müzakirəyə çıxarılan məsələlər ümumilikdə ATM-in cari və perspektiv inkişafının həllinə yönəlmişdir. Müvafiq sənədlərlə tanışlıq nəticəsində Şurada qəbul edilmiş bəzi qərarların "Təlim və tədris" istiqaməti üzrə qüvvədə olan qanunvericilik ilə ziddiyyət təşkil etdiyini qeyd etmək olar.

Şuranın işinin təşkili, iclasların gündəliyinin hazırlanması və qərarların icrasına nəzarət elmi katibin öhdəliyi kimi qeyd olunsa da, qərarların icra vəziyyətinin izlənilməsi üçün mexanizmin mövcudluğu müəyyən edilməmişdir.

ATM-ə sahə səfəri çərçivəsində müvafiq struktur bölmələrin nümayəndələri ilə təşkil olunmuş müsahibələr və aidiyyəti sənədlərin təhlili nəticəsində ATM-də qəbul edilmiş qərarların

əlçatanlığının təmin edilməsi məqsədilə elektron sənəd dövriyyəsi sisteminin tətbiq edilməsi və sözügedən daxili qərarların qüvvədə olan müvafiq *qanunvericiliyi*n tələblərinə uyğunluğunun təmin edilməsi tövsiyə olunur.

Qeyd etmək lazımdır ki, ATM-də sənədləşmə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli, 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət idarə, müəssisə və təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun olaraq təşkil edilməlidir.

### 5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti

Özünütəhlil Hesabatında Direktorlar və Qəyyumlar Şurası ilə Rektorluq, habelə digər aidiyyəti qurumlar və fakültə dekanları arasında əlaqənin müntəzəm şəkildə qurulduğu, strateji əhəmiyyətli məsələlərin bu məqsədlə təşkil edilən görüşlərdə müzakirə olunduğu və müvafiq qərarların qəbul edildiyi qeyd olunmuşdur.

Lakin ATM-ə sahə səfəri zamanı təşkil olunmuş müsahibələr zamanı Xəzər Universitetində struktur bölmələr arasında daxili kommunikasiyanın və kargüzarlığın aparılmasında çatışmazlıqların olduğu Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

### 5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti

İdarəetmə orqanlarında səlahiyyət və vəzifə bölgüsünün Xəzər Universitetinin Nizamnaməsi və Əsasnaməsinə uyğun olaraq həyata keçirildiyi ATM-in Özünütəhlil Hesabatında qeyd olunmuşdur. ATM-in ali kollegial idarəetmə orqanı olan Elmi Şuranın, o cümlədən fakültə Elmi Şuralarının tərkibi, vəzifələri və digər prosedur məsələləri müvafiq olaraq Xəzər Universitetinin "Əsasnamələr və qaydalar toplusu"nda müəyyən olunmuş "Universitet Elmi Şurası haqqında Əsasnamə" və "Fakültə Elmi Şurası haqqında Əsasnamə" ilə tənzimlənir.

Lakin ATM-ə sahə səfəri çərçivəsində Xəzər Universitetində yaradılmış bəzi yeni struktur bölmələr və ATM-də mövcud struktur bölmələr arasında səlahiyyət və vəzifə bölgüsünün dəqiqləşdirilməsinə və müvafiq istiqamətdə qeyri-müəyyənliklərin aradan qaldırılmasına ehtiyac olduğu Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

Xəzər Universitetində üç prorektor (akademik işlər üzrə prorektor, idarəetmə və tələbə işləri üzrə prorektor, beynəlxalq əlaqələr üzrə prorektor) fəaliyyət göstərir. Prorektorlar arasında vəzifə və səlahiyyət bölgüsü müvafiq olaraq aparılmışdır. Lakin ATM-in ştat cədvəlində elmi işlər üzrə prorektor vəzifəsinin vakant olmasına baxmayaraq, hesabat dövründə sözügedən vəzifəyə təyinat olmamışdır. ATM-də elmi-tədqiqat fəaliyyətinin koordinasiyası yeni yaradılmış iki "yüksək təhsil" fakültələrinə həvalə edilmişdir. Bununla əlaqədar olaraq, ATM-də elmi-tədqiqat fəaliyyəti üzrə idarəetmə strukturunun təkmilləşdirilməsi tövsiyə olunur.

Əlavə olaraq qeyd etmək lazımdır ki, Xəzər Universitetinin strateji inkişafının planlaşdırıması və icrası üzrə müstəqil struktur bölmənin mövcud olmadığı, müvafiq olaraq Strateji Planın icrasının monitorinqi ilə bağlı çatışmazlıqların olduğu müşahidə edilmişdir. Yuxarıda qeyd olunanları nəzərə alaraq, ATM-in Strateji Planının səmərəli icrası və

monitorinqinin effektiv təşkili məqsədilə strateji inkişafın planlaşdırılması üzrə ayrıca struktur bölmənin yaradılması tövsiyə olunur.

### 5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, idarəetmə orqanlarının fəaliyyəti illik hesabatlar əsasında monitorinq edilir və qiymətləndirilir. Qeyd olunan prosesin koordinasiyası Keyfiyyət Təminatı Mərkəzi tərəfindən həyata keçirilir. Mərkəzin əsasnaməsində struktur bölmənin tədris işləri üzrə prorektora tabe olduğu qeyd olunmuşdur. Qeyd etmək lazımdır ki, sözügedən tabeçilik forması idarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi baxımından mərkəzin müstəqilliyini məhdudlaşdırır.

Lakin ATM-ə sahə səfəri zamanı təşkil olunmuş müsahibələr nəticəsində Xəzər Universitetində prorektorlar və müvafiq struktur bölmələri arasında konkret iş bölgüsünun aparılması, iş planlarında görüləcək işlər, məsul icraçılar, icra müddəti, hədəf və nəticə indikatorlarının (KPI) müəyyən edilməsi, o cümlədən icra olunan fəaliyyətlərin monitorinqi və hesabatlılığının təmin edilməsi üzrə təkmilləşdirmə ehtiyacının mövcudluğu Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Nəticə olaraq, Xəzər Universitetində müvafiq mexanizm və prosedurların təkmilləşdirilməsi, sözügedən istiqamətdə optimallaşdırmanın aparılması və Keyfiyət Təminatı Mərkəzinin müstəqil struktur bölmə kimi fəaliyyət göstərməsi tövsiyə olunur.

### 5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti

Xəzər Universitetinin Özünütəhlil Hesabatında idarəetmə orqanlarının fəaliyyətinin şəffaf və nəticəyönümlü şəkildə qurulduğu qeyd olunmuşdur. Onların fəaliyyətini əks etdirən müvafiq hesabatlar, habelə qəbul edilmiş qərarların bir qayda olaraq bütün əməkdaşlar üçün əlçatanlığı qeyd olunsa da, ATM-ə sahə səfəri zamanı bu müşahidə edilməmişdir.

Qeyd etmək lazımdır ki, idarəetmə orqanlarının fəaliyyəti illik hesabatlar əsasında monitorinq edilir və qiymətləndirilir. Lakin Xəzər Universitetində idarəetmə orqanlarının fəaliyyətinin konkret monitorinq və qiymətləndirmə mexanizmi mövcud deyildir.

Müvafiq olaraq, idarəetmə orqanlarının fəaliyyətinin monitorinqinin optimallaşdırılması tövsiyə olunur.

## *5.2 İnsan resurslarının idarə edilməsi*

### 5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti

Xəzər Universitetinin “Əsasnamələr və qaydalar toplusu”nda “İdarəetmə və akademik vəzifələrin tutulması haqqında Əsasnamə” və “Qeyri-akademik vəzifələrə təyin olunma

Qaydaları” müəyyən edilmişdir. “İdarəetmə və akademik vəzifələrin tutulması haqqında Əsasnamə”yə əsasən Xəzər Universitetində rektor və prorektorlar Direktorlar və Qəyyumlar Şurası tərəfindən təyin olunur. Sözügedən əsasnamədə qeyd olunmuşdur ki, fakültə dekanı, departament müdiri və ştatda olan müəllimlər müsabiqə yolu ilə vəzifəyə təyin olunurlar.

ATM-ə sahə səfəri çərçivəsində aparılmış müsahibələr zamanı namizəd müəllimlər üçün İşə qəbul komissiyası və uyğun ixtisas departamenti tərəfindən sınaq dərslərinin təşkil edildiyi və nəticədən asılı olaraq namizədin işə qəbuluna dair təklifin verildiyi qeyd olunmuşdur. Əsasnamədə illik və ya semestrlik əmək müqaviləsi ilə işləyən müəllimlərin rektor tərəfindən təyin olunduğu qeyd edilsə də, təyinatın hansı meyarlar əsasında aparıldığı aydın deyildir.

Xəzər Universitetində akademik heyətin ştat və saathesabı yolu ilə əmək fəaliyyətinə cəlb olunması barədə əmrlər ilə Akkreditasiya Komissiyasının tanışlığı nəticəsində məlum olmuşdur ki, vəzifəyə təyin olunmuş akademik heyətin əksəriyyətinin elmi dərəcəsi yoxdur. Həmçinin, bəzi departamentlərdə (Təhsil departamenti və Həyat elmləri departamenti) koordinatorlarının 0,5 ştat vahidi ilə əmək fəaliyyətinə cəlb olunması müvafiq struktur bölmələrin səmərəli idarə edilməsi baxımından məqsədəuyğun hesab edilmir.

Qeyd etmək lazımdır ki, ümumilikdə ATM-ə saathesabı yolu ilə peşəkar kadrlar cəlb edilsə də, Xəzər Universitetində hələ də sabit kadr potensialı formalaşdırılmamışdır.

### 5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

Xəzər Universitetinin 2018-2023-cü illəri əhatə edən Strateji Planı ATM-in akademik və inzibati heyətinə dair aşağıdakı strateji hədəfi müəyyən etmişdir:

- Strateji Hədəf 3. *Universitetin davamlı inkişafını təmin etmək üçün professor-müəllim və işçi heyətinin peşəkar inkişafına dəstək vermək.*

Sözügedən strateji hədəfə nail olmaq məqsədilə Strateji Planda aşağıdakı 2 strateji məqsəd və 7 alt hədəf müəyyən edilmişdir:

3.1. Professor-müəllim və işçi heyətənin düzgün seçilməsini və davamlı təlimini təmin etmək:

*3.1.1. Elmi dərəcəsi olan, müasir səviyyədə tədqiqat aparan professor-müəllim heyətinin şəffaf və obyektiv seçilməsi üçün mexanizm hazırlamaq;*

*3.1.2. Təlim-tədris prosesini müasir tələblərinə uyğun təşkil etmək məqsədilə professor-müəllim heyəti üçün davamlı təlim və inkişaf proqramını təşkil etmək;*

*3.1.3. Bu prosesləri tənzimləyən daxili normativ sənədlərin təkmilləşdirilməsini təmin etmək.*

3.2. Yüksək səviyyəli professor-müəllim və işçi heyətinin universitetlə uzunmüddətli əməkdaşlıqlarını təmin etmək üçün zəmin yaratmaq:

*3.2.1. Professor-müəllim və işçi heyətinin universitetlə əmək və tərəfdaşlıq münasibətlərini tənzimləyən mexanizmlər hazırlayıb təklif etmək;*

*3.2.2. Professor-müəllim və işçi heyətini əlverişli şərtlərlə müxtəlif yerli və beynəlxalq layihələrə cəlb etmək;*

*3.2.3. Professor-müəllim və işçi heyətinin əmək fəaliyyətinin dəyərləndirilmə mexanizmlərini hazırlamaq və sistemli şəkildə tətbiq etmək;*

*3.2.4. Professor-müəllim heyətini tədqiqat, beynəlxalq təmsilçilik, innovativ sahibkarlıq və s. universiteti təbliğ edən fəaliyyətlərini maddi və texniki dəstəklə təmin etmək.*

Lakin ATM-in strateji hədəf, məqsəd və alt hədəflərinin icra vəziyyətinin müəyyənləşdirilməsi məqsədilə aparılmış təhlillər nəticəsində sözügedən istiqamətlərdə hesabat dövrünü əhatə edən illər üzrə icra olunan fəaliyyətlərin inkişaf dinamikasının müəyyən edilməsi və nəticələrin rəqəmsal olaraq qeyd edilməsində çətinliklərin olduğu müşahidə edilmişdir.

Nəticə olaraq, ATM-in akademik və inzibati heyəti əsasən strateji plan və maliyyə resursları nəzərə alınmaqla planlaşdırılsa da, sözügedən istiqamətdə optimallaşdırmanın (məsələn, Keyfiyyət Təminatı Mərkəzinin işçi heyətinin sayının artırılması, sabit kadr potensialının formalaşdırılması və s.) aparılması tövsiyə olunur.

### 5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

Özünütəhlil Hesabatında differensiallaşdırılmış əməkhaqqı sistemi barədə qeydlərin olmamasına baxmayaraq ATM-ə sahə səfəri zamanı təşkil olunmuş müsahibələr və müvafiq sənədlərin təhlili nəticəsində Xəzər Universitetində akademik heyətin performansının qiymətləndirilməsi məqsədilə differensial əməkhaqqı mexanizminin tətbiq edildiyi məlum olmuşdur.

Müsahibələr zamanı ATM nümayəndələri tərəfindən verilmiş məlumata əsasən yeni işçilərin qəbulu zamanı ilkin mərhələdə ştat cədvəlində nəzərdə tutulmuş əmək haqqının minimum həddi müəyyənləşdirilir. Fəaliyyət müddətində göstərdiyi performansa və digər nailiyyətlərə görə (impakt-faktorlu jurnallarda məqalə dərc olunması və s.) akademik heyətin əməkhaqqında müvafiq dəyişikliklər edilir.

İnzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi üçün differensial əməkhaqqı sisteminin tətbiq olunmadığı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilməmişdir.

### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

Xəzər universitetində işçilərin motivasiyası və mükafatlandırılması məqsədilə aşağıdakıı tədbirlər həyata keçirilmişdir:

- Professor-müəllim heyətinin xidməti fəaliyyətinin qiymətləndirilməsinə əsaslanan differensial əməkhaqqı sisteminin tətbiqi;
- 2017-ci ildən etibarən “ilin ən yaxşı işçisi”nin mükafatlandırma sisteminin tətbiqi.

İnzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi üçün differensial əməkhaqqı sisteminin tətbiq olunmadığı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilməmişdir.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

Xəzər Universitetində professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi differensial əməkhaqqı sisteminə əsasən həyata keçirilir. Özünütəhlil Hesabatında və ATM nümayəndələri ilə təşkil olunmuş müsahibələr zamanı qeyd olunmuşdur ki, professor-müəllim heyətinin mükafatlandırılmasında elmi-tədqiqat işlərinin nəticələri həlledici rol oynayır. Bu isə dövr üzrə necə və hansı tezliklə fəaliyyətin monitorinqinin aparıldığını müəyyən etməyə imkan vermir. Əlavə olaraq qeyd etmək lazımdır ki, 2017-ci ildən etibarən "ilin ən yaxşı işçisi"nin mükafatlandırma sistemi tətbiq edilir.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

ATM-də işçilərin peşəkarlıq səviyyəsinin artırılması Xəzər Universitetinin Strateji Planında əsas hədəflərdən (Strateji Hədəf 3) biri kimi müəyyən edilmişdir. Sözügedən hədəfə nail olmaq üçün həm beynəlxalq əməkdaşlıq sahəsində həyata keçirilən layihələr çərçivəsində işçilərin təlimlərdə iştirakı təmin edilir, həm də ATM-də işçilərin peşəkarlıq səviyyəsinin artırılması üçün təlimlər təşkil edilir.

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

Xəzər Universitetində işçilərə münasibətdə sosial və mədəni tədbirlərin təşkil olunduğu müşahidə edilmişdir. Özünütəhlil Hesabatında qeyd olunur ki, sözügedən istiqamətdə fəaliyyətlər əsasən Musiqi və incəsənət departamenti tərəfindən təşkil olunur. Departament nəzdində kamera orkestri fəaliyyət göstərir. İl ərzində həm bayram günləri ərəfəsində, həm də xüsusi günlər üçün təşkil olunan və orkestrin müşayiəti ilə keçirilən mədəni tədbirlər ATM işçiləri və tələbələr üçün açıq olur. Tədbirlərin əksəriyyəti Nizami korpusunda yerləşən "Fikrət Əmirov" adına konfrans zalında keçirilir.

Mədəni tədbirlərlə yanaşı ATM-də cəmiyyətin aktual sosial mövzu və problemlərinə həsr olunan tədbirlər də təşkil olunur. ATM-də bugünədək Elm və Sənət Məclisinin 76 məşğələsi keçirilmişdir. Elm və Sənət Məclisində aktual mövzulara həsr olunmuş müzakirələr aparılır, ölkənin tanınmış alimləri və sənət adamları dəvət edilir.

### 5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

Xəzər Universitetinin "Əsasnamələr və qaydalar toplusu"nda "Qeyri-akademik vəzifələrə təyin olunma Qaydaları" müəyyən edilmişdir. Sözügedən Qaydalara əsasən qeyri-akademik heyətin işə qəbulu aşağıdakı formada tənzimlənir:

- İşçilərin qeyri-akademik vəzifələrə təyin olunması bilavasitə rektorun əmri ilə həyata keçirilir;
- Ştat cədvəlində boş olan vakansiya yeri üçün həmin vəzifəyə irəli sürülən tələblər göstərilməklə elan hazırlanır və kütləvi informasiya vasitələrində yerləşdirilir;
- Əgər ştat cədvəlində qurum üçün vəzifə ştat vahidi nəzərdə tutulmayan halda qurum rəhbəri tərəfindən qarşıya qoyulan məqsəd və vəzifələrin yerinə yetirilməsi üçün ehtiyac duyulan vəzifə ştat vahidlərinin ayrılması barədə ATM rəhbərliyinə müraciət edilir;
- Müraciətə müsbət cavab verildikdə həmin vəzifəyə irəli sürülən tələblər göstərilməklə elan hazırlanır və kütləvi informasiya vasitələrində yerləşdirilir.

#### 5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

İnzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi üçün differensial əməkhaqqı sisteminin tətbiq olunmadığı və inzibati heyətin fəaliyyətinin qiymətləndirilməsi meyarlarının müəyyən olunmadığı ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilməmişdir.

#### 5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti

Azərbaycan Respublikasının Əmək Məcəlləsi və digər müvafiq qanunvericiliyin tələbləri nəzərə alınmaqla əmək münasibətləri və mülki münasibətlərin bağlanması və xitam verilməsi həyata keçirilir.

ATM-in nümayəndələri ilə təşkil olunmuş müsahibələr zamanı bəzi struktur bölmələrin əməkdaşlarının vəzifə öhdəlikləri barədə məlumatlılıq səviyyəsinin artırılması tövsiyə olunur.

### *5.3 Maliyyə resurslarının idarə edilməsi*

#### 5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmitədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu

Xəzər Universitetinin maliyyə resursları aşağıdakı mənbələr hesabına formalaşır:

- Təhsil haqqı;
- Elmi tədqiqat;
- Qrantlar.

Qeyd etmək lazımdır ki, ATM-in maliyyə resurslarının mənbələri onun Nizamnaməsi ilə uyğunluq təşkil edir.

#### 5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

Özünütəhlil Hesabatında Xəzər Universitetinin illik və 5 illik maliyyə planlarının hazırlandığı və illik planların daha detallı və konkret xarakter daşıdığı qeyd olunmuşdur. Eyni zamanda, Strateji Planda müəyyən edilmiş hədəflərə müvafiq olaraq maliyyə planının hazırlandığı qeyd olunmuşdur. Lakin strateji fəaliyyətlərin icrası üçün zəruri maliyyə planı Strateji Planda müəyyən edilməmişdir. Növbəti dövr üçün hazırlanacaq Strateji Planda SİP-in maliyyə təminatının ATM-in büdcə planlaşmasında nəzərə alınması tövsiyə olunur.

### 5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, maliyyə resurslarının istifadəsinə nəzarəti ATM-in təsisçisi və ya onun səlahiyyət verdiyi şəxs həyata keçirir. Həmçinin qeyd olunur ki, Xəzər Universitetinin Strateji Planına əsasən departamentlərin inkişaf planı və plandan irəli gələn ehtiyaclara uyğun həcmdə resursların ayrılması üçün şəffaf və ədalətli mexanizmlərin hazırlanmasını təmin etmək Xəzər Universitetin əsas hədəf istiqamətlərindən biridir.

Sözügedən istiqamətdə risklərin planlaşdırılması və idarə edilməsi üzrə təkmilləşdirmə tədbirlərinə ehtiyacın olduğu Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.

### 5.3.4 Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının vəziyyəti

ATM-ə sahə səfəri zamanı aparılmış müsahibələr və müvafiq sənədlərin təhlili nəticəsində məlum olmuşdur ki, Xəzər Universitetinin ödənişli təhsillə yanaşı aşağıdakı mənbələrdən də maliyyə resursları əldə etmək imkanı vardır:

- Hüquqi və fiziki şəxslər, o cümlədən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslərin qanunvericiliyə uyğun olaraq verilən qrantları, vəsiyyət olunan vəsaitləri, ianələri və yardımları;
- Müsabiqə əsasında dövlət tərəfindən ayrılan elmi tədqiqat qrantları;
- ATM-in təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və qanunvericiliklə müəyyən edilmiş digər xidmətlərdən əldə etdiyi vəsaitlər;
- Hüquqi və fiziki şəxslərin müqavilə əsasında mütəxəssis hazırlığı, ixtisasartırma və kadrların yenidən hazırlanması üçün ayırdıqları vəsait;
- Dövlət orqanları tərəfindən maliyyələşdirilən məqsədli proqramlar və layihələr üzrə əldə olunan vəsaitlər;
- ATM-in mülkiyyətində olan köhnəlmiş avadanlığın, nəqliyyat vasitələrinin və təhsil məqsədləri üçün yararsız olan digər əmlakın satışından qanunvericiliyə uyğun olaraq əldə edilən vəsaitlər;
- ATM-in beynəlxalq əməkdaşlıq nəticəsində qanunvericiliyə uyğun olaraq əldə etdiyi qrantlar və vəsaitlər;
- Qanunvericiliklə qadağan edilməyən digər mənbələrdən əldə olunan vəsaitlər.

Əlavə olaraq qeyd etmək lazımdır ki, Xəzər Universiteti həm də innovasiya və sahibkarlığın inkişafı üçün müxtəlif mənbələrdən maliyyə resurslarının cəlb olunması istiqamətində də işlər görür.

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

Özünütəhlil Hesabatına əsasən və aparılmış təhlillər nəticəsində Xəzər Universitetində maliyyə resurslarının şəffaflığının aşağıdakı formalarda təmin edildiyi müəyyən olunmuşdur:

- Ödənişli əsaslarla təhsil alan yerli və əcnəbi tələbələrdən təhsil haqqı qəbul zamanı tələbələrlə bağlanılmış müqavilə əsasında bank hesabına köçürülür, dövlət sifarişi ilə təhsilalan, eyni zamanda ödənişli əsaslarla daxil olmuş, lakin dövlət hesabına təhsil alan imtiyazlı tələbələrin təhsil haqqı isə Nazirlər Kabinetinin 2010-cu il tarixli 120 nömrəli Qərarına əsasən hər bir təhsilalana düşən illik təhsil xərci əsasında müəyyən edilib hər il təqdim edilmiş hesabat əsasında Maliyyə Nazirliyinin təsdiq etdiyi büdcə hesabına Elm və Təhsil Nazirliyi tərəfindən bank hesabına köçürülür;
- Qrant və ianələr, qrantın qeydiyyatı sənədi və ATM-lə qarşı tərəf arasında bağlanılmış müqavilə əsasında bank hesabına daxil olur;
- Elmi tədqiqat nəticəsində əldə olunan maliyyə resursları Xəzər Universitetinin təsisçisi olduğu EİLİNK Cəmiyyəti tərəfindən təsisçi qərarı əsasında bank hesabına daxil olur;
- İcarədən, İSBN kodların satışından, balansda olan əmlakın, avadanlıqların, nəqliyyat vasitələrinin satışından və digər qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən maliyyə resursları müqavilələr, qiymət razılaşdırma protokolu və təqdim edilmiş elektron qaimələr əsasında bank hesabına daxil olur.

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

Özünütəhlil Hesabatında qeyd olunur ki, Xəzər Universitetinin Nizamnaməsinə uyğun olaraq ATM-in əmlakı təsisçilər, hüquqi və fiziki şəxslər tərəfindən onun mülkiyyətinə və ya istifadəsinə verilən, eləcə də qanunvericiliklə qadağan olunmayan və Nizamnamədə öz əksini tapan fəaliyyəti nəticəsində əldə etdiyi əmlakdan, o cümlədən ona məxsus əqli mülkiyyət məhsullarından ibarətdir. ATM mülkiyyəti və istifadəsində olan əmlakın saxlanılması, qorunması və səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

Özünütəhlil Hesabatında maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə sonuncu büdcə smetasının 2017-2022-ci illəri əhatə etdiyi və ATM-in Nizamnaməsinə uyğun olaraq təsdiqləndiyi qeyd olunmuşdur. Smeta qeyd olunmuş dövr üzrə ümumi gəlirləri, xərcləri, hər birinin komponentlərini və il sonuna qalan mənfəəti göstərir.

Hər il üzrə ümumi gəlirin hesablanması ondan əvvəlki ilin bir təhsilalana düşən gəlirinin cari ilin təhsilalan sayına vurulması ilə əldə edilir. Ümumi xərclərin bir qismi - əməkhaqqı xərcləri

– ötən ilin müvafiq gəlirinin (ümumi) müəyyən olunmuş faiz hissəsi qədər hesablanır. Digər xərclər isə nəzərdə tutulan, planlaşdırılan işlər və əvvəlki ilin göstəriciləri nəzərə alınaraq hesablanır.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

Xəzər Universitetinin maliyyə resurslarının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarət təsisçi və ya onun səlahiyyət verdiyi şəxs tərəfindən həyata keçirilir. Həmçinin, ATM-in maliyyə resurslarından təyinatı üzrə istifadəsinə nəzarəti həyata keçirtmək üçün hər il müəssisədən kənar audit dəvət olunur.

Universitetdə müntəzəm olaraq həyata keçirilən xarici auditlə yanaşı daxili audit də aparılır. Belə ki, ATM-in idarəetmə və tələbə işləri üzrə prorektorunun rəhbərliyi ilə maliyyə departamenitinin fəaliyyəti təftiş edilir, ehtiyac duyulduqda maliyyə mütəxəssisi və mühasibin cəlbi ilə lokal yoxlamalar aparılır.

Həyata keçirilmiş audit hesabatları ATM-in mühasibatlıq strukturunda saxlanılır və onun rəsmi internet səhifəsində əlçatanlığı təmin olunur.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilir.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

Xəzər Universitetində malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə həyata keçirilən maliyyə və mühasibatlıq əməliyyatları Azərbaycan Respublikasının “Mühasibat Uçotu haqqında Qanun”a uyğun olaraq təşkil edilir.

### 5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

Xəzər Universiteti tərəfindən hər il aşağıda qeyd olunmuş aidiyyəti qurumlara maliyyə hesabatları təqdim edilir:

*Vergilər Nazirliyinə:*

- “Mənfəət vergisi bəyannaməsi” və “Əmlak vergisi bəyannaməsi”;
- “Torpaq vergisi bəyannaməsi”;
- “Əlavə dəyər vergisi bəyannaməsi”;

- “Ödəmə mənbəyindən tutulan vergilər bəyannaməsi”.

*Elm və Təhsil Nazirliyinə:*

- Növbəti ilin büdcəsinin təstiqlənməsi üçün təhsil və təqaüd xərclərinin tələb olunan məbləği ilə bağlı hesabat;
- “Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil qrantının məbləğinin təsdiq edilməsi haqqında” hesabat;
- Hər ayın sonu bakalavriat, magistratura, doktorantura səviyyələri və valideyn himayəsi üzrə cəmi təqaüd məbləği, gələcəyin müəllimi tələbələrinin təqaüd məbləği ilə bağlı sifariş forması;
- Rüblük və illik olaraq “Büdcə təşkilatları və dövlət büdcəsindən maliyyə yardımı alan təşkilatlar üçün büdcə vəsaitlərindən istifadə barədə hesabat”.

### 5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti

“Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli, 97 nömrəli qərarın 5.1.1-ci yarımbəndinə əsasən illik maliyyə hesabatı və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları auditor rəyi ilə birlikdə Xəzər Universitetinin rəsmi internet səhifəsində dərc olunmuşdur:

- https://khazar.org/en/news/6489 (2018);
- https://khazar.org/az/news/5032 (2019);
- https://khazar.org/az/news/5505 (2020);
- https://khazar.org/az/news/6101 (2021).

### 5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu

Xəzər Universitetində müstəqil audit bölməsi mövcud deyildir. Özünütəhlil Hesabatında ATM-in İdarəetmə və tələbə işləri üzrə prorektorunun rəhbərliyi ilə maliyyə departamenitinin fəaliyyətinin təftiş edildiyi, ehtiyac olduğu halda maliyyə mütəxəssi və mühasibin cəlbi ilə lokal yoxlamaların aparıldığı qeyd olunsa da, bununla bağlı sənədlər Akkreditasiya Komissiyasına təqdim edilməmişdir.

### 5.3.14 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu

Xəzər Universitetində maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar audit rəyləri və hesabatları hər il ATM-in rəsmi internet saytında dərc olunur:

- 31 dekabr 2018-ci il tarixinə Maliyyə hesabatları və Müstəqil Auditor rəyi 30 oktyabr 2020-ci ildə (https://khazar.org/en/news/6489);
- 31 dekabr 2019-cu il tarixinə Maliyyə hesabatları və Müstəqil Auditor rəyi 30 oktyabr 2020-ci ildə (https://khazar.org/az/news/5032);
- 31 dekabr 2020-ci il tarixinə Maliyyə hesabatları və Müstəqil Auditor rəyi 23 sentyabr 2021-ci ildə (https://khazar.org/az/news/5505);
- 31 dekabr 2021-ci il tarixinə Maliyyə hesabatları və Müstəqil Auditor rəyi 20 iyul 2022-ci ildə əldə edilmişdir (https://khazar.org/az/news/6101).

#### 5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

Xəzər Universitetinin maliyyə resurslarının əsas hissəsi dövlətin, əhalinin və həmçinin, xarici ölkələrdən gələn tələbələrin ödədiyi təhsil haqqı hesabına formalaşır. ATM-in xərclərinin əhəmiyyətli hissəsi əməkhaqqı və ona bərabər tutulan xərclərə yönəlir.

Qeyd etmək lazımdır ki, ATM müxtəlif beynəlxalq proqramlarda iştirak etməklə Avropa İttifaqının ayırdığı qrantlar hesabına insan resursları, tələbələrin aldığı təhsilin keyfiyyəti və maddi resurslarla təminatının təkmilləşdirilməsi istiqamətində tədbirlər görür.

### *5.4 İnformasiya idarəetmə sistemi*

#### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

Xəzər Universitetində informasiya idarəetmə sistemindən istifadəyə 1994-cü ildən başlanılmışdır. 2014-cü ildə SIMS (Student Information Management System) tədrisin elektron idarə edilməsi sistemi (http://sims.khazar.org/) istifadəyə verilmiş, ATM-in 2019-2023-cü illər üçün “Keyfiyyət təminatı siyasəti”nin 9-cu prioritetinə əsasən 2021-ci ildə sözügedən platforma təkmilləşdirilmiş və Bolonya prinsiplərinə uyğunlaşdırılaraq əhatəsi genişləndirilmişdir. Sistemin istifadəsinə dair “SIMS avtomatlaşdırılmış informasiya sistemi üzrə istifadəçilər üçün Qaydalar” 01 noyabr 2021-ci il tarixində təsdiq edilmişdir. Müvafiq sənədlə “SIMS” istifadəçilərinin kateqoriyaları, onların səlahiyyətləri, funksiyaları, sistemin təminat növləri, o cümlədən istifadəçinin kvalifikasiyasına olan tələblər və məsuliyyətlər tənzimlənir. Müvafiq sistemin istifadəçiləri və onlara verilən səlahiyyətlər reqlamentlərlə müəyyən olunmuşdur.

Özünütəhlil Hesabatında qeyd olunan “SİNAM Müəssisə Resurslarının İdarə Edilməsi Sistemi - SERP” proqram təminatı ilə bağlı əməliyyatların icrası haqqında məlumatlar Akkreditasiya Komissiyası tərəfindən ATM-ə sahə səfəri zamanı müəyyən edilə bilməmişdir.

Universitetdaxili ümumi kargüzarlıqla bağlı sənədləşmənin isə korporativ e-maillər vasitəsilə aparıldığı məlum olmuşdur. Mövcud prosesin avtomatlaşdırılması, daxili kommunikasiyanın rasionallaşdırılması üçün ümumi kargüzarlıq işlərinin elektron sənəd dövriyyəsi vasitəsilə aparılması tövsiyə olunur.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

ATM-də istifadə olunan SIMS platforması tədrisin idarə edilməsinin əksər funksiyalarını əhatə edir və sözügedən platforma vasitəsilə üç əsas istiqamət üzrə (idarəetmə, müəllim (ABİS) və tələbə (OBİS) kabinetləri) aşağıdakı funksiyalar həyata keçirilir:

- Tələbə məlumatlarının saxlanılması və emalı, arayışların və müxtəlif sənədlərin verilməsi;
- Fənlərə dair məlumatın qeydiyyatı, fərdi tədris planların formalaşdırılması;
- Semestrlər üzrə tələbələrin fənlərə qeydiyyatı;
- Məzunların uçotu və tələbə işlərinin arxivləşdirilməsi;
- Diplom əlavəsinin verilməsi;
- Tədris planları, semestrdə açılacaq fənlər, cədvəllər və s. haqqında məlumatların verilməsi;
- Təhsilə dair digər məlumatların uçotu və emalı;
- Bal bölgüsü, elektron jurnal, fənlər üzrə tapşırıqların yerinə yetirilməsinin, aralıq və yekun imtahan nəticələrinin, apelyasiya müraciət və nəticələrinin qeydiyyatı;
- Transfer.

Müvafiq istiqamətdə insan resurslarının idarəedilməsi sisteminin də təkmilləşdirilməsi Akkreditasiya komissiyası tərəfindən tövsiyə olunur.

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

Özünütəhlil Hesabatında ATM-də informasiya idarəetmə sistemində səlahiyyət bölgüsünün “SIMS reqlamenti” və “SERP reqlamenti” sənədlərində öz əksini tapması qeyd olunmuşdur.

“SIMS”-də fəaliyyətlərinin xarakterinə və müraciət edə bildikləri bölmələrə görə istifadəçilər aşağıdakı kateqoriyalara bölünürlər:

- **Rektor və prorektorlar** – sistemdə olan bütün məlumatlara müraciət etmə və baxış;
- **Keyfiyyət Təminatı Mərkəzinin rəhbəri** – sistemdə olan bütün məlumatlara müraciət etmə, baxış, müxtəlif növ hesabatların və statistik məlumatların əldə edilməsi;
- **Dekan və dekanlıq işçisi** – qeydiyyatdan keçən tələbələrin və məzunların sayı, tələbə bölməsi, tələbə dərsləri, tədris planı, tələbə müraciətləri, statistika, istifadəçi, tariflər və sorğular;
- **Qəbul və tələbə şöbəsi** – tələbə hərəkətləri;
- **Tələbə qeydiyyatı və məlumat şöbəsi** - imtahan nəticələrinin və digər əlaqəli məlumatların sistemə yerləşdirilməsi;
- **Müəllim** – dərs cədvəli, bal bölgüsü, qiymətin daxil edilməsi, elektron jurnal, imtahan protokolu, imtahan nəticələri;

- **Tələbə** - qeydiyyat, dərs cədvəli, semestr qiymətləri, imtahana müraciət, apellyasiya, dekanlığa müraciət, transkript və s.

Sahə səfəri zamanı Özünütəhlil Hesabatında qeyd olunmuş “SİNAM Müəssisə Resurslarının İdarə Edilməsi Sistemi - SERP” proqram təminatının istifadəsi ilə bağlı Akkreditasiya Komissiyasının müşahidə apara bilməməsi səbəbindən müvafiq platformada idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu ilə bağlı qeydlərin aparılmasında çətinlik yaşanmışdır.

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

ATM-də təlim və tədris prosesinin rəqəmsallaşdırılması SIMS platforması ilə yanaşı kompüter sinifləri (virtual laboratoriyalar), proyektorlar, ağıllı lövhələr və müxtəlif multimedia avadanlığı vasitəsilə də həyata keçirilir.

Tədris prosesində Xəzər Universitetində aşağıdakı rəqəmsal üsul və texnologiyalar tətbiq edilir:

- Blended Learning - Qarışıq Öyrənmə (Onlayn kursların mühazirələrində iştirak, sinifdə müəllimlə müzakirə və praktiki tapşırıqların yerinə yetirilməsi);
- Adaptive Learning - Adaptiv Öyrənmə (Big Data və süni intellekt (ML və AI) alətlərin istifadəsi nəticəsində, tədris materialların mənimsənilməsi barədə məlumatlar əsasında qeyri-xətti irəliləyiş metodikası vasitəsilə tələbənin bilik səviyyəsinə görə uyğunlaşdırılmış tədris kursların hazırlanması);
- Müxtəlif fənlər üzrə simulyator və trenajor proqram təminatları;
- Virtual laboratoriyalar (MatLab, LabVIEW, Aspen Hysys, Schlumberger Petrel, Techlog, Eclipse və s.);
- Tədqiqat işlərinin plagiat yoxlanılması (StrikePlagiarism);
- Bulud texnologiyaların tədris prosesində tətbiqi (Google Classroom, Microsoft Teams, Google Cloud Platform, Microsoft Azure, Amazon Web Services, Oracle Cloud).

Həmçinin, Xəzər Universitetində “Microsoft Teams”, “Google Classroom”, “Zoom”, “Go To Meeting” rəqəmsal xidmətlərindən də müxtəlif məqsədlərlə (təqdimatlar, vebinarlar, virtual sinif otaqları, videokonfranslar) istifadə olunur.

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

Xəzər Universitetinə qəbul olan hər bir tələbəyə SIMS platformasında qeydiyyatdan keçmək üçün fərdi istifadəçi adı və şifrə təqdim olunur, Microsoft Teams platformasına daxil olmaq üçün korporativ elektron poçt hesabı açılır. Müvafiq sistemlərdən istifadənin əlçatanlığı tələbələr üçün zəruri məlumatların və təlim-tədris materiallarının rahat əldə edilməsini təmin edir.

Hal-hazırda ATM-də LMS “Moodle” platformasına 350-dən artıq tələbə, professor-müəllim heyəti və əməkdaş qeydiyyatdan keçmişdir ki, onlar üçün aşağıdakı tədris kurslarının istifadəsinin əlçatanlığı təmin edilir:

- Strategic Business Communications (Strateji biznes kommunikasiyalar);
- Historical and Philosophical Foundations of Education (Təhsil tarixi və fəlsəfi əsasları);
- Introduction to Education (Təhsilə giriş);
- Design, Innovation and Entrepreneurship (Dizayn, innovasiya və sahibkarlıq);
- ICT in Education (Təhsildə İKT);
- Curriculum and Assessment Strategy (Təhsil proqamları və qiymətləndirmə strategiyaları);
- Leadership and Organizational Behavior (Liderlik və təşkilati davranış);
- Teaching and Learning in HEIs (Ali təhsildə tədris və öyrənmə);
- CMS101 Introduction to Computer Science (Spring) (CMS101 Kompüter elmlərinə giriş (Yaz);
- CMS101 Introduction to Computer Science (Fall) (CMS101 Kompüter elmlərinə giriş (Payız) və s.

ATM-ə sahə səfəri zamanı akkreditasiya komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə “İnformasiya idarəetmə sistemindən (SIMS, rəsmi sayt) istifadədə problem yaşamıram, Universitetin internetlə təminatında problem yoxdur” məsələsinə tələbələrin 84 nəfəri “tamamilə razıyam”, 72 nəfəri “razıyam”, 66 nəfəri “qismən razıyam”, 16 nəfəri “razı deyiləm”, 26 nəfəri isə “qətiyyən razı deyiləm” cavabı vermiş, 5 nəfəri isə cavab verməkdən imtina etmişdir:




***Qrafik 40. Akkreditasiya Komissiyasının təşkil etdiyi sorğunun 5.4.5-ci indikator üzrə nəticəsi***

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Xəzər Universitetinin bütün tələbələri üçün informasiya idarəetmə sisteminə əlçatanlılığın təmin edilməsi tövsiyə olunur.

### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

Xəzər Universitetində tətbiq olunan SIMS platforması vasitəsilə tədris prosesinin əksər sahələri idarə olunur, tələbə hərəkəti tənzimlənir, müxtəlif növ statistik hesabatlar hazırlanır və sorğular keçirilir. Müvafiq olaraq təhsilin keyfiyyətinin müxtəlif aspektləri təhlil edilir və uyğun qərarlar qəbul olunur.

ATM-də məmnunluq səviyyəsinin ölçülməsi məqsədilə son 5 il ərzində müxtəlif platformalar (SIMS, SurveyMonkey, Google Form) vasitəsilə 30 sorğu aparılmış, sorğuların

nəticəsinin təhlili zamanı çatışmazlıqlar müəyyən edilmiş, Elmi Şurada sözügedən məsələlər müzakirə olunmuş və onların təhlili nəticəsində müvafiq addımlar atılmışdır (Mənbə: ATM-in təqdim etdiyi “Sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi” cədvəli).

Lakin sahə səfəri zamanı araşdırılmış sənədlərə əsasən bəzi məsələlərin sorğusu aparılsa da (məsələn, “Qazanılmış peşə kompetensiyalarının əmək bazarının tələblərinə uyğunluğu”, “Fənlər üzrə məmnunluq” və s.) , onların müzakirəsi və görülmüş tədbirlər barədə məlumatlar əldə edilməmişdir.

### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

Özünütəhlil Hesabatında dövlət qurumlarının (ETN, DİM) informasiya sistemləri ilə inteqrasiyası barədə məlumatlar yer almasa da, Akkreditasiya Komissiyasının təcrübəsinə əsasən “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununun 14.17-1-ci yarımbəndinə (*Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələri “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”nə qoşulmalıdırlar*) müvafiq olaraq Xəzər Universitetinin Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sisteminin (https://ali.tmis.edu.az/) müxtəlif portalları vasitəsilə aşağıdakı sistemlərə inteqrasiyası mövcud olmalıdır:

- Dövlət və təhsil sənədləri (diplom təsdiq sistemi) - https://dts.edu.az/;
- SHƏQ tələbələrin müraciətləri - https://portal.edu.az/;
- Virtual Universitet - https://teams.microsoft.com/;
- Ali və orta ixtisas təhsili müəssisələrinin informasiya sistemi - https://atis.edu.az/.

Həmçinin, müvafiq qanunun 14.18-ci bəndinə (*Azərbaycan Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri qanunvericiliyə uyğun olaraq “Tələbə-məzun” dövlət elektron məlumat sisteminə qoşulmalıdır*) əsasən ATM tələbə-məzun dövlət elektron məlumat sisteminə (http://tmms.gov.az/) və Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına “Təhsil tələbə kreditlərinin verilməsi informasiya sistemi”nə (https://www.e-ttkf.edu.az/) də inteqrasiya edilmişdir.

Digər ATM-lərə və ya digər ATM-lərdən Xəzər Universitetinə köçürülmək istəyən tələbələr isə “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, tibb təhsilinin əsas tibb təhsili və orta ixtisas təhsili üzrə təhsilalanların köçürülməsi sistemi” (https://www.transfer.edu.az/) vasitəsilə transfer ola bilirlər.

ATM-də qeyd olunan sistemlərlə bağlı daimi işin aparılması və müvafiq qurumlar tərəfindən təqdim olunan təlimlərdə aktiv iştirak edilməsi Akkreditasiya komissiyası tərəfindən tövsiyə edilir.

### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

Xəzər Universitetində informasiya idarəetmə sisteminin təhlükəsizliyi aşağıdakı formada həyata keçirilir:

- Universitetin giriş və çıxış trafikinin monitorinqi aparılır;
- Aktual zərərverici resurslar bloklan və onlardan gələn sorğular qadağan olunur;
- Həm serverlərdə, həm də istifadəçilərdə son nəsil antiviruslar fəaliyyət göstərir;
- Bazalar daimi mərkəzləşdirilmiş formada yenilənir;
- Şəxsi məlumatlara malik olan resurslara qoşulmada trafikin şifrələnməsi SSL və digər sertifikatların dəstəyi ilə həyata keçirilir;
- Daxili şəxsi məlumatlar toplayan resurslara xaricdən qoşulmalar şifrələnmiş VPN dəstəyi ilə təmin olunur;
- Qabaqlayıcı rezervləşdirilmə nüsxələrin və resursların ani nüsxələrinin yaradılaraq toplanılması həyata keçirilir.

Müvafiq indikatorla bağlı preventiv tədbirlərin görülməsi və risklərin planlaşdırılması sahəsində qısa və ortamüddətli fəaliyyət planının təsdiq edilməsi tövsiyə edilir.

## *5.5 İctimaiyyətlə əlaqələr*

### 5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti

Xəzər Universitetinin azərbaycan və ingilis dillərində fəaliyyət göstərən rəsmi internet saytı (www.khazar.org) mövcuddur. Saytda panellər üzrə ATM haqqında ümumi məlumat, akademik, qəbul, tədqiqat, nəşr xəbərləri, xəbər/elan, beynəlxalq əlaqə, ISBN xidmətləri, məzunlar haqqında məlumat, kitabxana resursları, tələbə həyatı haqqında məlumat, eiLink, SIMS platformasına giriş, webmail və əlaqə məlumatları qeyd edilmişdir.

Həmçinin, saytda ATM-in təşkilati və akademik strukturu, müəllim və işçi heyəti məlumatları, qəbul qaydaları və şərtləri, kadr hazırlığı aparılan ixtisaslar, onlar haqqında ətraflı məlumatlar, bütün potensial yerli və xarici tələbələrin maraqlandığı prosedur və keyfiyyət məsələləri ilə bağlı digər məlumatların maraqlı tərəflər üçün əlçatanlığı təmin olunur.

### 5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti

Xəzər Universitetinin rəsmi internet saytında məlumatların mütəmadi olaraq yenilənməsi və "Ana səhifə" vasitəsilə xəbərlər-elanlar şəklində ictimaiyyətə əlçatanlığı təmin edilir.

Saytda paylaşılan məlumatların aktuallığına, xəbərlərin mütəmadi olaraq yenilənməsinə sözügedən istiqamətdə fəaliyyət göstərən komanda vasitəsilə xüsusi diqqət verilir. ATM daxilində keçiriləcək seminar və konfranslar, başlayacaq layihələr və tələbə təqaüdləri barədə xəbər və elanlar saytın ana səhifəsində daim yenilənir. Eyni zamanda, digər xarici ATM-lərlə birgə əməkdaşlıq çərçivəsində təşkil edilən mübadilə proqramları, kurslar, təcrübə proqramları barədə xəbərlər də ana səhifədə işıqlandırılır. Saytda həmçinin "Vakansiyalar" bölməsi də yer almışdır.

Lakin saytın bəzi bölmələrində məlumatların son 3 ili əhatə etdiyi və bir neçə bölmənin yalnız ingilis dilində təqdim olunduğu, xüsusilə "Akademik siyasət" bölməsində "Xəzər Universitetində Kredit Sistemi" barədə məlumatlarda (https://khazar.org/az/item/151) AR NK-nin "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb

təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili" Qaydaları ilə uyğunsuzluq aşkarlanmışdır.

Xəzər Universitetinin rəsmi internet saytında bütün məlumatların "azərbaycan" versiyasının olması, bütün bölmələr üzrə öncəki dövrlərə aid məlumatların arxivlənərək ictimaiyyət üçün açıq edilməsi, kredit sistemi barədə təqdim olunan məlumatların Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsaslanması tövsiyə olunur.

### 5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti

Xəzər Universitetində ictimaiyyətin məlumatlandırılması korporativ elektron poçt, poçt, müxtəlif məzmunlu ənənəvi və onlayn görüşlər vasitəsilə həyata keçirilir.

Ayda bir dəfə "Xəzər xəbər" jurnalı nəşr edilir ki, onun həm ATM daxilində, həm də kənar oxucular tərəfindən əldə edilməsi mümkündür. Jurnal elektron və kağız formada dərc edilərək Xəzər Universitetinin akademik və sosial həyatına dair məlumatları özündə əks etdirir (http://khazar-review.khazar.org/).

### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti

ATM-də ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planı mövcuddur ki, müvafiq plan "Xəzər Universiteti ictimai əlaqələr və media qurumu"nun Əsasnaməsinə uyğun həyata keçirilir. Əsasnaməyə əsasən qurumun fəaliyyəti 4 istiqamət üzrə həyata keçirilir: universitetdaxili, universitetdənkənar,universitet yayımları və araşdırma fəaliyyəti.

Həmçinin, Xəzər Universitetində ictimaiyyətin məlumatlandırılması ilə bağlı aşağıdakı sənədlər komissiyaya baxış üçün təqdim olunmuşdur:

- "Xəzər Universitetində Rəsmi Görüşlərin və Tədbirlərinin Keçirilməsi Haqqında Əsasnamə";
- "İctimai Əlaqələr və Media Qurumunda görülmüş işlər haqqında Hesabat";
- "İctimaiyyət və iş dünyası ilə əlaqələr departamentinin illik hesabatı".

Müvafiq istiqamətdə əldə edilən statistik məlumatların təhlil və monitorinqinin genişləndirilməsi tövsiyə olunur.

### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

Xəzər Universitetinin rəsmi elektron poçt ünvanı, sosial şəbəkələri və əlaqə nömrələrinə daxil olan müraciətlər araşdırılaraq cavablandırılır.

Həmçinin, ATM Elm və Təhsil Nazirliyinin əməkdaşları və digər ATM-lərin nümayəndələri ilə birgə WhatsApp platformasında ATM-PR-ETN adlı qrupda fəaliyyət göstərir ki, Xəzər Universitetinin nümayəndələri də 2 ildir bu qrupun üzvüdür. Müvafiq qrup kommunikasiyanın asanlaşdırılmasına xidmət etməklə ATM-in fəaliyyəti ilə bağlı yaranan suallara birbaşa cavab verilməsinə şərait yaradır.

Həmçinin, ATM-də təhsilalanlar, məzunlar, əmək bazarı nümayəndələri, akademik heyət, inzibati və tədris-köməkçi heyət arasında məmnunluq səviyyəsinin ölçülməsi məqsədilə müxtəlif məzmunlu sorğular keçirilir. Müvafiq istiqamətdə digər maraqlı tərəflərlər arasında da (məsələn, KİV, abituriyentlər, valideynlər, tərəfdaş ATM-lər və s.) sorğuların keçirilməsi tövsiyə olunur.

### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

Xəzər Universitetinin məlumatlandırma fəaliyyəti və monitorinqi ATM-in İctimaiyyətlə əlaqələr və media şöbəsi tərəfindən həyata keçirilir. Həmçinin, şöbə mətbuatda dərc edilən məlumatları toplayaraq ATM-in Mətbuat arxivində saxlayır. Hesabat dövründə ATM-in rəsmi internet saytında yerləşdirilmiş xəbərlərə dair statistik məlumatlar sahə səfəri zamanı müvafiq bölmə tərəfindən Akkreditasiya Komissiyasına təqdim edilmişdir.




***Qrafik 41. ATM-in intermet saytında yerləşdirilmiş xəbərlər haqqında müqayisəli statistika***

Cədvəldən də göründüyü ki, pandemiya və post-pandemiya dövründə xəbərlərin yerləşdirilmə göstəricilərində azalma dinamikası müşahidə olunsa da, son ildə göstərici kifayət qədər yüksək olmuşdur.

Həmçinin, ATM Kalibri sistemi vasitəsilə yerli və dünya mediasında Xəzər Universiteti ilə bağlı yazılan xəbərləri real vaxt rejimində ATM-in müvafiq strukturunun məlumat bazasına yığılmasını təşkil edir. Sözügedən sistem vasitəsilə ATM mütəmadi olaraq xəbərləri monitorinq etməklə çatışmayan və ya zəif tərəflərini müəyyən etmək və onların üzərində işləmək imkanı əldə edir. Müvafiq istiqamətdə qısa və ortamüddətli monitorinq planının təsdiqlənməsi tövsiyə edilir.

## 6. İNFRASTRUKTUR

*6.1 Tədris infrastrukturu*

### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

Özünütəhlil Hesabatında tədris prosesinin 3 tədris binasında (Neftçilər korpusu, Nizami korpusu və Dünya Məktəbi) aparıldığı qeyd olunsa da, ATM-ə sahə səfəri zamanı tədris prosesinin 2 tədris binasında (Neftçilər korpusu və Nizami korpusu) təşkil olunduğu, Dünya Məktəbində isə tələbələrin istehsalat təcrübəsinin keçirildiyi Akkreditasiya Komissiyası

tərəfindən müəyyən edilmişdir. ATM-də tədris prosesinin təşkil olunduğu binaların ümumi sahəsi 9446 kv.m. olmaqla hər təhsilalana düşən fatiki sahə 2,7 kv.m. təşkil edir.

Tədris binaları və tədris otaqlarının vəziyyətinin ATM-də tədrisin təşkili üçün qənaətbəxş olduğu müşahidə edilmişdir. Xəzər Universitetinin Özünütəhlil Hesabatına əlavə olaraq təqdim edilmiş sənədlərin təhlili əsasında ATM-də mühazirə və məşğələ dərsləri üçün nəzərdə tutulmuş auditoriyaların sayının 76 və sahəsinin 3467,85 kv.m. təşkil etdiyi müəyyən edilmişdir. Mövcud sahə təlim-tədris prosesinin təşkili üçün həm sahə (hər təhsilalana düşən fatiki sahə 0,99 kv.m.), həm də say nisbətinə görə (5 fakültə üçün cəmi 100 olmalıdır) azdır (AR NK-nın 2012-ci il 3 avqust tarixli, 171 nömrəli Qərarının (https://e-qanun.az/framework/24095) 5.3.4-cü yarımbəndi). Həmçinin, hər fakültə üçün sahəsi geniş olan (130 $m^2$) 100 nəfərlik auditoriyaya ehtiyac duyulur.

ATM-ə sahə səfəri zamanı baxış keçirilən auditoriyaların kompyuter və zəruri texniki avadanlıqlarla təchiz olunması əyani formada müşahidə edilmişdir. Xəzər Universitetinin müvafiq qaydada təchiz edilmiş və ümumi sahəsi 180 kv.m. olan 4 ədəd tədris kabineti və emalatxanası da mövcuddur.

İnzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu 66 (ümumi sahəsi 1479,06 kv.m.), akademik heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu isə 30 (ümumi sahəsi 617,8 kv.m., hər müəllimə düşən faktiki sahə 1,83 kv.m.) otaq təşkil edir. İnzibati heyət üçün ayrılmış bəzi otaqların təmirə ehtiyacının olduğu ATM-ə sahə səfəri zamanı müşahidə edilmişdir.

### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

Xəzər Universitetində kitabxananın ümumi sahəsi 642 kv.m. təşkil edir ki, onun da hər təhsilalana (təhsilalan sayı – 3501 nəfər) düşən sahəsi 0,19 kv.m., kitabxanada qeydiyyatda olanlara (qeydiyyatda olan – 2748 nəfər) nisbətdə isə 0,23 kv.m. təşkil edir. Kitabxanada internetə qoşulmuş kompüterlərin sayı 27 ədəd, oxu zallarında oxucular üçün ayrılmış yerlərin sayı 166 ədəd təşkil edir.

Kitabxanalarda virtual və əyani sərgi sahələri mövcuddur ki, müvafiq zonalarda yeni nəşrlər və əlamətdar günlərlə bağlı vacib məsələlər istifadəçilərin nəzərinə çatdırılır.

Kitabxana İnformasiya Mərkəzində elektron-informasiya xidmətləri, komplektləşdirmə, kataloqlaşma, sorğu-məlumat və xidmət (abonement) şöbələri vardır. Həmçinin, mərkəzdə aşağıdakı elektron sistemlər xidmət göstərir:

- Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS) – Follett Destiny (Electron Catalog) https://khazaruniversity.follettdestiny.com;
- Elektron arxiv – Dspace (Institutional Repository) (http://dspace.khazar.org);
- Elektron kitabxana – Calibre (eLibrary) (http://elib.khazar.org);
- Elektron portfolio – Mahara (ePortfolio) – tələbə, magistrant, doktorant və tədqiqatçıların elektron portfolio şəklində elmi işlərinin nəticələrini qiymətləndirmək və təhlil etmək üçün (https://eportfolio.khazar.org).

Həmçinin, mərkəzin internet səhifəsində müxtəlif onlayn elektron resurslar haqqında məlumat yerləşdirilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 aprel tarixli, 87 saylı "Təhsil müəssisəsinin maddi-texniki bazası və təhsil infrastrukturu normativləri"nin təsdiq edilməsi haqqında və 2012-ci il 3 avqust tarixli, 171 saylı "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nin təsdiq edilməsi haqqında Qərarlarına əsasən kitabxananın sahəsi bir tələbəyə 0,6 kv.m. hesablanmaqla müəyyən edilməlidir.

### 6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

Xəzər Universitetində spesifik ixtisaslar üçün uyğunlaşdırılmış tədris və elmi-tədqiqat laboratoriyaları, xüsusi təyinatlı auditoriyalar, eləcə də mərkəz və institutlar (Türk Dünyası Araşdırmalar Mərkəzi - TİKA, Avropa İttifaqı Araşdırmalar Mərkəzi, Təlim və Tədris Mərkəzi, Təhsil Siyasəti İnstitutu, Asiya-Sakit Okean və Afrika Araşdırmalar İnstitutu) fəaliyyət göstərir. Sahə səfəri zamanı müvafiq auditoriyalara baxış keçirilmiş və avadanlıqların işlək vəziyyətdə olduğu müşahidə edilmişdir.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

ATM-də mövcud ixtisaslar üzrə təlim və tədris prosesinin həyata keçirilməsinə xidmət edən ümumilikdə 7 tədris laboratoriyası mövcuddur ki, onların da ümumi sahəsi 339,39 kv.m. təşkil edir. Sahə səfəri zamanı tədris və elmi-tədqiqat laboratoriyalarının müvafiq avadanlıqlarla təchiz olunduğu, onların yararlı vəziyyətdə olduğu və tələbə-müəllim heyəti tərəfindən mütəmadi istifadə edildiyi müşahidə olunmuşdur.

***Cədvəl 26. İxtisas departamentləri üzrə mövcud olan tədris-tədqiqat laboratoriyaları***

| № | Departament | Laboratoriyanın adı |
|---|---|---|
| 1. | Fizika və elektronika | Ümumi fizika və alternativ enerji laboratoriyası |
| | | Elektronika, telekommunikasiya və radiomühəndislik laboratoriyası |
| 2. | İnşaat mühəndisliyi | İnşaat materialları sınağı laboratoriyası |
| 3. | Neft mühəndisliyi | Neft və qaz mühəndisliyi laboratoriyası |
| | | Neft və qaz yataqlarının kompüter simulyasiyası laboratoriyası |
| 4. | Həyat elmləri | Hüceyrə patologiyasının tədqiqat mərkəzi laboratoriyası |
| 5. | Kimya və kimya mühəndisliyi | Analitik kimya laboratoriyası, |
| | | Nanotexnologiya laboratoriyası |
| 6. | Mexanika mühəndisliyi | Mexanika mühəndisliyi laboratoriyası |

Qeyd etmək lazımdır ki, mövcud laboratoriyaların idarəedilməsi onların Əsasnaməsinə uyğun təşkil edilir.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

Xəzər Universitetində daxili resurslar hesabına istehsalat-təcrübə bazası kimi Humanitar, təhsil və sosial elmlər fakültəsində pedaqoji təcrübə üçün Dünya məktəbi, Turizm və otelçilik (turizm işinin təşkili) ixtisasının istehsalat təcrübəsi üçün Buzovna kampusu istifadə olunur.

Həmçinin, tələbələr üçün istehsalat təcrübəsini aparmaq məqsədilə aparıcı şirkət və müəssisələrlə müqavilələr bağlanmışdır. Tələbələr SOCAR, SİNAM, Radio-Televiziya Yayım və Peyk Rabitəsi İstehsalat Birliyi, ENKOTEK və digər şirkətlər, Heydər Əliyev adına Bakı Neft Emalı zavodu, Texnopark və İnformasiya Texnologiyaları İnstitutu, Aztelekom MMC-yə aid rabitə qovşaqları, Baku Steel Company, STP MMC, Socar Methanol, Pilot İnşaat MMC, Standard Insurance, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatı, Crocusoft MMC, Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikası Milli Məclisi, Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunda istehsalat təcrübəsi keçirlər.

### 6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

Xəzər Universitetində 2010-cu ildən etibarən elektron kursların yaradılması, onlayn quizin keçirilməsi, zəruri informasiya resurslarının yerləşdirilməsi, mövzular ətrafında müzakirənin keçirilməsi və s. məqsədilə Moodle onlayn platforması fəaliyyət göstərir. Mövcud platformada müxtəlif ixtisaslar üçün 30-dan çox e-kurslar yaradılmış və platformanın əhatəsinin genişləndirilməsi nəzərdə tutulmuşdur.

Pandemiya dövründə bütün kursların MS Teams, Zoom, Google platformaları üzərindən onlayn şəkildə tədrisi təşkil olunmuş, müvafiq fənlər üzrə elektron materiallar tələbələr üçün Teams platformasında tələbə kabinetlərində yerləşdirilmişdir.

Dərslərin səmərəli təşkili üçün texniki fənləri tədris edən müəllimlərə onlayn dərs zamanı istifadə üçün tabletlər təqdim edilmişdir. Hal-hazırda ATM-də distant təhsil aparılmasa da, bu platformalardan istifadə edilərək vörkşop, seminar və hibrid formada konfransların keçirilməsi reallaşdırılır. Həmçinin, dərslərdə mütəmadi olaraq MS Teams vasitəsilə Dövlət Proqramı ilə xaricdə təhsil alan doktarant və qonaq professorların onlayn seminarları keçirilir.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

ATM-in balansında müəyyən tədbirlərdə istifadə olunması üçün professor-müəllim heyəti və digər əməkdaşların istifadəsində 2 ədəd 4 nəfərlik minik avtomobili, 1 ədəd 17 nəfərlik avtobus mövcuddur. Ehtiyac duyulduğu halda əlavə nəqliyyat vasitələri kənardan cəlb olunur.

Həmçinin, tədris binalarının yerləşdiyi ərazilər üzrə təhsilalanların, professor-müəllim və inzibati heyətin, o cümlədən qonaqların ATM-in binasına getməsi üçün ictimai nəqliyyat əlçatandır.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

ATM-in bütün tədris binalarında mövcud tədris infrastrukturu təhsilalan və əməkdaşlar üçün əlçatandır. Belə ki, tələbələr və professor-müəllim heyəti tədris infrastrukurundan (dərs otaqları, laboratoriyalar və kompüter mərkəzləri) rahat şəkildə istifadə edirlər.

Tələbələrin kitabxananın elektron resurslarına kənardan daxil olub istifadə edə bilməsi üçün əlçatanlıq təmin edilmişdir. Kitabxana 1, 3 və 5-ci günlər saat 9:00-dan 18:00-a kimi, 2 və 4-cü günlər saat 9:00-dan 20:00-a kimi, 6-cı günlər isə saat 9:00-dan 15:00-a kimi fəaliyyət göstərir.

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

Xəzər Universitetində 23 iyun 2015-ci il tarixindən Avropa İttifaqının "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyası" layihəsi çərçivəsində "Fiziki məhdudiyyəti olan tələbələr üçün Mərkəz" fəaliyyət göstərir. Mərkəzin maddi resurs və avadanlıqları layihə çərçivəsində yaradılmış, onların davamlılığı mərkəz tərəfindən təmin olunmuş və layihə başa çatdıqdan sonra ATM-in mülkiyyətinə çevrilmişdir. Həmçinin, ATM-də əlilliyi olan tələbələrə dəstək və xidmət göstərmək üçün Təlimatlar toplusu çap edilmişdir ki, müvafiq toplunun içərisində tədris zamanı müəllimlərin tam və ya qismən görmə qabiliyyətini itirmiş, fiziki və nitq məhdudiyyəti olan tələbələrlə davranışı haqqında təlimatlar mövcuddur.

Xəzər Universitetində sağlamlıq imkanları məhdud şəxslərin binaya daxil olması üçün Neftçilər korpusunun yeni binasının girişində lift (ramp) mövcuddur. Fiziki məhdudiyyətli tələbələr üçün dəsrlərin planlaşdırılması (dərs otaqları, dərslərin və imtahanların keçirilmə üsulları) müvafiq dekanlıqlarla həyata keçirilir.

Görmə məhdudiyyəti olan tələbələr üçün zəruri halda tədris materiallarının brayl əlifbasına çevrilməsi həyata keçirilir və fərdi dərslər təşkil edilir. İmtahan zamanı sualların oxunması üçün skaner aparatı və yazılması üçün uyğunlaşdırılmış klaviatura mövcuddur.

Əsas tədris binasında (Neftçilər korpusu) yeməkxanaya liftlə düşmək imkanı olsa da, yeməkxananın əsas hissəsindən əlil arabasında olan tələbələrin istifadəsində çətinlik mövcuddur. ATM-in digər tədris binasında (Nizami korpusu) isə inkluziv qrupa aid tələbələr üçün uyğunlaşdırılmış tədris infrastrukturu müşahidə edilməmişdir.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatı və ona əlavə olaraq təqdim edilmiş sənədlərdə Xəzər Universitetin ümumi sahəsi 980,88 kv.m. olan 3 yeməkxanasının mövcud olduğu qeyd edilmişdir (hər təhsilana düşən faktiki sahə 0,28 kv.m.).

Qüvvədə olan müvafiq qanunvericiliyə (AR NK 2012-ci il 23 aprel tarixli, 87 saylı Qərarı, https://e-qanun.az/framework/23420) əsasən əsas tədris binasında (Neftçilər korpusu) yerləşən yeməkxanada qida qəbulu zalı, mətbəx istehsalat və köməkçi otaqları, bufet mövcuddur və sanitar normalara cavab verir. Digər tədris binasında (Nizami korpusu) isə bufet fəaliyyət göstərir.

ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda təhsil alan 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə "Yeməkxananın fəaliyyətindən, təmizliyindən və qiymətlərdən razıyam" məsələsinə tələbələrin 36 nəfəri "tamamilə razıyam", 58 nəfəri "razıyam", 65 nəfəri "qismən razıyam", 52 nəfəri "razı

deyiləm", 49 nəfəri isə "qətiyyən razı deyiləm" cavabı vermiş, 9 nəfəri isə cavab verməkdən imtina etmişdir:




***Qrafik 42. Akkreditasiya Komissiyasının təşkil etdiyi sorğunun 6.1.10-cu indikator üzrə nəticəsi***

Qüvvədə olan müvafiq qanunvericiliyə əsaslanaraq, yeməkxanalarda oturma yerlərinin tələbə sayına nisbətdə (0,29 kv.m.) uyğunlaşdırılması (AR NK 2012-ci il 3 avqust tarixli, 171 saylı Qərarının 5.3.20-ci yarımbəndi: "Ali təhsil müəssisələrində bufetlərin və yeməkxanaların nəzdində tələbələrin 2 növbədə 100 faiz yerləşdirilməsi əsas qəbul edilməklə, ümumi sahəsi 1 yerə 1,6 kv.m. hesablanmış yemək qəbulu zalı nəzərdə tutulur") və yeməkxanada təklif edilən məhsullar üzrə qiymətlərə yenidən baxılması tövsiyə edilir.

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

Xəzər Universitetinin Neftçilər korpusuna yaxın ərazidə Şirin Mirzəyev 32 ünvanında ümumi sahəsi 1500 kv. m. olan üç mərtəbəli qonaq evi və yataqxana mövcuddur.

Sahə səfəri zamanı Xəzər Universitetinin tələbə yataqxanasının həm yerli, həm də əcnəbi tələbələr, eləcə də əcnəbi professor-müəllim heyəti üçün istifadəyə yararlı olması müşahidə edilmişdir. İstifadəçilər üçün zəruri avadanlıq və xidmətlər təklif olunur, təhlükəsizliyin təmin edilməsi məqsədilə yataqxana kameralarla təchiz olunmuşdur, 24/7 video nəzarətdədir və mühafizə xidməti mövcuddur.

Həmçinin, yataqxanaya baxış keçirilərkən tələbələr üçün (kişi və qadınlar üçün ayrı-ayrılıqda) soyuducu və çamaşırxana xidmətinin olduğu müşahidə edilmişdir. Yataqxana ümumilikdə sanitar-gigiyenik normalara cavab verir və otaqların təchizatı qənaətbəxşdir.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

ATM-in əsas tədris binasında (Neftçilər korpusu) Tibbi yardım mərkəzi mövcuddur və əsasən ilk tibbi yardım kimi xidmət göstərir. Tibbi yardım mərkəzi şənbə və bazar günü istisna olmaqla hər gün saat 9:00-dan 18:00-a qədər açıqdır. Sahə səfəri zamanı mərkəzin sanitar-gigiyenik normalara cavab verdiyi, ATM-in öz daxili maliyyə resursları hesabına əksər lazımi ilkin tibbi avadanlıqlarla təchiz olunduğu müşahidə edilmişdir. Əlavə olaraq, Xəzər Psixoloji Xidmət Mərkəzi vasitəsilə sosial və psixoloji dəstək də təmin olunur.

ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda təhsil alan 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə "Tibbi xidmətin fəaliyyətindən razıyam və lazım olanda istifadə edirəm" məsələsinə tələbələrin 67 nəfəri "tamamilə razıyam", 85 nəfəri "razıyam", 44 nəfəri "qismən razıyam", 11 nəfəri "razı

deyiləm", 14 nəfəri isə "qətiyyən razı deyiləm" cavabı vermiş, 48 nəfəri isə cavab verməkdən imtina etmişdir:




***Qrafik 43. Akkreditasiya Komissiyasının təşkil etdiyi sorğunun 6.1.12-ci indikator üzrə nəticəsi***

Sahə səfəri zamanı ATM-in digər tədris binasında (Nizami korpusu) tibbi mərkəz qeydə alınmamışdır. Binada yalnız tələbələr və ptofessor-müəllim heyəti üçün ilkin tibbi ləvazimatlar çantası mövcuddur.

ATM-in Nizami korpusunda tibbi xidmət otağının təşkil edilməsi və tibb xidmətlərindən bütün tələbələrin istifadə etməsi üçün mütəmadi məlumatlandırmanın aparılması tövsiyə olunur.

### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

ATM-in hər iki tədris binasında İnformasiya texnologiyaları departamentinin nəzarətində olan kompyuter otaqları mövcuddur, professor-müəllim heyəti, inzibati heyət və təhsilalanlar tərəfindən istifadəsində əlçatanlıq təmin olunur.

Korpuslar üzrə əksər dərs auditoriyası internetlə təchiz olunmuş, xüsusi fiber-optik internet xətti çəkilmiş, internet şəbəkəsinə simsiz rabitə kanalları vasitəsilə sürətli çıxış təmin olunmuşdur. Həmçinin, ATM ərazisi sürətli wi-fi ilə təchiz olunmuşdur.

Sözügedən departamentin fəaliyyət istiqamətləri aşağıdakı kimidir:

- Serverlərin istisması;
- İnformasiya Sistemlərinin istisması;
- İnformasiya təhlükəsizliyinin qorunması;
- İstifadəçilərin təhlükəsizliyi.

Xəzər Universitetində müxtəlif rəqəmsal texnologiyalardan (kompüter sinifləri (virtual laboratoriyalar), proyektorlar, ağıllı lövhələr və s.) istifadə olunur.

### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması vəziyyəti

Xəzər Universitetində tədris infrastruktunun istifadəsi və istifadəyə yararlılığının monitorinqi hər tədris ilinin sonunda aparılır. Ehtiyac olduqda dərs otaqları və kompyuter laboratoriyalarında istifadə olunan kompyuter və proyektorlar yeniləri ilə əvəzlənir. Auditoriya, laboratoriya, departament otaqları, kitabxana, sanitar qovşaqları və digər xidməti otaqların gündəlik təmizliyi sahə səfəri zamanı müşahidə edilmişdir.

Hər tədris ilinin sonunda tədris laboratoriyalarında departamentlərdən gələn təqdimatlar əsasında növbəti tədris ilində tədris zamanı lazım olacaq yeni avadanlıqların (laboratoriya

cihazlarları, əlavə detallar, kompüterlərə lazımi proqramların alınıb quraşdırılması) siyahısı hazırlanır və onların yeni dərs ili üçün məsul qurum tərəfindən alınıb yerləşdirilməsi təşkil edilir.

Bir neçə tədris laboratoriyalarında müşahidə edilsə də, digər otaqlarda da "auditoriyalardan istifadə qaydaları" haqqında məlumat lövhələrinin olması məqsədəuyğun olardı.

### *6.2. Elmi-tədqiqat infrastrukturu*

### 6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

Xəzər Universitetinin İnnovasiya Mərkəzinin fəaliyyəti elmi-tədqiqat mərkəzlərinin, müvafiq qurumların yerli və xarici tərəfdaşlarla elmi-tədqiqat, tədris və istehsalat sahəsində innovativ fəaliyyətin həyata keçirilməsi və inkişaf etdirilməsinə yönəlmişdir. Mərkəzin əsas məqsədi biznes dünyası ilə ATM arasında qarşılıqlı əlaqələr sistemini təşkil etməkdir. Mərkəz tələbələrə sənaye ilə birbaşa təcrübə və araşdırma imkanları təklif edir.

Son beş ildə Mərkəzin rəhbərliyi ilə tələbələr müxtəlif startap layihələrində, Hakathon, Robototexnika və Teknofest müsabiqələrində çıxış etmiş (Robotetexnika və Teknofest üzrə ölkə təmsilçiləri olmuşlar) və qaliblər sırasına yüksəlmişdirlər.

Həm Mərkəzin nümayəndələri ilə müsahibə, həm də Mərkəzə sahə səfəri zamanı müvafiq qurumun tələbələrin müasir texnologiyalara əsaslanan tədqiqatlara maraq yaratmağı baxımından böyük gələcək vəd etdiyi müşahidə edilmişdir.

Xəzər Universitetinin 2018-2023-cü illəri əhatə edən Strateji Planının birinci və yeddinci ("Aparıcı tədqiqat yönümlü Universitetə çevrilmək", "Universitet-sənaye münasibətlərini universitetin tədqiqat, innovasiya və sahibkarlıq imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək") bəndlərinə nail olmaq məqsədilə ATM-də elmi-tədqiqat mərkəzlərinin maddi-texniki bazasının gücləndirilməsi tövsiyə olunur.

### 6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

Xəzər Universitetində müxtəlif sahələrdə tədqiqatların aparılmasına xidmət edən, uyğun avadanlıqlarla ixtisaslaşmış aşağıdakı elmi-tədqiqat laboratoriyaları fəaliyyət göstərir:

- Neft və qaz mühəndisliyi laboratoriyası;
- İnşaat materialları sınağı laboratoriyası;
- Alternativ enerji laboratoriyası;
- Neft və qaz yataqlarının kompüter simulyasiyası laboratoriyası;
- Hüceyrə patologiyası tədqiqat mərkəzi;
- Nanotexnologiya laboratoriyası;
- eiLink Tədqiqat və İnkişaf Mərkəzi - eiLink (Education Industry Link) Tədqiqat və İnkişaf Mərkəzi, Neft Mühəndisləri Cəmiyyətinin Azərbaycan bölməsi (NMC) dəstəyi ilə 2015-ci ilin dekabr ayında Xəzər Universitetində yaradılmışdır.

ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyasının 4 qrup üzrə müxtəlif ixtisaslarda təhsil alan 269 tələbə arasında təşkil etdiyi anket sorğusunda müvafiq indikator üzrə "Dərslər zamanı elmi-tədqiqat və ixtisas laboratoriyalarından istifadə təmin olunur və təzhizatı yaxşı səviyyədədir" məsələsinə tələbələrin 53 nəfəri "tamamilə razıyam", 71 nəfəri "razıyam", 67 nəfəri "qismən razıyam", 22 nəfəri "razı deyiləm", 16 nəfəri isə "qətiyyən razı deyiləm" cavabı vermiş, 31 nəfəri isə cavab verməkdən imtina etmişdir. Sorğuya müvafiq olaraq dərslər zamanı laboratoriyalara səfər edilmiş, lakin müvafiq auditoriyalarda yalnız mühazirə dərsləri müşahidə edildiyindən, laborator tədqiqatlarla bağlı komissiya fikir formalaşdıra bilməmişdir.

Xəzər Universitetinin 2018-2023-cü illəri əhatə edən Strateji Planının birinci və yeddinci ("Aparıcı tədqiqat yönümlü Universitetə çevrilmək", "Universitet-sənaye münasibətlərini universitetin tədqiqat, innovasiya və sahibkarlıq imkanlarının inkişafı istiqamətində təkmilləşdirmək") bəndlərinə nail olmaq və elmi tədqiqatlardan maliyyə əldə etmək üçün laboratoriyaların pasportlaşdırılmasının aparılması və tədris prosesində, xüsusilə praktik və laboratoriya dərslərində müvafiq auditoriyaların təyinatına uyğun davamlı istifadəsi tövsiyə olunur.

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

### *7.1 Beynəlmiləlləşmə siyasəti*

#### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

ATM-in Strateji Planının "Missiya" və "Gələcəyə baxış" bölmələri, strateji hədəf 1.4 ("*Elmi tədqiqatın inkişafı üçün beynəlxalq əməkdaşlıqları genişləndirmək*") və strateji məqsəd 4 ("*Universitetin beynəlmiləlləşmə siyasətini gücləndirmək*") Xəzər Universitetinin beynəlmiləlləşmə siyasəti istiqamətində qarşıya qoyulan hədəfləri (5 hədəf, 13 alt hədəf) özündə ehtiva edir.

ATM-də beynəlmiləlləşmə proseslərinin "Xəzər Universitetinin Beynəlmiləlləşmə Strategiyası (2019-2023)" sənədinə müvafiq olaraq həyata keçirildiyi ATM-ə sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müşahidə edilmişdir (https://khazar.org/uploads/centers/Quality_Assurance_Center/files/Beynelmilellishme_Strategiyasi.pdf).

ATM-in Beynəlmiləlləşmə Strategiyası Xəzər Universitetinin Strateji Planına əsasən uyğunlaşdırılmışdır.

***Cədvəl 27. Beynəlmiləlləşmə Strategiyasının Strateji Plana uyğunluğu vəziyyəti***

| Beynəlmiləlləşmə Strategiyası (2019-2023)<br>Strateji hədəflər | Strateji Plan (2018-2023)<br>Strateji hədəflər |
|---|---|
| 1. Beynəlmiləl Universitetə çevrilmək; | 4.3. Universitetin beynəlxalq reytinqlərdə mövqeyini gücləndirmək;<br>4.4. Universitetdə formalaşmış beynəlmiləl mühitin inkişafını davam etdirmək. |
| 2. Azərbaycan və onun beynəlxalq tərəfdaşları | 4.1. Beynəlxalq əməkdaşlıqların yenilənməsi, |

| | |
|---|---|
| arasında müsbət sosial-iqtisadi qarşılıqlı əlaqənin yaradılması; | möhkəmlənməsi və yeni əməkdaşlıqların qurulmasını təmin etmək;<br>4.2. Universitetin beynəlxalq proqramlar, qrant müsabiqələri və digər yarışmalarda uğurlu iştirakını təmin etmək. |
| 3. Elmi tədqiqatın inkişafı üçün beynəlxalq əməkdaşlıq şəbəkəsini genişləndirmək. | 1.4. Elmi tədqiqatın inkişafı üçün beynəlxalq əməkdaşlıqları genişləndirmək. |

### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

ATM-də mübadilə proqramlarının təşviqi təhsilalanlar üçün Strateji Planın 4.1.2-ci (“*Tələbə mübadilə proqramlarını genişləndirib, mübadilədə iştirak edəcək tələbələrin sayını artırmaq”*), təhsilverənlər üçün 4.1.3-cü *(“Mübadilə proqramında iştirak edən müəllim və işçi heyətinin sayını artırmaq”*) alt hədəflərinə, Beynəlmiləlləşmə Strategiyasının 2-ci strateji hədəfinə uyğun həyata keçirilir və ATM-in rəsmi internet səhifəsində maraqlı tərəflər üçün əlçatanlığı ingilis dilində təmin edilir (http://international.khazar.org/study-abroad/).

ATM-də hesabat dövründə təhsilalanların mübadilə proqramlarında iştirak səviyyəsi barədə məlumat aşağıdakı qrafiklərdə verilmişdir:




***Qrafik 44. Beynəlxalq mübadilə proqramlarında iştirak edən tələbələrin sayı***




***Qrafik 45. Beynəlmiləlləşmə proqramlarında iştirak edən təhsilalanların ümumi təhsilalanlara nisbətdə payı (%)***




***Qrafik 46. Mübadilə proqramları vasitəsilə gələn əcnəbi tələbələrin ümumi tələbə sayına nisbətdə payı (%)***

Yuxarıdakı qrafiklərdən də göründüyü kimi, mübadilə proqramlarında iştirak etmiş təhsilalanların sayının 2020-2021-ci illərdə pandemiya səbəbindən azalması müşahidə edilmiş, postpandemiya dövründə də (2022-ci il) əsasən mənfi dinamika izlənilmişdir.

Akademik və inzibati heyət üzrə mübadilə proqramlarında iştirak edənlərin sayının 2020-2021-ci illərdə pandemiya səbəbindən azalmasına baxmayaraq, 2022-ci ildə yenidən müsbət dinamika izlənilmişdir.




***Qrafik 47. Beynəlxalq mübadilə proqramlarında iştirak edən akademik və inzibati heyətin sayı***




***Qrafik 48. Akademik fəaliyyətlə bağlı ən azı 1 semestri xarici ATM-də keçirmiş müəllim sayının ümumi müəllim sayına nisbəti (%)***




***Qrafik 49. Mübadilə proqramlarında iştirak etmiş inzibati heyətin sayının ümumi inzibati heyətin sayına nisbəti (%)***

Mübadilə proqramları barədə ATM-in rəsmi internet səhifəsində verilən məlumatların azərbaycan dilində də əlçatanlığının təmin edilməsi tövsiyə olunur.

### 7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların təşviq olunma vəziyyəti

ATM-də əcnəbi təhsilalanların təşviqi Strateji Planın 4.4-cü və Beynəlmiləlləşmə Strategiyasının 1-ci strateji hədəfinə uyğun həyata keçirilir. Əcnəbi təhsilalanların cəlbi məqsədilə ATM-də aşağıdakı vasitələrdən istifadə olunur:

- Təqaüd imkanlarının təklif edilməsi (Nailəxanım Fondu);
- Akademik göstəricilərə uyğun təhsil haqqı ödənişində güzəştlərin (25%, 50%, 75%) tətbiq olunması;
- Təhsil sammitlərində təmsil olunma (Avrasiya Ali Təhsil Sammiti (EURIE));
- Təhsil sərgilərində iştirak;
- Təhsil platformalarında təbliğat (Keystone Group, 47659 tələbə);
- Səfirlik, diaspora ilə əlaqə saxlanılması (10 ölkə üzrə 370 qurum) və s.




***Qrafik 50. Keystone platforması vasitəsilə təbliğatın əhatə etdiyi əcnəbi tələbə sayı (nəfər)***

Təbliğat nəticəsində son 5 ildə Xəzər Universitetində təhsil alan əcnəbi tələbələrin sayında artım dinamikası izlənilir.




***Qrafik 51. Xəzər Universitetində təhsil alan əcnəbi tələbələrin 2018-2022-ci illər üzrə dinamikası (nəfər)***




***Qrafik 52. Xəzər Universitetində təhsil alan əcnəbi tələbələrin 2018-2022-ci illər üzrə ümumi tələbə sayına nisbəti (%)***

### 7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

Xəzər Universitetində əcnəbi professor-müəllim heyətinin təlim-tədris prosesinə cəlbi mübadilə proqramları və xarici ölkələrin ATM-ləri ilə (Türkiyə, Ukrayna, Özbəkistan, Rusiya, Qazaxıstan, Latviya, Litva, Bolqarıstan, Çili və s.) əməkdaşlıq vasitəsilə həyata keçirilir.

2018-2022-ci illər üzrə ATM-in beynəlxalq əməkdaşlıq memorandumlarının dinamikasında pandemiya dövründə azalma müşahidə edilsə də, 2022-ci ildə sürətli artım dinamikası izlənilmişdir:




***Qrafik 53. Xəzər Universitetinin beynəlxalq əməkdaşlıq memorandumlarının dinamikası (ədəd)***

Həmçinin, ölkələr üzrə əməkdaşlıq dinamikasına nəzər yetirildikdə Türkiyə və İran universitetlərinin üstünlük təşkil etdiyi müşahidə edilir:




***Qrafik 54. Beynəlxalq əməkdaşlıq memorandumlarının ölkələr üzrə dinamikası (ədəd)***

### 7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

ATM-in beynəlxalq tədqiqatçılarla bağlı beynəlmiləlləşmə siyasəti Strateji Planda 1.1.1-ci ("*Yüksək keyfiyyətli tədqiqatçıların işə cəlb edilməsini təmin etmək*") və 1.1.4-cü ("*Ölkədə və xaricdə impakt faktorlu jurnallarda məqalələri dərc olunan tədqiqatçıların ATM-ə cəlb edilməsini təmin etmək*") alt hədəflər, 1.4-cü strateji hədəf ("*Elmi tədqiqatın inkişafı üçün beynəlxalq əməkdaşlıqları genişləndirmək*"), o cümlədən Beynəlmiləlləşmə Strategiyasının 3-cü strateji hədəfinə ("*Elmi tədqiqatın inkişafı üçün beynəlxalq əməkdaşlıq şəbəkəsini genişləndirmək*") uyğun olaraq həyata keçirilir.




***Qrafik 55. Əcnəbi doktorantların dinamikası (nəfər)***

ATM-ə sahə səfəri zamanı Humanitar, təhsil və sosial elmlər fakültəsində Fulbrayt təqaüd proqramı çərçivəsində qonaq professorun fəaliyyət göstərdiyi müşahidə edilmişdir.

### 7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Xəzər Universitetinin beynəlxalq təhsil şəbəkəsi və təşkilatlarla bağlı beynəlmiləlləşmə siyasəti Strateji Planda 4.1-ci ("*Beynəlxalq əməkdaşlıqların yenilənməsini, möhkəmlənməsini və yeni əməkdaşlıqların qurulmasını təmin etmək*") və 4.2-ci strateji hədəflər ("*Universitetin beynəlxalq proqramlarda, qrant müsabiqələrində və digər yarışmalarda uğurlu iştirakını təmin etmək*"), o cümlədən Beynəlmiləlləşmə Strategiyasının 2-ci strateji hədəfinə ("*Azərbaycan və onun beynəlxalq tərəfdaşları arasında müsbət sosial-iqtisadi qarşılıqlı əlaqənin yaradılması*") uyğun olaraq həyata keçirilir.

2021/22-ci tədris ilində ATM aşağıdakı beynəlxalq proqram və qrant müsabiqələrində iştirak etmişdir:

- Oslo Metropolitan və Tbilisi Dövlət Universiteti ilə birgə "Cənubi Qafqaz və Norveçdə akademik mühitdə mədəniyyətlərarası münasibətlər" layihəsi;
- PICASP (Xəzər regionun inkişafını dəstəkləmək məqsədilə universitet-sənaye əməkdaşlığını həyata keçirən Təcrübə Müəssisələri pilot kursları) layihəsi;
- "21-ci əsrdə universitetdən əmək bazarına: işə qəbulolunmada bir addım irəli" ERASMUS+ (UNILAB) layihəsi;
- "Azərbaycanda Rektorlar Konfransının yaradılması" ERASMUS+ (ECAR) layihəsi.

### 7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Xəzər Universitetinin ikili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti Strateji Planda 4.1.1-ci alt hədəf ("*Universitetin ixtisaslarına uyğun olaraq ikili diplom proqramlarının həyata keçirilməsini təmin etmək*") və Beynəlmiləlləşmə Strategiyasının 1-ci strateji hədəfinə ("*Beynəlmiləl Universitetə çevrilmək*") uyğun olaraq həyata keçirilir.

Xəzər Universiteti Braqansa Politexnik İnstitutu (Portuqaliya) ilə əməkdaşlıq çərçivəsində 2018/19-cu tədris ilindən etibarən bakalavr və magistr pillələrində 2 fakültədə təşkil olunmaqla ("Mühəndislik və tətbiqi elmlər" və "İqtisadiyyat və menecment") ümumilikdə 8 ixtisas (ixtisaslaşma) üzrə ikili diplom proqramları təklif edir və maraqlı tərəflər üçün rəsmi internet səhifəsində məlumatların əlçatanlığını təmin edir (http://international.khazar.org/dual-degree/).

***Cədvəl 28. İkili diplom proqramının təklif olunduğu ixtisaslar***

| Bakalavriatura pilləsi üzrə | Magistratura pilləsi üzrə |
|---|---|
| Kompüter elmləri | Kompüter sistemi və şəbəkələri |
| Kompüter mühəndisliyi | Kompüter mühəndisliyi |
| Kimya mühəndisliyi | İnformatika |
| Menecment | MBA (Menecment sahəsi üzrə) |

2018/19-cu tədris ilində ikili diplom proqramı vasitəsilə 3 bakalavr və 1 magistr tələbəsi, 2019/20-ci tədris ilində isə 1 bakalavr tələbəsi təhsilini davam etmişdir (cəmi 5 tələbə, təklif olunan ixtisas (ixtisaslaşma) sayı isə 8-dir).




***Qrafik 56. ATM-də reallaşdırılan birgə təhsil proqramlarının ümumi icra olunan təhsil proqramlarına nisbəti (%)***

ATM-in Özünütəhlil Hesabatında qeyd olunur ki, hal-hazırda ikili diplom proqramları ilə bağlı Okan Universiteti (Türkiyə), Kozminski Universiteti (Polşa), Vistula Universiteti (Polşa) və Hollandiya Biznes Akademiyası (Hollandiya) ilə əlaqə qurulmuşdur və danışıqlar aparılır, lakin Akkreditasiya Komissiyasına müvafiq sənədlər təqdim olunmamışdır.

Qeyd etmək lazımdır ki, 2021/22-ci tədris ilində Strateji Planın icrası üçün Tədbirlər Planının 4-cü fəaliyyət istiqamətində nəzərdə tutulan tədbir ilə (4.1., 2-ci bənd – *Universitetin ixtisaslarına uyğun olaraq ikili diplom həyata keçirilməsi imkanlarının araşdırılması*) bağlı müvafiq tədris ilinin Strateji Planın icrası üzrə hesabatında qeyd olunan istiqamətdə araşdırılma məlumatlarına rast gəlinməmişdir.

Müvafiq indikator üzrə beynəlmiləlləşmə siyasətinə uyğun olaraq ikili diplom proqramlarının digər əməkdaş universitetlər ilə də həyata keçirilmə imkanlarının araşdırılması və müvafiq proqramdan yararlanan tələbələrin sayının artırılması Akkreditasiya Komissiyası tərəfindən tövsiyə olunur.

#### 7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

Özünütəhlil Hesabatında beynəlmiləlləşmə siyasətinin hər 5 ildən bir yeniləndiyi və 2024-2028-ci illəri əhatə edəcək dövr üçün yenilənmiş siyasətin formalaşdırılması prosesinin davam etdiyi qeyd olunur.

Akkreditasiya Komissiyasının sahə səfəri zamanı müşahidələri, müsahibələr və təqdim olunan sənədlərin təhlili əsasında qeyd etmək lazımdır ki, ATM-in beynəlmiləlləşmə siyasəti Xəzər Universitetinin ümumi fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir.

### *7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu*

#### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati strukturun mövcud olması vəziyyəti

Xəzər Universitetində beynəlmiləlləşmə proseslərinin idarə edilməsi ATM-in beynəlxalq əlaqələr üzrə prorektoru tərəfindən həyata keçirilir. Beynəlxalq əlaqələr üzrə prorektor ATM-in rektoruna tabedir. Həmçinin, prorektorluğun tabeliyində işçi heyəti üç koordinatordan ibarət Beynəlxalq əlaqələr ofisi fəaliyyət göstərir. Özünütəhlil Hesabatında beynəlxalq əlaqələr üzrə prorektorun eyni zamanda Beynəlxalq əlaqələr ofisinin rəhbəri vəzifəsini də icra etdiyi qeyd olunmuşdur.

Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üçün mövcud strukturun uyğunluğu Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Lakin sözügedən prorektorun eyni zamanda iki vəzifəni icra etməsi Akkreditasiya Komissiyası tərəfindən məqsədəuyğun hesab edilməmişdir.

#### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

Xəzər Universitetinin beynəlmiləlləşmə üzrə mövcud təşkilati strukturu Strateji Planın missiyası, 4-cü strateji hədəf (“*Universitetin beynəlmiləlləşmə siyasətini gücləndirmək*”) və

ATM-in Beynəlmiləlləşmə Strategiyasında müəyyən olunmuş hədəflərinə nail olmaq üçün əsasən uyğundur.

ATM-in beynəlmiləlləşmə üzrə təşkilati strukturunda fəaliyyətin səmərəliliyinin artırılması üçün koordinatorlar arasında istiqamətlərə uyğun səlahiyyət bölgüsünün (məsələn, beynəlxalq əməkdaşlıq, ikili diplom proqramları, tələbə, müəllim və işçi heyətinin mübadiləsi, beynəlxalq reytinqlərdə təmsilçilik üzrə və s.) aparılması Akkreditasiya Komissiyası tərəfindən tövsiyə olunur.

### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

ATM-də mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması "Kreditlərin transferi (köçürülməsi) haqqında" daxili əsasnamə vasitəsilə tənzimlənir. Bu zaman ERASMUS+ mübadilə proqramı çərçivəsində qabaqcıl tələbələrin seçimi, əməkdaşlıq edilən universitetlərin təhsil proqramlarının Xəzər Universitetinin bakalavr və magistr təhsil proqramlarına uyğunluğu təhlil edilir və müqavilələr imzalanır (Strateji Plan üzrə 2021/22-ci tədris ilinin Tədbirlər Planı - Fəaliyyət istiqaməti – 4, hədəf - 4.1, 3-cü bənd).

Sözügedən proses aşağıdakı mərhələləri əhatə edir:

- Mübadilədən öncə tərəfdaş ATM və Xəzər Universitetinin müvafiq fakültələri arasında institusional müqavilə imzalanır;
- Öyrənmə Müqaviləsində (Learning Agreement) tələbənin tərəfdaş ATM-də tədris olunacaq fənlər və AKTS kreditləri qeyd olunur;
- Mübadilə yekunlaşdıqdan sonra tələbələrin kreditləri imzalanmış Öyrənmə müqaviləsi (Learning Agreement) və tərəfdaş ATM tərəfindən göndərilən transkript əsasında qəbul olunur və tanınır.

### 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

ATM-də əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi Xəzər Universitetinin Beynəlmiləlləşmə Strategiyasına uyğun olaraq aşağıdakı istiqamətlərdə həyata keçirilir:

- Beynəlxalq tərəfdaş müqavilələrində mövcud olan imkanlar əsasında;
- Fərdi müqavilər əsasında işləyən müəllim heyəti vasitəsilə;
- Fulbrayt Təqaüd Proqramı çərçivəsində;
- Digər mübadilə proqramları vasitəsilə.




*Qrafik 57. Müxtəlif proqramlar çərçivəsində cəlb edilən*

***professor-müəllim heyətinin dinamikası (nəfər)***

Qrafikdən də göründüyü kimi, pandemiya dövrü istisna 2018-2022-ci illər üzrə müxtəlif proqramlar çərçivəsində cəlb edilən professor-müəllim heyətinin dinamikasında artım müşahidə edilmişdir.




***Qrafik 58. Beynəlmiləlləşmə proqramlarında iştirak edən akademik heyətin sayının ümumi professor müəllim heyətinin sayına nisbəti (%)***

### 7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarə edilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

Xəzər Universitetində beynəlmiləlləşmə siyasətinin səmərəliliyinin təşkil edilməsi üçün monitorinq əsasən üç istiqamətdə təşkil olunur:

- Mükəmməllik (mümkün olan ən yaxşı işi görməyə çalışmaq);
- Müsbət transformasiya (inkişafın və müsbət təkamülün effektivliyin əsası olduğuna inanaraq);
- Təkmilləşdirmə (prosesin davamlı təkmilləşdirilməsini nəzərə alaraq).

Müvafiq proses üzrə hesabatlılığa rəhbərlik Beynəlxalq əlaqələr üzrə prorektor tərəfindən həyata keçirilir. Belə ki, beynəlmiləlləşmə siyasəti üzrə hər tədris ili üçün müvafiq prorektorun iştirakı ilə fəaliyyət planı hazırlanır və plana müvafiq hesabatlar təqdim olunur. Təqdim olunan fəaliyyət planı və hesabatlar Xəzər Universitetinin Strateji Planının beynəlmiləlləşmə siyasətinin istiqaməti olan 4-cü strateji hədəfinə uyğun aparılır.

Müvafiq indikator üzrə monitorinq meyarlarının təkmilləşdirilməsinə ehtiyac vardır.

### 7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

ATM-də ikili diplom proqramları üzrə universitetlərarası bağlanmış qarşılıqlı müqavilənin 2-ci bəndinə əsasən Xəzər Universitetinin tələbələri 180 AKTS kreditinə uyğun olaraq 4 illik bakalavr pilləsinin altı, 2 illik magistr pilləsinin iki semestrini başa vurduqdan sonra Braqansa Politexnik İnstitutunda (Portuqaliya) təhsilini davam etdirirlər. Yeddinci və səkkizinci semestrlər ərzində Xəzər Universitetinin tələbələri Portuqaliyada 60 və 78 AKTS kreditdən ibarət tədris planından fənləri götürürlər və əldə etdikləri kreditlər ATM tərəfindən tanınır.

### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

ATM-də akademik heyətin mübadiləsi Strateji Planda 4.1.3-cü alt hədəfə (“*Mübadilə proqramında iştirak edən müəllim və işçi heyətinin sayını artırmaq”*) əsasən tənzimlənir.

Xəzər Universitetinin Strateji Planının icrasının 2021/22-ci tədris ilində fəaliyyət istiqamətləri üzrə Tədbirlər Planının 4-cü fəaliyyət istiqamətində akademik heyətdə əcnəbi professor-müəllim heyətinin sayının çoxaldılması üçün hədəf indikatoru 20% artım nəzərdə tutulsa da, 2022-ci ildə dinamikada azalma müşahidə edilmişdir.




***Qrafik 59. Xarici professor-müəllim heyətinin dinamikası (nəfər)***




***Qrafik 60. Xarici professor-müəllimlərin sayının ümumi professor-müəllim sayına nisbəti (%)***

### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hər kəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

Xəzər Universitetində akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və əlçatanlıq prinsipləri əsasında təşkil edilməsi üçün müvafiq komitə yaradılmışdır. Komitənin təşkilatçılığı ilə məlumat lövhələrində və ATM-in rəsmi internet səhifəsində elanlar yerləşdirilir. Mübadilədən öncə və mübadilə müddətində iştirakçılara viza proseduru, sənəd dəstəyi və yerləşdirmə ilə bağlı müvafiq məlumatlar verilir, məlumatlandırma sessiyaları təşkil edilir. Mübadilədən qayıtdıqdan sonra heyətə ATM tərəfindən sertifikat təqdim olunur və proqram zamanı görülən işlər haqqında qısa hesabat xarakterli məlumat hazırlanaraq bazada saxlanılır.

### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

Xəzər Universitetinin tələbələri, professor-müəllim heyəti və inzibati heyətinin Erasmus Mundus, Fulbright Təqaüd Proqramı (ABŞ), Mövlanə Mübadilə Proqramı (Türkiyə) və s. proqramlarda iştirakı müşahidə edilmişdir. Son 5 il ərzində (2018-2022-ci illər) ATM-dən 39

bakalavr, 12 magistr, 3 doktorant, 130 nəfər akademik heyət və 105 nəfər inzibati heyət üzvü beynəlxalq mübadilə proqramlarında iştirak etmişdir. Buna baxmayaraq, pandemiya səbəbindən Strateji Planda müvafiq indikator üzrə qoyulan hədəflərə nail olunmadığı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir.




***Qrafik 61. Beynəlxalq mübadilə proqramlarında iştirak edən tələbələrin dinamikası (nəfər)***




***Qrafik 62. Beynəlxalq mübadilə proqramlarında iştirak edən akademik və inzibati heyətin 2018-2022-ci illər üzrə dinamikası (nəfər)***

Mübadilə proqramlarında fənlərin həcmi əsasən AKTS-ə uyğun dəyərləndirilir, hər-hansı bir ATM-də fərqli sistem tətbiq olunduğu halda kreditlərin AKTS uyğunluğu təmin olunur.

Strateji Planın icrası məqsədilə Tədbirlər Planında nəzərdə tutulan indikatorlar üzrə hədəflərə nail olmaq üçün əlavə tədbirlərin görülməsi Akkreditasiya Komissiyası tərəfindən tövsiyə edilir.

### 7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

ATM-in beynəlxalq reytinqlərdə təmsil olunması Strateji Plana uyğun olaraq həyata keçirilir (Strateji hədəf 4.3: “*Universitetin beynəlxalq reytinqlərdə mövqeyini gücləndirmək”).*

2021/22-ci tədris ili üzrə Strateji Planın icrası məqsədilə Tədbirlər Planının 4-cü fəaliyyət istiqamətində ATM-in beynəlxalq reytinqlərdə təmsil olunması ilə bağlı aşağıdakı tədbirlər və hədəf indikatorları müəyyən edilmişdir.

***Cədvəl 29. Xəzər Universitetinin beynəlxalq reytinqlərdə təmsil olunma ilə bağlı hədəfləri***

| № | Nəzərdə tutulan tədbir | İndikator |
|---|---|---|
| 1. | Beynəlxalq reytinqlərdə dünyanın ən yaxşı universitetləri sırasında yer alınmasının təmin edilməsi | Beynəlxalq reytinqdə daha da yüksək mövqenin əldə edilməsi |
| 2. | ATM-in “QS World University Rankings” reytinq | Reytinq cədvəlində |

| | | |
|---|---|---|
| | cədvəlində yüksək mövqeyinin təmin edilməsi | hədəf: 701-800 aralığı |
| 3. | "İnkişaf etməkdə olan Şərqi Avropa və Mərkəzi Asiya" regionu üzrə QS EECA reytinq cədvəlində mövqeyi | Reytinq cədvəlində hədəf: 100-200 aralığı |
| 4. | Universitetin THE Impact reytinq cədvəlində "Təhsilin keyfiyyəti" üzrə yüksək mövqeyinin təmin edilməsi | Reytinq cədvəlində hədəf: 101-200 aralığı |
| 5. | Reytinq cədvəllərində önəmli olan göstəricilər üzrə mövqeyimizi möhkəmlətmək üçün uyğun resurslarla (maliyyə, insan və s.) təmin edilməsi | Reytinqdə mövqenin gücləndirilməsi üçün təmin edilən maliyyə və insan resursları |

Akkreditasiya Komissiyasına təqdim edilmiş hesabatların (2021/22-ci tədris ili üzrə) təhlili nəticəsində Xəzər Universitetinin beynəlxalq reytinqlərdə təmsil olunması ilə bağlı aşağıdakı məqamları qeyd etmək lazımdır:

- "Times Higher Education Impact Rankings" reytinqində 601-800-ci mövqedə (4, 7, 11 və 17-ci məqsədlər üzrə) təmsil olunmuşdur (*2023-cü ildə də eyni mövqedədir*);
- "QS EECA 2022" regional reytinqində 211-220-ci mövqedə təmsil olunmuşdur (*hədəf indikatoru isə 100-200 arası mövqe olmuşdur*).

Qeyd etmək lazımdır ki, 2018-ci ilə qədər Xəzər Universiteti "QS World University Rankings" qlobal reytinqində (701-800 arası) təmsil olunsa da, 2018-ci ildən etibarən sözügedən qlobal reytinqə daxil olmamışdır. Strateji Planın icrası məqsədilə Tədbir Planında QS qlobal reytinqi ilə bağlı 701-800 mövqeyi üzrə hədəf indikatoru qoyulsa da, hədəfə nail olunmadığı məlum olmuşdur. Müvafiq məsələnin təhlil edilərək araşdırılması və bu istiqamətdə fəaliyyətin təkmilləşdirilməsi tövsiyə olunur.

Ümumilikdə, reytinqlərdə təmsil olunma ilə bağlı hədəf indikatorları müəyyənləşdirilərkən onların ölçüləbilən olması və rəqəmsal dinamikanın izlənilməsi üçün uyğun olmasına diqqət yetirilməsi tövsiyə olunur.

### *7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

#### 7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

Xəzər Universiteti beynəlmiləlləşmə siyasətinin icrası üçün daxili maliyyə resurslarının artırılması məqsədilə qrantlar, təqaüdlər və digər mənbələr vasitəsilə fəal şəkildə xarici maliyyə vəsaiti cəlb edir. Buraya hökumət qrantları, beynəlxalq maliyyələşdirmə proqramları, korporativ sponsorluqlar və ya xeyriyyə ianələri daxildir. Həmçinin, ATM tərəfdaş institutlar, hökumətlər və ya sənaye tərəfdaşları ilə birgə maliyyələşdirmə və xərclərin bölüşdürülməsi üzrə razılaşma imkanlarını araşdırır. Bu, birgə təşəbbüslər, xüsusi proqramlar üçün ortaq maliyyələşdirmə və ya strateji tərəfdaşlıq vasitəsilə resurslardan istifadəni əhatə edir. Birgə maliyyələşdirmə modelləri beynəlmiləlləşmə üçün mövcud olan maliyyə resurslarını genişləndirməyə kömək edir və qarşılıqlı faydalı əlaqələri gücləndirir.




***Qrafik 63. Beynəlmiləlləşmə istiqamətində ayrılmış maliyyə resurslarının 2018-2022-ci illər üzrə dinamikası (min manatla)***

### 7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

Xəzər Universitetində beynəlmiləlləşmə fəaliyyətin idarə olunması beynəlxalq əlaqələr üzrə prorektor və Beynəlxalq əlaqələr ofisi tərəfindən həyata keçirilir. Ofisdə beynəlxalq əlaqələr, tələbə mobilliyi, qlobal tərəfdaşlıq və mədəniyyətlərarası ünsiyyət sahəsində ixtisaslaşmış kadrlar çalışır.

Əlavə olaraq qeyd etmək lazımdır ki, fakültələrdə Beynəlxalq Əlaqələr ofisi ilə əlaqəni təmin edən və müvafiq məsələləri koordinasiya edən əməkdaşlar fəaliyyət göstərir.

Özünütəhlil Hesabatında beynəlxalq əlaqələr üzrə prorektorun eyni zamanda Beynəlxalq əlaqələr ofisinin rəhbəri vəzifəsini də icra etdiyi qeyd olunmuşdur. Lakin müvafiq istiqamətdə fəaliyyətin səmərəliliyi baxımından sözügedən prorektorun eyni zamanda iki vəzifəni icra etməsi Akkreditasiya Komissiyası tərəfindən məqsədəuyğun hesab edilməmişdir.

### 7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

ATM-ə sahə səfəri zamanı beynəlmiləlləşmə siyasətinin icrası üçün müvafiq struktur bölmələrin zəruri infrastrukturla təmin olunduğu Akkreditasiya Komissiya tərəfindən müşahidə edilmişdir. Tələb olunan infrastrukturun əlçatanlığı da müvafiq qaydada təmin olunur. Əlavə olaraq qeyd etmək lazımdır ki, xarici tələbələrin təhsil aldığı müddətdə və qonaqlar üçün Xəzər Universiteti tərəfindən yataqxana xidmətləri təklif olunur.

### 7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

Xəzər Universitetində beynəlmiləlləşmə siyasətinin icrası üçün zəruri resursların monitorinq və qiymətləndirilməsinin illik hesabatların təhlili əsasında aparıldığı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Həmçinin, ATM-də tələbələr, müəllimlər, işçilər və tərəfdaş qurumlar da daxil olmaqla maraqlı tərəflərdən məlumat toplamaq üçün sorğular keçirilir. Sorğular vasitəsilə  məmnunluq səviyyəsi qiymətləndirilir, təkmilləşdirilməli sahələr müəyyən olunur, resurslardan istifadə və beynəlmiləlləşdirmə səylərinin effektivliyinə dair fikirlər toplanır.

## *7.4 Beynəlmiləlləşmə performansı*

### 7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

ATM-ə sahə səfəri çərçivəsində beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarətin illik əsasda fəaliyyət planları və hesabatların hazırlanması ilə aparıldığı Akkreditasiya Komissiyası tərəfindən müşahidə edilmişdir. Lakin qiymətləndirmənin rəqəmsal izlənilməsi üçün müəyyən olunan hədəf indikatorlarının bəzilərinin ölçüləbilən olmadığı müəyyən olunmuşdur. Bununla əlaqədar olaraq, müvafiq istiqamətdə ATM-in beynəlmiləlləşmə performansını qiymətləndirməyə şərait yaradan daxili və xarici monitorinq mexanizminin təkmilləşdirilməsi tövsiyə olunur.

### 7.4.2 Beynəlmiləlləşmə prosesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

ATM-ə sahə səfəri çərçivəsində beynəlmiləlləşmə prosesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmənin illik əsasda hazırlanan fəaliyyət planları və hesabatların rektorluqda müzakirəsi nəticəsində müəyyən olunan ehtiyaclar əsasında aparıldığı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir. Lakin qiymətləndirmənin rəqəmsal izlənilməsi üçün müəyyən olunan hədəf indikatorlarının bəzilərinin ölçüləbilən olmadığı müəyyən olunmuşdur. Nəticə olaraq, müvafiq istiqamətdə təkmilləşdirmənin aparılması tövsiyə olunur.

## Komissiyanın istiqamətlər üzrə təhlili

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | 1. Strateji Planın (2018 - 2023) mövcudluğu və əlçatanlığının təmin edilməsi;<br>2. Missiya, gələcəyə baxış, dəyərlər, istiqamətlər, hədəflər və alt hədəflərin müəyyən edilməsi;<br>3. Strateji Planın təsdiqi, icrası və icrasının monitorinqinə ATM rəhbərliyinin birbaşa nəzarətinin olması;<br>4. Strateji Planın ATM-in beynəlxalq rəqabət qabiliyyətinin artırılması üçün uyğun olması. |
| **Zəif tərəflər** | 1. Strateji Planın icrası üçün orta və uzunmüddətli tədbirlər planının olmaması;<br>2. SWOT təhlilin hazırlanması zamanı öncəki monitorinq nəticələrinin yetərli səviyyədə nəzərə alınmaması ("Zəif tərəflər" bölməsində);<br>3. Müəyyən alt hədəflərin icra vəziyyətinin monitorinqinin aparılması üçün ölçüləbilən icra və hədəf göstəricilərinin təyin olunmaması;<br>4. Strateji Planın icrasının monitorinqi ilə bağlı dinamikanın izlənilməsində çatışmazlıqların olması;<br>5. Risklərin nəzərə alınmaması nəticəsində bəzi strateji alt hədəflərə nail olunmaması (Strateji Plan üzrə son hesabat ili – 2023). |
| **İmkanlar** | 1. Müasir dövrdə xarici ölkələrin universitetləri ilə əməkdaşlığın qurulması üçün yeni imkanların olması;<br>2. Beynəlxalq təcrübədən istifadənin əlçatanlığı;<br>3. Ölkədə təhsil qanunvericiliyinin mütəmadi təkmilləşdirilməsi və ömürboyu təhsilin dəstəklənməsi;<br>4. Təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına dövlət dəstəyinin olması;<br>5. Universitet-sənaye əməkdaşlıq imkanlarının artması. |
| **Təhdidlər** | 1. Beynəlxalq və yerli ali təhsil müəssisələri ilə rəqabətin güclənməsi;<br>2. Peşəkar kadr təminatında çətinliklərin olması. |
| **Komissiyanın tövsiyəsi** | *Strateji Planın 2023-cü ildə bitməsini nəzərə alaraq, növbəti dövr üçün hazırlanacaq strateji inkişaf planı (SİP) ilə bağlı aşağıdakılar tövsiyə olunur:* |

| | |
|---|---|
| | 1. SWOT təhlilin hazırlanması zamanı ötən monitorinq və Akkreditasiya Komissiyasının qiymətləndirmə nəticələrinin nəzərə alınması;<br>2. SİP-də strateji istiqamət, hədəf və alt hədəflər müəyyənləşdirilərkən onların icra olunma potensialının təhlil edilməsi və ölçüləbilən indikatorların müəyyən edilməsi;<br>3. SİP-in icrasının monitorinqinin səmərəli aparılması üçün illər üzrə ayrı-ayrılıqda, o cümlədən dövr üzrə konkret icra və hədəf göstəricilərinin müəyyənləşdirilməsi;<br>4. SİP-in qısa, orta və uzunmüddətli Tədbirlər Planları ilə dəstəklənməsi. |

| **2. Keyfiyyət təminatı** | |
|---|---|
| **Güclü tərəflər** | 1. "Keyfiyyət Təminatı Siyasəti" sənədinin, keyfiyyət təminatı üzrə strukturun və kollegial orqanın mövcudluğu;<br>2. Daxili keyfiyyət təminatı sisteminin mövcudluğu və sözügedən mexanizmin bütün struktur bölmələr ilə əlaqəli fəaliyyəti;<br>3. Daxili keyfiyyət təminatı sisteminin əlçatanlığı;<br>4. Tədris prosesi və professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi sisteminin mövcudluğu;<br>5. Tədris prosesinin səmərəli təşkili məqsədilə daxili qaydalar və əsasnamələr toplusunun mövcudluğu və əlçatanlığı;<br>6. Məmnunluq səviyyəsinin ölçülməsi məqsədilə mütəmadi olaraq sorğuların keçirilməsi. |
| **Zəif tərəflər** | 1. Təhsil və fənn proqramlarına nəzarət mexanizminin yetərli olmaması;<br>2. Keyfiyyət Təminatı Mərkəzinin strukturunun tam formalaşmaması və işçi heyətinin sayının yetərli olmaması;<br>3. Bir çox ixtisaslar üzrə qəbulda əmək bazarının tələblərinin nəzərə alınmaması;<br>4. Tədris prosesində iştirak edən və ştatda olan sabit professor-müəllim heyətinin sayının az olması;<br>5. Strateji Planda daxili keyfiyyət təminatı sistemi ilə əlaqədar konkret hədəflərin qoyulmaması. |
| **İmkanlar** | 1. Beynəlxalq əlaqələrin inkişafının təhsil sahəsində yeni əməkdaşlıqların artmasına təkan verməsi;<br>2. Texniki sahənin inkişafının tədris sahəsində daha keyfiyyətli təhsil üçün geniş imkanlar yaratması;<br>3. Təhsil proqramlarının mövcudluğu və təhsilin inkişafına dövlət dəstəyi;<br>4. Keyfiyyətli mütəxəssislərə tələbatın artması; |

| | |
|---|---|
| | 5. Mübadilə proqramları vasitəsilə təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi. |
| **Təhdidlər** | 1. Ölkədə təhsil xidməti sahəsində rəqabətin artması;<br>2. ATM-in büdcəsinin böyük hissəsinin təhsil haqqından formalaşması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Keyfiyyət Təminatı Mərkəzinin strukturunun təkmilləşdirilməsi məqsədilə işçi heyətinin sayının artırılması istiqamətində işlərin aparılması;<br>2. ATM əməkdaşlarının “Keyfiyyət Təminatı Siyasəti” barədə məlumatlı olması və bu siyasəti bölüşməsi sahəsində görülən işlərin davamlılığının təmin olunması;<br>3. Fənn proqramları üzrə təlim nəticələrinə nəzarət mexanizminin işlənib hazırlanması;<br>4. Keyfiyyət təminatı üzrə növbəti dövr üçün Fəaliyyət Planlarının təkmilləşdirilməsi;<br>5. ATM-in akademik heyətinin gücləndirilməsi, ştatda olan professor-müəllim heyətinin sayının artırılması və sabit kadr potensialının formalaşdırılması. |

| **3. Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Təhsilalanların əvvəlki kvalifikasiyalarının tanınması üçün daxili əsasnamənin mövcudluğu;<br>2. Tədris prosesinin elektron platformalar (SIMS, MS Teams) vasitəsilə tənzimlənməsi;<br>3. Tədris və qiymətləndirmə prosesində inklüziv tələbələrə münasibətdə fərdi yanaşmanın mövcudluğu;<br>4. Akademik heyətin peşəkar inkişafına dəstəyin göstərilməsi;<br>5. Təhsilalanlar üçün ATM tərəfindən təqaüd imkanlarının yaradılması;<br>6. Tələbə-əmək bazarı münasibətlərinin dəstəklənməsi;<br>7. Təlim və tədris resurslarının əlçatanlığının təmin olunması. |
| **Zəif tərəflər** | 1. Tələbə qəbulu proqnozlarının təhlilinin yetərli olmaması səbəbindən müəyyən ixtisaslara faktiki qəbul faizinin aşağı olması;<br>2. Təhsil proqramlarının tələblərinin (***1.3** – təhsil proqramının bütün ATM-lər üçün məcburi olması;* ***1.4** – 5 günlük iş rejimi, auditoriya saatlarının həcmi,* ***3.1** – təhsil proqramının strukturu,* ***5.4** – fərqli qiymətləndirmə üsulları,* ***6.2** – təlim nəticələrinin uyğunlaşdırılması,* ***9.3** – ömürboyu təhsil*) tam yerinə yetirilməməsi; |

| | |
|---|---|
| | 3. Qiymətləndirmə meyarlarının ETN-nin tələblərinə uyğun olmaması səbəbindən kredit borcu yaranmış tələbələrin (*2021/22-ci tədris ilinin göstəricisi: bakalavriat səviyyəsi üzrə 95% və magistratura səviyyəsi üzrə 93%)* və fənlərin (*2021/22-ci tədris ilinin göstəricisi: bakalavriat səviyyəsi üzrə 335 və magistratura səviyyəsi üzrə 50)* illər üzrə artmasının müşahidə edilməsi;<br>4. Professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yerinin ATM olmaması;<br>5. Magistratura səviyyəsi üzrə fənn sillabuslarında təlim nəticələrinin bakalavriat səviyyəsi ilə eyni ağırlıqda və ümumi məlumat xarakterli olması;<br>6. Tədris prosesi ilə bağlı sənədləşmənin müəyyən hissəsinin azərbaycan dilində olmaması. |
| **İmkanlar** | 1. Ali təhsilin və təhsil xidmətlərinin əlçatanlığı;<br>2. Təhsil xidmətlərinə əlçatanlılığın təmin edilməsində dövlət dəstəyi;<br>3. Təhsil xidmətlərinə əlçatanlılığın təmin edilməsi və inkişafında dəstək əsaslı layihələrin mövcudluğu;<br>4. Beynəlxalq səviyyədə distant təhsilə tələbatın artması və bu sahədə yüksək texnologiyaların mövcudluğu;<br>5. ATM tərəfindən göstərilən təhsil xidmətlərinin əmək bazarına inteqrasiyasının artması. |
| **Təhdidlər** | 1. Təhsil xərclərinin artması;<br>2. Tələbələr tərəfindən ixtisas seçimi zamanı dövlət ali təhsil müəssisələrinə üstünlüyün verilməsi;<br>3. Əmək bazarında bəzi ixtisaslar üzrə tələbatın azalması və məzunların işə cəlb olunmasında çətinliklərin mövcudluğu. |
| **Komissiyanın tövsiyəsi** | 1. Tələbə qəbulu üçün sifariş yerlərinin sayının müəyyənləşdirilməsi istiqamətində təhlillərin aparılması, bir çox ixtisasların qəbulunda əmək bazarının tələblərinin nəzərə alınması;<br>2. “5 (beş) günlük iş rejimi”nin təmin edilməsi, dərs cədvəllərində günlük bölgünün optimallaşdırılması və rasionallaşdırılması;<br>3. Tədris fənlərinin təhsil proqramlarının tələblərinə uyğunluğunun təmin olunması;<br>4. Fənlərin həftəlik ümumi auditoriya və auditoriyadan kənar saatlarının miqdarının təhsil proqramlarına və qanunvericiliyin tələblərinə uyğunluğunun təmin edilməsi;<br>5. Əsas normativ sənədlərin (ixtisasın (ixtisaslaşmanın) tədris planı, ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki, ixtisas (ixtisaslaşma) üzrə illik işçi tədris planı, tələbənin fərdi tədris planı, müəllimin illik işçi tədris planı) struktur baxımından tələblərə uyğunlaşdırılması;<br>6. İctimaiyyətə təqdim olunan bütün sənədlərin azərbaycan dilində də tərtib edilməsi; |

| | |
|---|---|
| | 7. Müəllimlər tərəfindən təşkil edilən imtahanqabağı məsləhət saatlarının onların akademik yüklərində əks olunması, məsləhət saatlarının tələbələrə əlçatanlığı təmin edilməklə konkret cədvəllər şəklində təşkil edilməsi;<br>8. Fənn sillabuslarının tərtibatının təkmilləşdirilməsi (ədəbiyyat siyahısının müasirləşdirilməsi, dərs mövzularının tədqiqatyönümlülüyünün artırılması və s.);<br>9. Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi sisteminin qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun formalaşdırılması;<br>10. Professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması üçün optimallaşma işlərinin aparılması;<br>11. ATM-in rəsmi internet saytında məzunlar arasında daimi sorğuların aparılması üçün müvafiq panelin, elektron məzun şəbəkəsinin yaradılması. |

| **4. Elmi tədqiqat** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Elmi-tədqiqat Strategiyasının mövcudluğu və əlçatanlığının təmin olunması;<br>2. Strategiyanın illik fəaliyyət planları ilə dəstəklənməsi;<br>3. Beynəlxalq məlumat bazalarında indekslənən nüfuzlu jurnallarda (Q1, Q2) məqalələrin dərc olunması;<br>4. Elmi-tədqiqat sahəsində beynəlxalq əməkdaşlığın əhatəliliyi;<br>5. Beynəlxalq elmi-tədqiqat qrant layihələrinin mövcudluğu;<br>6. Mütəmadi olaraq elmi-tədqiqat xarakterli tədbirlərdə iştirak və sözügedən tədbirlərin təşkilinə dəstəyin göstərilməsi. |
| **Zəif tərəflər** | 1. Elmi-tədqiqat fəaliyyəti üzrə idarəetmə strukturunun formalaşmaması;<br>2. Elmi-tədqiqat Strategiyasının icrası üzrə Tədbirlər Planlarının müəyyən monitorinq meyarlarının ölçüləbilən olmaması;<br>3. Elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiya mexanizminin təkmilləşdirilməsi üzrə ehtiyacın olması;<br>4. Elmi-tədqiqat fəaliyyəti nəticəsində patentlərin olmaması;<br>5. Elmi dərəcəsi olan tədqiqatçıların ümumi akademik heyətə olan nisbətində azalma tendesiyasının olması. |

| | |
|---|---|
| **İmkanlar** | 1. Beynəlxalq əlaqələrin inkişafı nəticəsində birgə elmi-tədqiqat layihələrinin sayının artması;<br>2. Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının artması. |
| **Təhdidlər** | 1. Magistratura proqramlarında tədris edilən tədqiqat yönümlü fənlərin elm sahəsində tədqiqat məqsədləri ilə tam uzlaşmaması;<br>2. Ali təhsil müəssisələrinin elmi-tədqiqat hədəfləri ilə elm sahəsində sürətli innovasiyalar arasında uzlaşmanın tam təmin olunmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Elmi-tədqiqat fəaliyyəti üzrə idarəetmə strukturunun formalaşdırılması;<br>2. Elmi-tədqiqat Strategiyasının növbəti dövr üçün qısa, orta və uzunmüddətli fəaliyyət planları ilə dəstəklənməsi;<br>3. Əqli mülkiyyətin qorunması, elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiyalaşdırılması ilə bağlı təkmilləşdirmənin aparılması;<br>4. Elmi dərəcəli tədqiqatçıların payının ümumi akademik heyətə nisbətdə artırılması;<br>5. Elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiya mexanizminin təkmilləşdirilməsi. |

| **5. İdarəetmə sistemi** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Əməkdaşların peşəkarlıq səviyyəsinin artırılmasına dəstəyin göstərilməsi;<br>2. Tədrisin elektron idarəetmə siteminin (SIMS) funksionallığı;<br>3. ATM-in fəaliyyəti barədə məlumatların əlçatanlılığının müxtəlif platformalar vasitəsilə təmin edilməsi. |
| **Zəif tərəflər** | 1. Tədrisin idarə edilməsi, elmi-tədqiqat fəaliyyəti, insan resurslarının idarə edilməsi, daxili keyfiyyət təminatı sistemi, tyutor (akademik məsləhətçi) xidməti, kargüzarlıq xidməti və beynəlxalq əlaqələr üzrə idarəetmə strukturunun təkmilləşdirilməsi üzrə ehtiyacın mövcudluğu;<br>2. Bəzi struktur bölmə rəhbərlərinin 0.5 ştat vahidi ilə ATM-də əmək fəaliyyətinə cəlb olunması;<br>3. ATM-in kadr potensialının (aşağı və orta idarəetmə səviyyəsində) Strateji Planın səmərəli icrası üçün qismən uyğun olması;<br>4. İnzibati heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi üçün differensial əməkhaqqı sisteminin tətbiq olunmaması;<br>5. ATM-də daxili elektron sənəd dövriyyəsinin mövcud olmaması. |

| | |
|---|---|
| **İmkanlar** | 1. Elektron idarəetmə sahəsində sürətli texnoloji inkişaf prosesi;<br>2. Əməkdaşların kvalifikasiyasının artırılması üçün beynəlxalq təlimlərin təşkili;<br>3. Yerli və beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilən proqram və layihələrin mövcudluğu. |
| **Təhdidlər** | 1. Eyni ixtisas və xidmətləri təklif edən yerli və beynəlxalq ATM-lərin olması;<br>2. Dayanıqlı və sabit kadr potensialının formalaşdırılması ilə bağlı çətinliklər;<br>3. Yüksək kvalifikasiyalı kadrların beyin axını prosesi nəticəsində xarici ölkələrə üz tutması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Elmi Şuranın tərkibinə daxil olan işəgötürənlərin aktiv təmsilçiliyinin təşkil edilməsi;<br>2. Tədris prosesində fəaliyyətin səmərəliliyinin yüksəldilməsi və təkmilləşdirilməsi üçün Tədris-Metodiki Şuranın yaradılması;<br>3. ATM-də qəbul edilmiş daxili qərarların Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinin tələblərinə uyğunlaşdırılması;<br>4. Daxili kommunikasiyanın gücləndirilməsi məqsədilə elektron sənəd dövriyyəsinin tətbiq olunması;<br>5. “Zəif tərəflər” bölməsində göstərilmiş istiqamətlər üzrə idarəetmə strukturunun optimallaşdırılması;<br>6. Keyfiyyət Təminatı Mərkəzinin fəaliyyətində müstəqilliyin təmin olunması;<br>7. Strateji Planın səmərəli icrası üçün ATM-in kadr potensialının (aşağı və orta idarəetmə səviyyəsində) gücləndirilməsi;<br>8. Qeyri-akademik heyətin xidməti fəaliyyətinin qiymətləndirilməsi üçün meyarların müəyyənləşdirilməsi və differensial əməkhaqqı sisteminin tətbiq olunması;<br>9. ATM-in rəsmi saytında bütün məlumatların Azərbaycan dilində də təqdim olunması. |

| **6. İnfrastruktur** | |
|---|---|
| **Güclü tərəflər** | 1. ATM-in maddi-texniki bazası və təhsil resurslarının maraqlı tərəflər üçün əlçatan olması;<br>2. İstehsalat-təcrübə bazasının mövcudluğu;<br>3. Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu;<br>4. Lazımi avadanlıqlarla təchiz olunmuş laboratoriyalar və emalatxanaların olması;<br>5. Distant (məsafədən) təhsil infrastrukturunun olması;<br>6. Müasir tələblərə cavab verən yataqxananın mövcudluğu. |

| | |
|---|---|
| **Zəif tərəflər** | 1. Hər bir təhsilalana düşən kitabxana sahəsinin normativlərə uyğun olmaması;<br>2. Nizami korpusunun sağlamlıq imkanları məhdud şəxslərə uyğunlaşdırılmaması;<br>3. Yeməkxanalarda oturma yerlərinin tələbə sayına nisbətdə az olması;<br>4. Nizami korpusunda tibb xidmətinin olmaması. |
| **İmkanlar** | 1. Sənaye-universitet əlaqələrini gücləndirən innovativ mərkəzlərin mövcudluğu;<br>2. Gənc alim və doktorantların maddi-texniki resurslar və yaşayış yeri ilə təmin edilməsi üçün dövlət dəstəyinin olması;<br>3. Tədrisin distant (məsafədən) təşkili vasitəsilə ATM-lərin maddi-texniki resurslarından istifadənin azalması;<br>4. ATM-in maddi-texniki bazasından istifadədə təkrar istehsala və ekoloji təmiz infrastruktura keçidin mümkünlüyü. |
| **Təhdidlər** | 1. Texnoloji inkişaf və istifadəçilərin tələblərinin sürətli dəyişməsi nəticəsində maddi-texniki bazanın davamlı yenilənməsi ehtiyacının olması;<br>2. ATM-lərin maddi-texniki bazasının saxlanması və yenilənməsi üçün xərclərin artırılması zərurəti;<br>3. İnfrastrukturla bağlı normativlərin beynəlxalq səviyyəyə çatdırılmasında çətinliklərin olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Tibb xidmətinin ATM-in bütün tədris binalarında təşkil edilməsi;<br>2. İstifadə nəticəsində gəlirlərin əldə edilməsi məqsədilə laboratoriyaların pasportlaşdırılması;<br>3. İnklüziv tədris infrastrukturunun bütün tədris binalarında təşkil edilməsi. |

| **7. Beynəlmiləlləşmə** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Beynəlmiləlləşmə Strategiyasının mövcudluğu və əlçatanlığının təmin olunması;<br>2. Mübadilə proqramlarında iştirak edən inzibati və müəllim heyətinin sayında müsbət dinamikanın izlənilməsi;<br>3. Əcnəbi təhsilalanlar və akademik heyətin cəlb olunması üçün müxtəlif təşviq vasitələrinin tətbiq olunması;<br>4. Beynəlxalq qrant layihələrində (Erasmus+, Jean Monnet və s.) iştirakın təmin olunması. |
| **Zəif tərəflər** | 1. Mübadilə proqramlarında iştirak edən təhsilalanların sayında azalma tendensiyasının müşahidə edilməsi;<br>2. Beynəlxalq əlaqələr üzrə idarəetmə strukturunda vəzifə səlahiyyətlərinin qeyri-səmərəli bölgüsü;<br>3. Strateji Planda “Beynəlmiləlləşmə” istiqaməti üzrə bəzi hədəf indikatorlarının ölçüləbilən olmaması. |

| | |
|---|---|
| **İmkanlar** | 1. Beynəlxalq mübadilə və qrant layihələrinin mövcudluğu və əlçatanlığı;<br>2. Xarici ATM-lər ilə əməkdaşlıq çərçivəsində ikili diplom imkanlarının mövcudluğu;<br>3. ATM-in tanınması və əcnəbi tələbələrin cəlbi üçün beynəlxalq reytinq bazalarının mövcudluğu. |
| **Təhdidlər** | 1. Əcnəbi təhsilalanların cəlbi istiqamətində digər ATM-lər ilə rəqabətin artması;<br>2. Təhsil sahəsi və texnoloji sferada mütəmadi olaraq dəyişikliklərin müşahidə edilməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. Mübadilə proqramlarında iştirak edən təhsilalanların sayında müsbət dinamikaya nail olmaq üçün təşviq tədbirlərinin artırılması;<br>2. İkili diplom proqramından yararlanan tələbələrin sayının artırılması üçün fəaliyyətin təkmilləşdirilməsi;<br>3. Beynəlxalq əlaqələr üzrə idarəetmə strukturunda vəzifə səlahiyyətlərinin bölgüsünün təkmilləşdirilməsi;<br>4. Beynəlxalq reytinqlərdə təmsil olunma ilə bağlı növbəti dövr üçün Strateji Planda hədəf indikatorlarının qoyulması zamanı onların ölçüləbilən olmasına diqqətin artırılması və rəqəmsal dinamikanın izlənilməsi üçün müvafiq meyarların müəyyən edilməsi;<br>5. Beynəlmiləlləşmə performansını qiymətləndirməyə şərait yaradan monitorinq mexanizminin təkmilləşdirilməsi;<br>6. Strateji Planda “Beynəlmiləlləşmə” istiqaməti üzrə nəzərdə tutulan bütün hədəflər və tədbirlər planı üzrə hesabatlılığın təmin olunması. |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

ATM-in fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, imkanlar və təhdidlər olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 4; Keyfiyyət təminatı istiqaməti üzrə 5; Təlim və tədris istiqaməti üzrə 11; Elmi tədqiqat istiqaməti üzrə 5; İdarəetmə istiqaməti üzrə 9; İnfrastruktur istiqaməti üzrə 3 və Beynəlmiləlləşmə istiqaməti üzrə 6 tövsiyə olmaqla, ümumilikdə 43 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıdakı tədbirlərin Xəzər Universiteti tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 6 (altı) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);
- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, Xəzər Universitetinin müvafiq istiqamətlər üzrə fəaliyyətlərinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə **“əsasən uyğundur”** hesab edilməsi;
- Xəzər Universitetinin 2023/24-cü tədris ilindən başlayaraq növbəti 5 il müddətinə institusional akkreditasiyadan keçməsi məqsədəuyğun hesab edilir.